*Milli Kitabxana*

# ZƏLİMXAN YAQUB

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

II CİLD

"ŞƏRQ-QƏRB"
BAKI-2006



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**894.361 l-dc 21**
**AZE**
**Zəlimxan Yaqub. Seçilmiş əsərləri.** İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2006, 288 səh.

Müasir Azərbaycan poeziyasında öz dəst-xətti ilə seçilən tanınmış şair Zəlimxan Yaqub xalq yaradıcılığının bədii texnologiyasından ustalıqla bəhrələnərək, ədəbiyyatımızda irsilik ənənələrini sədaqətlə davam etdirir.

Xalqın mübarizə ruhunun, milli təəssübkeşlik və vətənpərvərlik hisslərlənin ictimai-estetik düşüncəyə uyğun bədii-emosional ifadəsi şairin əsərlərini səciyyələndirən əsas cəhətlərdən biridir.

**ISBN10 9952-34-009-5**
**ISBN13 978-9952-34-009-9**

© "ŞƏRQ-QƏRB", 2006



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Şeirlər



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏNİM BİRCƏ DİNİM VAR,
## DİNİMİN ADI SEVGİ

Dillər ayırır bizi,
dinlər ayırır bizi,
Şeytanlar nifaq salır,
cinlər ayırır bizi.
Sevgilər yox, qəzəblər,
kinlər ayırır bizi,
Həyatımın, ömrümün,
dinimin adı sevgi.
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Ruh Adəmə verildi,
Adəmi ruh yaratdı,
Bəşəri xilas üçün
gəmini Nuh yaratdı.
Savaşı, qan-qırğını,
qara günü yaratdı,
Harayımın, səsimin,
ünümün adı sevgi.
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Xızır, Davud, Süleyman,
Musa, İsa, Məhəmməd,
Hər biri təpə-dırnaq
işıq, sevgi, məhəbbət.
"Vəhdəti-vücud" - dedi,
vücudda tapdı vəhdət,



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Namazımın, qibləmin
yönumun adı sevgi.
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Sevgi Günəş kimidir,
düzə, tərsə bölünməz,
Təriqətə, məzhəbə,
sinfə, dərsə bölünməz.
İngilisə, almana,
rusa, farsa bölünməz,
Türkümün, ərəbimin,
çinlimin adı sevgi.
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Kökümün, budağımın,
dizimin, dirəyimin,
Ruhumun, nəfəsimin,
canımın, ürəyimin,
Təndirimin, təknəmin,
duzumun, çörəyimin,
Sünbülümün, tarlamın,
dənimin adı sevgi.
Mənim bircə dinim var,
dinimin adı sevgi.
Doğulmağım da sevgi,
ölməyim də sevgidi.
Kəfənimin, qibləmin,
sonumun adı sevgi,
Ruhumun, nəfəsimin,
canımın adı sevgi.

*7 sentyabr 2002*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÜNYANIN NƏ GÖZƏL VAXTI GÖRÜŞDÜK

Əridi həsrətim, açıldı buzum,
Cənnət ətri verdi çörəyim, duzum.
Getdi qar-boranım, gəldi Novruzum,
Allah üzümüzə baxdı, görüşdük.
Üz-üzə dayandıq, göz-gözə durduq,
Dünyanın nə gözəl vaxtı görüşdük!

Qarın qar ətri var, barın bar ətri,
Bir çiçək ətri var, bir də yar ətri,
Arzular dalğası, duyğular ətri,
Ürəkdən-ürəyə axdı, görüşdük,
Dünyanın nə gözəl vaxtı görüşdük!

Qurban kəsilirəm mən bu axşama,
Danışdın dilindən bal dama-dama,
Sənintək işığa, mənimtək şama,
Tale öz odunu yaxdı, görüşdük.
Dünya gözəlləşir gözəl güləndə,
Dünyanın nə gözəl vaxtı görüşdük!

Abadlıq gətirdi bir viranlığa,
Gəlişin son qoydu lal qaranlığa,
Zəlimxan yenə də çatdı xanlığa,
Güldü gözəlliyin taxtı, görüşdük.
Ay salam göndərdi, Gün əhsən dedi
Dünyamn nə gözəl vaxtı görüşdük!

*25 mart 2000*

## KÖNLÜM

Bax gözlərin şöləsinə,
Həyat versin şölə sənə.
Kim vurulmaz beləsinə?
Vurulmağa dəyər, könlüm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaza dönər, qışın olsa,
Belə tərlan quşun olsa,
Yolunda bir qoşun olsa,
Qırılmağa dəyər, könlüm!

Qurban elə baş da, can da,
Bu sevgini yaşat qanda,
Boz-bulanıq sel olsa da,
Durulmağa dəyər, könlüm!

Gözü bəsdi, bulaq gəzmə,
Könlü bəsdi, ocaq gəzmə,
Bu gözəldən uzaq gəzmə,
Yar olmağa dəyər, könlüm!

## DƏYMƏYİN

Gördüyündən gözü-könlü bulanar,
Nənələrin ürəyinə dəyməyin.
Yaraları göz-göz olar, sulanar,
Nənələrin ürəyinə dəyməyin.

Sapa dönər, yumaq olar, bükülər,
Xalı kimi ilmə-ilmə sökülər,
Şüşə qəlbi parçalanar, tökülər,
Nənələrin ürəyinə dəyməyin.

Deməyin ki, bir ayağı gordadı,
Ömrü-günü əcəl adlı tordadı.
Nəvələrin nağıl payı ordadı,
Nənələrin ürəyinə dəyməyin.

Bir bulaqdı, içilməsə kor qalar,
Bir ocaqdı, közü sönər, qor qalar,
İldən-ilə saçlarında qar qalar,
Nənələrin ürəyinə dəyməyin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dağ olsa da acı sözdən incələr,
Bucaq seçər, öz yerini künc elər.
Şirin kəlmə qocalan gənc elər,
Nənələrin ürəyinə dəyməyin.

Yaxşı baxın arxaya siz, önə siz,
Ucalıq var, nədən ötrü enəsiz.
Fikirləşin, sabah siz də nənəsiz,
Nənələrin ürəyinə dəyməyin.

Gərdən sınar, kəmər düşər, bel inlər,
Toxunarsan, ürəyində tel inlər.
İnsaf edin, ay nainsaf gəlinlər,
Nənələrin ürəyinə dəyməyin.

## DÜŞÜB

Ölüm yatağında bir qarı gördüm,
Solmuş bir çiçəkdi, budaqdan düşüb.
Boylanmaq istəyir, göz aça bilmir,
Ağrılar canına sazaqdan düşüb.

Təsəlli ləngitmir, dayaq saxlamır,
Gedir son mənzilə, ayaq saxlamır,
Nişan üzüyünü barmaq saxlamır,
Gəlinlik sırğası qulaqdan düşüb.

Toxunmur xalısı, daranmır yunu,
Görünür gözünə dünyanın sonu.
Qalıb urvalığı, qurtarıb unu,
Asılmır qazanı, ocaqdan düşüb.

Kəmər kənardadı, beldən ayrılıb,
Daraq toz içində, teldən ayrılıb,
Ən gözəl söhbəti dildən ayrılıb,
Ən şirin nəğməsi dodaqdan düşüb.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dağ aşır, düz keçir ömrün yolları,
Əyilir sabahdan axşama sarı.
Ömrün səfərini bitirir qarı,
Güzarı yenə də torpaqdan düşüb!

### BƏS NƏDİR

Arzularım, diləklərim sənə yüzdü, mənə min,
Yanaqların nəm görməsin sənin kimi sənəmin.
Yolçu sən ol, yol mən olum, keç üstündən sinəmin,
Uzaqlığın məndən ötrü hicran deyil, bəs nədir?!

Gözəlliyin gözlərimin qarasıdır, ağıdır,
Ürəyimdə məcnunluğun zilə qalxan çağıdır.
Dalğalar var, sahilləri döyür, didir, dağıdır
Varlığımda baş qaldıran tufan deyil, bəs nədir?!

Baxışınla baxışımı oxşa incə, sev incə,
Göz dəyməsin gözlərində güllər açan sevincə.
Belə vurğun baxmağını günah sayma bu gəncə,
Günəbaxan al Günəşə heyran deyil, bəs nədir?!

Əvəzimdə hər kim olsa, yaşamaqdan bezərdi,
Gözləməkdən duyğulanm köz-köz olub közərdi.
Daş olsaydı ömrü boyu həsrətinə dozərdi,
Əriməzmi bu Zəlimxan, insan deyil, bəs nədir?!

### GÖZLƏRİN

Nə sərin bulağı var,
Nə isti ocağı var,
Nə odlu qaynağı var,
Mənə baxan gözlərin!

Bəxtin uğuru billəm,
Gözümün nuru billəm,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqini duru billəm
Mənə baxan gozlərin!

Giləsində inci var,
Dağ boyda sevinci var,
Tanrı qədər gücü var
Mənə baxan gozlərin!

Həm savabdı, həm günah,
Hem axşamdı, həm sabah.
Sehrinə bax, ay Allah,
Mənə baxan gözlərin!

Sevmişəm ədasını,
İçmişəm badəsini.
Mən alım qadasmı
Mənə baxan gözlərin!

## QALARDIM

Dağlar mənə gəl-gəl desə ürəkdən,
Gəlib, elə bu yerlərdə qalardım.
Təbiətlə sevincimi, dərdimi,
Bölüb, elə bu yerlərdə qalardım.

Nəfəsimdə yaşadardım ətrini,
Əzizlərdim çiçəklərin xətrini.
Ömrün-günün qiymətini, qədrini
Bilib, elə bu yerlərdə qalardım.

Ne gözəldi bu dağların talası,
Mən getsəm də, könlüm burda qalası.
Sevsə məni bir zalımın balası,
Ölüb, elə bu yerlərdə qalardım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GÖZƏLLƏR

Mən gəzən yerləri gündoğan bilə,
Hərdən mənə sarı baxa gözəllər.
Sərinlik gətirə yanan könlümə,
Çeşmətək süzülə, axa gözəllər.

Dünya gözəlləşir o gəzəndə şən,
Kədərindən yağır saçlarıma dən.
Nə qədər ürəyə dağ çəkib, görən?
Ürəyi kağızdan yuxa gözəllər.

Bağbandı, yetirər bağçasında bar,
Yanağında çiçək, sinəsində nar.
Bir kəlmə "hə" desə, dünya dağılar?
Yaman həvəskardı "yox"a gözəllər.

Qəlbində nə kədər, nə də ah ola,
Baxışı amansız bir silah ola.
Sinəm hədəf ola, nişangah ola,
Tuta kirpiyiylə oxa gözəllər.

Zəlimxan, ovsundu hər qız, hər gəlin,
Onsuz nə qiyməti gövhərin, ləlin.
Elə əlləşəsən, çatmaya əlin,
Səni həsrətiylə sıxa gözəllər.

## TOY GÜNÜDÜR

Toy günüdü, bu məclisin bəyinə bax,
Çal-çağıra, kamanına, neyinə bax.
Təbiətin yerinə bax, göyünə bax
Ömrüm çatıb bir şöhrətə, şana burda.

Bu dünyanın hər qəmindən uzaq olar,
Sevincindən aşıb-daşan uşaq olar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz-özünə bir çağlayan bulaq olar
Qəlbi olan çəkilərmi yana burda?!

Baş örpəkli, yaxa qızıl düyməlidir,
Qapılar var, elçi əli döyməlidir.
Kimə baxsan bir-birindən öyməlidir
Sevən oğlan, gözəlləri sana burda!

Günəş doğub bu varlığa, bu həyata,
Gəlişində dağ vüqarlı, gülür ata.
Bir havanın laylasına yata-yata
Qollarım geniş açır ana burda.

Bir can olsun yerin səsi, göyün səsi,
Kəsilməsin qulaqlardan neyin səsi,
Toyçu qardaş, elə çal ki, toyun səsi
Qoy işləsin lap iliyə, qana burda!

Söz sinədən axsın gümüş çaylar kimi,
Şirin olsun dostdan gələn paylar kimi,
Anın ömrü qoy uzansın aylar kimi,
Günün ömrü heç çatmasın sona burda!

## GÖZLƏYİRƏM

Endi yolların üstə
Çən, səni gözləyirəm!
Düşdü qara tellərə
Dən, səni gözləyirəm!

Özgə gülü dərmirəm,
Yaylıq üstə sərmirəm.
Torpağam, göyərmişəm,
Dən, səni gözləyirəm!

Qoyma Ömür qısala,
Toy yerini yas ala.
Hamı çatdı vüsala
Mən səni gözləyirəm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**İTİRƏRSƏN, TAPAMMAZSAN**

Kövrəyəm, dəymə qəlbimə,
Sındırarsan, yapammazsan.
Mənsiz eşqin Qıratını
Heç bir yana çapammazsan.

Haya gəlməz nə haqq, nə din,
Çətin olar işin, çətin.
Ömrün boyu xəcalətin
Əllərindən qopammazsan.

Hədər vermə bircə anı,
Səninkidir ruhu, canı.
Ucuz tutma Zəlimxanı
İtirərsən, tapammazsan!

**GƏLİN**

*Dodaqdəyməz müxəmməs*

Səhər-səhər seyr eləyək
Dağda yatan qarı, gəlin.
Asta-asta yeriş yeri,
Gəl, şad eylə yarı, gəlin.
Can dedikcə can eşidək,
Həyatından yarı, gəlin.
Ağ diyarın, ağ sinənin
Ələ dəysin narı, gəlin.
Yarıyaq, yaddan çıxaraq
Hər dərdi, azarı, gəlin.

Çaylar keçək, yallar aşaq,
Qarış-qarış dağı gəzək.
Hər yana seyrə çıxaq,
Yaxşı keçən çağı gəzək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ələ keçən deyil hər an
Canın, qanın sağı gəzək
Dərələrdə çiçək dərək,
Ətirli yaylağı gəzək.
Elə ki azca incidin,
Gedək sizə, Sarı gəlin.

Qış ayları yaxşı keçər,
Şən gətirər yaza səni.
Din aşığın sinəsində,
Tel eləsin saza səni.
Can alar canan yerişin,
Yaraşdırar naza səni.
Çətin aşiq tay eyləyə
Dəstə-dəstə qıza səni.
Dil ağızda qara yansın
Desə sənə qarı, gəlin.

Nazlı yarı gəzən yerə
Aşiq yana-yana gələr.
Yetişəndə həsrətinə
İl xəstəsi cana gələr.
Hər çiçəkdən şirə çəkər,
Arı yenə şana gələr.
Əl dəyəndə əllərinə
Həyat Zəlimxana gələr.
İki canın hərarəti
Sel eyləyər qarı, gəlin!!!

**ALLAH, GÖZLƏRƏ BAX**

Belə baxış olmaz, belə göz olmaz,
Allah, gözlərə bax, nə gözəl baxır!
Belə atəş olmaz, belə köz olmaz
Allah, gözlərə bax, nə gözəl baxır!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göylər ulduz verib, Ay verib ona,
Yerlər çeşmə verib, çay verib ona.
Peyğəmbər nurundan pay verib ona
Allah, gözlərə bax, nə gözəl baxır!

Haqqın dərgahından enən işıqdı,
Ömrə naxış vuran bir yaraşıqdı.
Mən gül ağacıyam, o sarmaşıqdı
Allah, gözlərə bax, nə gözəl baxır!

Bilmirəm nə zaman qarşıma çıxdı,
Qarımı əritdi, dağımı yıxdı.
Mən canı cəhənnəm, millət yazıqdı,
Allah, gözlərə bax, nə gözəl baxır!

Sarayam, daşlarım tökülüb gedir,
Ciyərim canımdan sökülüb gedir.
Mən ağlar qalmışam, o gülüb gedir,
Allah, gözlərə bax, nə gözəl baxır.

Ürək yüz parçadı, könül yüz para,
Bir gözəl gözündə çəkildim dara.
Öldürməz, elindən canım qurtara,
Allah, gözlərə bax, nə gözəl baxır!!!

## MƏN ONDA BİLDİM

Bir dünya gözəli çıxdı qarşıma,
İnsan nə deməkdi, mən onda bildim.
Unutdum qəmimi, atdım dərdimi,
Dərman nə deməkdi, mən onda bildim.

Baxışı andırdı sökülən danı,
Üzünün şöləsi tutdu cahanı.
Ala gözlərinin oldum qurbanı,
Qurban nə deməkdi, mən onda bildim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayrılıq sevincə, sevgiyə yağı,
Görüş ömrümüzün ən şirin çağı.
Söz dedim tutuldu qaşı-qabağı,
Duman nə deməkdi, mən onda bildim.

Külək tərpədəndə başından şalı,
Baxdım, buxağında göründü xalı.
Qızardı, bozardı, dəyişdi halı,
Tufan nə deməkdi, mən onda bildim.

Ömür bağçasında göyərdi, bitdi,
Bir göz qırpımında tapıldı, itdi.
Necə gəlmişdisə, elə də getdi,
Hicran nə deməkdi, mən onda bildim.

## GÖZƏL DÜNYA, GÖZƏLLƏRİN VAR OLSUN

Gülüşündə güllər açdı könlümüz,
Gözəl dünya, gözəllərin var olsun!
Vurğunu da, yorğunu da biz olduq
Gözəl dünya, gözəllərin var olsun!

Ürəyi var, ürəklərin nəşəsi,
Toxunarsan, pul-pul olar şüşəsi.
Könül verib, könül almaq peşəsi
Gözəl dünya, gözəllərin var olsun!

Fərhadına yetişməsə Şirinlər,
Qartal susar, pələng ağlar, şir inlər.
Dayaz olmaz məhəbbəti dərinlər,
Gözəl dünya, gözəllərin var olsun!

Neçə dəfə pəncərədən daş gəlib,
Neçə dəfə xumar gözdən yaş gəlib,
Sevən kəslər Allaha da xoş gəlib,
Gözəl dünya, gözəllərin var olsun!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Al yanaqlar çiçəklərin dostudur,
Qara tellər küləklərin dostudur,
Ala gözlər ürəklərin dostudur,
Gözəl dünya, gözəllərin var olsun!

Qız çiçəkdir, o çiçəkdə şeh mənəm,
Qız çəməndir, o çəməndə meh mənəm.
Gözəlliyə beş-on günlük mehmanam,
Gözəl dünya, gözəllərin var olsun!

Əcəl ömrü zəmi kimi biçsə də,
Şərbət bilib bir qurtuma içsə də,
Vaxtlı-vaxtsız Zəlimxanlar köçsə də,
Gözəl dünya, gözəllərin var olsun!

**ARZU**

Biryolluq həsrətdən əlim üzülə,
Gün kimi üstümə yar işıq sala.
Məni barışdıra öz küskünümlə,
Təbiət araya barışıq sala.

Duman gətirməyə, çən gətirməyə,
Qara saçlarıma dən gətirməyə,
Tufanlı, hicranlı gün gətirməyə,
Onun yağdırdığı qar işıq sala.

Sevinci, kədəri yarıya bölək,
Qalsaq bir yaşayaq, ölsək bir ölək.
Məni Tanrı bilə, özünü mələk,
Aşiqi Allahla qarışıq sala!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BACARMALISAN**

Sonatək boylanıb, gözəltək baxıb,
Gəlintək gəzməyi bacarmalısan.
Uçub əlimizdən gedən illəri
Nizama düzməyi bacarmalısan.

Düz dərəyə dönsə, dərə düz olsa,
Coşan dalğaların sayı yüz olsa,
Ayrılıq sahilsiz bir dəniz olsa,
Qol atıb üzməyi bacarmalısan.

Qoy, zaya getməsin çəkdiyin əmək,
Dostum min olsa da, səndədir kömək.
Nə lazım hər sözü dil açıb demək,
Baxışdan sezməyi bacarmalısan.

Çoxdu Zəlimxanın doğması, yadı,
Çalış, el içində enməsin adı.
Onsuz da vüsalın şirindir dadı,
Həsrətə dözməyi bacarmalısan.

**ÇATASIYAM**

Ulduz olub uzaqlarda dayanma,
Mənə gəlsin gözlərinin qadası.
Yanmalıdır eşqimizin ocağı,
Bir od vurub çatasıyam, çatası.

Hey düşürəm arzuların dalına,
Əl atıram dəymişinə, kalına.
İnam adlı bir köhlənin yalına
Yatasıyam, yatasıyam, yatası.

Üzmədiyim ümman qədər dərinsən,
Çatmadığım arzu qədər şirinsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üz döndərib dumanlara bürünsən,
Elə bilmə batasıyam, batası.

Xan Kərəmi yada sala, andıra,
Həsrət məni buğum-buğum yandıra,
Birdəfəlik bu ayrılıq andıra
Öz əlimi qatasıyam, qatası.

Əllərimi dağ doğraya, daş kəsə,
Taqətimi gözdən axan yaş kəsə,
Aylar-illər pambıq ilə baş kəsə,
Yenə sənə çatasıyam, çatası.

## SEVGİ

Gələndə yaşımı heç soruşmadı,
Baxmadı zamana, yaşa bu sevgi.
Birdən bir dəlisov oğlana döndü,
Tutdu pəncərəmi daşa bu sevgi.

Dedilər yol axtar qız ürəyinə,
Süzül damla-damla, süz ürəyinə.
Od qoydum yanmışın buz ürəyinə,
Az qaldı dünyanı aşa bu sevgi.

O səslər hələ də qulağımdadı,
Baharın həsrəti yanağımdadı.
Hələ ki, payızın sınağındadı
Görək, dözəcəkmi qışa bu sevgi.

## ÇİN QIZI, ÇİN GÖZƏLİ

Yanağın güldən zərif,
Belin telindən incə.
Dilin sözündən şirin,
Sözün dilindən incə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göy suların ağ quşu,
Sən mənim nəzərimdə
Dünyanın ən gözəli!
Çin qızı, Çin gözəli!

Dünyanın heç yerində
Sənin kimi pəri yox,
Həyatın səndən baha
Sərvəti yox, zəri yox.
Bu, Allahın işidi,
Sənin gözəlliyindən
Bəndənin xəbəri yox.
Yaradanın, Tanrının,
Allaha tən gözəli!
Çin qızı, Çin gözəli!

Bu ağlıq ki səndə var,
Süd gölündə çimənsən.
Bu ətir ki səndə var,
Yamyaşıl bir çəmənsən.
Bu qiymət ki səndə var,
Ləlsən, yaqut, yəmənsən.
Süd yox, ana döşündən
Ay işığı əmənsən.
Türk gələ, İran gələ,
Külli Hindistan gələ,
Yerini verə bilməz
Dünyanın min gözəli!
Çin qızı, Çin gözəli!
Səni ana doğmayıb,

Səni ata əkməyib.
Buludun arasından
Hazır enmiş mələksən.
Heç kəs səni böyüdüb,
Zəhmətini çəkməyib.
Bir səsə bax, ay Allah,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəfəsə bax, ay Allah,
Qumru belə ötməyib,
Kəklik belə səkməyib.
Heç yerdə görməmişəm
Belə zərif, belə şux,
Bir belə şən gözəli!
Çin qızı, Çin gözəli!

Mən indi başa düşdüm,
Niyə Nizami babam
Çin yazıb, Çin deyirmiş!
Mən indi başa düşdüm,
Niyə Füzuli babam
Sevgiyə din deyirmiş!
Mən indi başa düşdüm,
Nə üçün Molla Pənah
Çinü-Maçin deyirmiş!
Qar zirvənin şöhrəti
Dağların çən gözəli!
Dünən babalar olub,
Bu gün heyranın mənəm,
Çin qızı, Çin gözəli!

*Mart, 1994, Şanxay*

## KÜSMƏ MƏNDƏN

*Bir məclisds qızlarımıza "Çin gözəli" şerini oxuyurdum. Nəsibə adlı gözəl bir qız şeri axıra qədər dinləmədən küsüb bayıra çıxdı ki, nə üçün belə gözəl bir şeri Azərbaycan gözəlinə yox, Çin qızına yazmısınız.*

Küsmə məndən gözəl mələk, gözəli Allah yaradır,
Mənim kimi qullar üçün gözəlləri şah yaradır.
Məcnunları gecə-gündüz salır sonsuz səhralara,
Harda sevən Leyli varsa, orda bir dərgah yaradır!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bircə gözəl yaradıbsa, bütün Çinə qurban olum,
Hansı dində olur-olsun, mən o dinə qurban olum,
Yaradanın eşq adlanan hikmətinə qurban olum,
Yeri-göyü sevmək üçün insanda tamah yaradır!

Bakı hara, Pekin hara, könlüm onu yada salır,
Günahkaram, günahlarım ruhuma qan-qada salır,
Qadir Allah sevənləri diri gözlü oda salır,
Yazıq bəndə sevə-sevə gündə bir günah yaradır!

**İSTANBUL QIZI**

İstanbul qızının teli darandı,
Dedi: - Gözəldimi?
Dedim: - Gözəldi!
Büllurdan töküldü, nurdan yarandı,
Dedi: - Gözəldimi?
Dedim: - Gözəldi!

Qulağın sırğası, saçın cunası,
Barmağın üzüyü, əlin xınası,
Elin yaraşığı, gölün sonası,
Dedi: - Gözəldimi?
Dedim: - Gözəldi!

Üzün təbəssümü, yanağın xalı,
Qəlbin hərarəti, dodağın balı,
Belin incəliyi, gərdənin şalı,
Dedi: - Gözəldimi?
Dedim: - Gözəldi!

Sevgi yollarıyla çıxılan yoxuş,
Tanrı əlləriylə vurulan naxış,
Vurulan, durulan, süzülən baxış
Dedi: - Gözəldimi?
Dedim: - Gözəldi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baxışı söndürdü odlanan şamı,
Görüşlər həyatın ləzzəti, tamı.
Nurlu İstanbulun aylı axşamı
Dedi: - Gözəldimi?
        Dedim: - Gözəldi!

Ağlımı, ruhumu əlimdən aldı,
Ney kimi göynətdi, saz kimi çaldı.
Axırda bir şirin xəyala daldı,
Dedi: - Gözəldimi?
        Dedim: - Gözəldi!

Ömürdən saymadı boş keçən ömrü,
Bahara döndərdi qış keçən ömrü.
İnsanın insanla xoş keçən ömrü,
Dedi: - Gözəldimi?
        Dedim: - Gözəldi!

Qəlbimin qanını sızan elədi,
Məni eşqə saldı, yazan elədi.
Şair Zəlimxanı ozan elədi,
Dedi: - Gözəldimi?
        Dedim:-Gözəldi!!!

*İstanbul, 1991*

## AY KƏRƏM

Səni od yandırdı, Əsli dağladı,
Mən suyun odunda yandım, ay Kərəm!
Allahım, vallahım çıxdı yadımdan,
Yeri də, göyü də dandım, ay Kərəm!

Alışan odlara dil olmaq nədi,
Dərdin havasında zil olmaq nədi,
Mən indi bildim ki, kül olmaq nədi,
Ah çəkib, adını andım, ay Kərəm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zəlimxan neyləsin, qismətdə qəm var,
Gözdə qığılcım var, kirpikdə nəm var.
Niyə sazımızda "Yanıq Kərəm"var,
Yanmaq nə deməkdi, qandım, ay Kərəm!

## BU YAŞIL AĞACIN ALTI BİZİMDİ

Kök üstə budağı neçədi, bildim,
Budaqda yarpağı neçədi, bildim,
Salxımı, saçağı neçədi, bildim,
Bu yaşıl ağacın altı bizimdi.

Saçağı tərpənir tellərin kimi,
Yarpağı oynaşır əllərin kimi,
Düyməsi açılıb tüllərin kimi
Bu yaşıl ağacın altı bizimdi.

Bu sevgi, bu layla, bu beşik bizim,
Çəkər növbəmizi bu keşik bizim.
Nəyimizə lazım ev-eşik bizim?
Bu yaşıl ağacın altı bizimdi.

Su içər sevginin kökü ömürdən,
Sevgi əl üzməsin təki ömürdən,
Xoş bir xatirədi iki ömürdən,
Bu yaşıl ağacın altı bizimdi.

Könlümüz havalı, gözümüz də ac,
Gəncliyin havası başımızda tac.
Bir sənsən, bir mənəm, bir yaşıl ağac,
Bu yaşıl ağacın altı bizimdi.

Atəş Allahındı, isti Allahın,
Ocaq Allahındı, tüstü Allahın,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu yaşıl ağacın üstü Allahın,
Bu yaşıl ağacın altı bizimdi.

Dən kimi səpələ, toxum kimi ək,
Zəlimxan, bu anın ləzzətini çək.
Hələ bizdən sonra çoxu deyəcək:
"Bu yaşıl ağacın altı bizimdi".

## DEDİLƏR, MƏCLİSDƏ BƏDNƏZƏR OLAR

Bir dünya gözəli çıxdı meydana,
Bağrımın başında buz oynatdılar.
Əridim, töküldüm, əsdim, titrədim,
Elə bil sinəmdə köz oynatdılar.

Ani bir baxışla gəldik üz-üzə,
Kimdi bu ceyranı buraxan düzə?
Biri mələk dedi, biri möcüzə,
Şairlər ortada söz oynatdılar.

Ürəyə od axdı, damara işıq,
Dəydi bir-birinə xanəndə, aşıq.
Bu nə tamaşaydı, bu nə yaraşıq?
Gözlər baxa-baxa göz oynatdılar.

Can çiçək olanda nəfəs tər olar,
Dodaq bal olanda yanaq zər olar.
Dedilər, məclisdə bədnəzər olar,
Çevirib başına duz oynatdılar.

Bir sərgi yaradıb qızdan, qadından,
Allah danışırdı eşqin adından.
Bu toy Zəlimxanın çıxmaz yadından,
Bu toyda bir gözəl qız oynatdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GÖZƏLDİ

Bir gözəldə min gözəllik cəmlənib,
Duruşu da, ədası da gözəldi.
Sularında üzüb gedən qəvvasam,
Dalğası da, adası da gözəldi.

Özü nurdan, sözü haqdan gəlibdi,
Şahımızdı, enib taxtdan gəlibdi.
Qulaqlara səsi çoxdan gəlibdi,
Bizə çatan sədası da gözəldi.

Göy üzündə durnaları saxladıb,
Yer üzündə qayaları laxladıb.
Zəlimxanın anasını ağladıb,
Mənə gələn qadası da gözəldi.

## SƏNİ SEVMƏK ÜÇÜN GƏLDİM DÜNYAYA

Çöldə çiçək oldum, çəməndə naxış,
Şimşəkdə od oldum, buludda yağış.
Sirli bir göz gördüm, nurlu bir baxış,
Çevrildim çeşməyə, qarışdım çaya,
Səni sevmək üçün gəldim dünyaya.

Mən min il əvvəl də gələ bilərdim,
Min ildən sonra da ölə bilərdim.
Zamanı başqa cür hesablayardım,
Vaxtı başqa cürə bölə bilərdim.
Düşüb sən doğulan həftəyə, aya,
Səni sevmək üçün geldim dünyaya.

Səsini eşitdim, səsdən səs aldım,
Şaqraq gülüşündən güc, həvəs aldım.
Sən nəfəsim oldun, mən nəfəs aldım,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Muştuluq verdilər Günəşə, Aya,
Səni sevmək üçün gəldim dünyaya.

Neçə dinsizləri dinə gətirdim,
Qorudum sünbülü dənə gətirdim,
Könlümdə nə varsa, sənə gətirdim.
Mənim yollarımı kəsə bilmədi
Nə sərhəd, nə dəmir, nə daş, nə qaya,
Səni sevmək üçün gəldim dünyaya.

Məcnun da, Kərəm də, Fərhad da mənəm,
Məcnuna, Fərhada qanad da mənəm,
Ölüm də, sevgi də, həyat da mənəm
Şükür Yaradanın verdiyi paya,
Səni sevmək üçün gəldim dünyaya.

## SEVƏRMİŞ

İnsan oğlu vurulanda dünyaya,
Yeri-göyü, dağı-daşı sevərmiş.
Zaman onu ağlatsa da, gülərmiş,
Gözlərindən axan yaşı sevərmiş.

Eşq adama göydən nazil olarmış,
Kimi xoşbəxt, kimi rəzil olarmış.
Biri yaqut, biri qızıl olarmış,
Qaş üzüyü, üzük qaşı sevərmiş.

Alışarsan, eşq içini ovanda,
Qapılardan səhralara qovanda.
Hünərin var, dəli olma sevəndə,
Leyli gedib ağlı çaşı sevərmiş.

Canlar gedib bir cananın yolunda,
İllər qurban bircə anın yolunda.
Ay Zəlimxan, hər sevdanın yolunda
Dərd ürəyi, ağrı başı sevərmiş.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DƏLİ OLMAĞIMA
## BİR ADDIM QALIB

Bilmirəm heç nəyi, lələ, bilmirəm,
Mən kiməm, nəçiyəm, hələ bilmirəm.
Getmişəm, özümə gələ bilmirəm,
Dəli olmağıma bir addım qalıb.

Ömrümün bu yaşda nağılına bax,
Nağılda, ay Allah, nağıl, ona bax!
Ağılsız eşqimin ağılına bax,
Dəli olmağıma bir addım qalıb.

Əl açar, sevginin əli utanmaz,
Xırmanı iş görər, vəli utanmaz.
Yiyəsi utanar, dəli utanmaz,
Dəli olmağıma bir addım qalıb.

Bilmirəm, heç neçə yaşındayam mən,
Eşqin iştahında, aşındayam mən.
Uçrumun, yarğanın qaşındayam mən,
Dəli olmağıma bir addım qalıb.

İşarə yıxacaq, him aparacaq,
Əlimi saz yeyib, sim aparacaq.
Məni evimizə kim aparacaq?
Dəli olmağıma bir addım qalıb.

Məcnun dərs oxuyub - kitabı Leyli,
Məcnun sərxoş olub - şərabı Leyli,
Məcnun dərdə düşüb - əzabı Leyli,
Dəli olmağıma bir addım qalıb.

Gülməsin bu halda məni görənlər,
Tər çiçək nədirsə, bilir dərənlər.
Ayılın, ay mənə ağıl verənlər,
Dəli olmağıma bir addım qalıb.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Görüş sevincindi, həsrət ahındı,
Sevənlər sevgili bir dərgahındı.
Zəlimxan, mən kiməm, hökm Allahındı,
Dəli olmağıma bir addım qalıb.

**BU AXŞAMI SƏN GƏTİRDİN**

Ömrümüzün səhərləri, axşamları çox,
Çiçək-çiçək ulduzları, ağ şamları çox.
Axşamlara işıq verən adamları çox,
Bu axşamı sən gətirdin mənim ömrümə.

Bara döndü, budaqları əydi bu axşam,
Min səhərin ləzzətinə dəydi bu axşam.
Bir gözələ könül vermiş bəydi bu axşam,
Bu axşamı sən gətirdin mənim ömrümə.

An qonar, çiçəklərin şəhdini əmər,
Bahar adlı fəslə çatar muştuluq, nəmər.
Barmağında üzük oldum, belində kəmər
Bu axşamı sən gətirdin mənim ömrümə.

Qara saçlar, qara tellər, qara hörüklər,
Bir dəmirçi kürəsitək qəlbi körüklər.
Qəlbə hopar, qana keçər, cana yeriklər
Bu axşamı sen gətirdin mənim ömrümə.

Suyu duru, havası saf, çeşməsi sərin,
Sözü şəkər, söhbəti bal, sevgisi dərin.
Kölgəsinə sığınmışıq gözəlliklərin,
Bu axşamı sən gətirdin mənim ömrümə.

At oxunu, qaşlarının yayı çox olsun,
Səni verən yaradanın payı çox olsun,
Belə-belə axşamların sayı çox olsun,
Bu axşamı sən gətirdin mənim ömrümə.



Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

**BU QIZ NİYƏ HAVALANIB GÖRƏSƏN**

Görünməmiş bir sənətmi yaradıb,
Bu qız niyə havalanıb görəsən?
Cəhənnəmdə bir cənnətmi yaradıb,
Bu qız niyə havalanıb görəsən?

Oda düşmüş, odu almır eyninə,
Odmu düşüb ürəyinə, beyninə?
Yer üzünü alıb gedir çiyninə,
Bu qız niyə havalanıb görəsən?

Göynən gedir, yerə dəymir ayağı,
Asimanda uçur mələksayağı.
Elə bil ki, budu ərşin dayağı,
Bu qız niyə havalanıb görəsən?

Dodaq qaçır, göz gülür, üz oxuyur,
Seyrə çıxıb, bir susur, yüz oxuyur.
Zalım qızı gecə-gündüz oxuyur,
Bu qız niyə havalanıb görəsən?

Gül koludu, budağını əymirəm,
Dəymə deyir, toxunmuram, dəymirəm.
Havalıdı, havasından doymuram,
Bu qız niyə havalanıb görəsən?

Harda qurub dəyəsini bilmədim,
Sahibini, yiyəsini bilmədim.
Neylədimsə, niyəsini bilmədim,
Bu qız niyə havalanıb görəsən?

Nə amana fikir verir, nə aha,
Mən qul oldum, o çevrilib bir şaha.
Bəlkə təzə qohum olub Allaha,
Bu qız niyə havalanıb görəsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məni gördü gah gündə, gah kölgədə,
Ucbatından rüsvay oldum ölkədə.
Günahkarı Zəlimxandı bəlkə də,
Bu qız niyə havalanıb görəsən?

## "SARITEL" OXUVAN QARATEL GÖZƏL

Sən Günəş nurusan, qar işığısan,
Yerdə yer, göydə göy yaraşığısan.
Sarıyla qaranın qarışığısan,
"Sarıtel" oxuyan qaratel gözəl!

Məni ovlamaqçün çıxmısan ova,
Yenə od vurursan çaxmağa, qova.
Bir yandan sən yandır, bir yandan hava,
"Sarıtel" oxuyan qaratel gözəl!

Qaşın nişan verdi, gözün himlədi,
Ovsuna mən düşdüm, yaram simlədi.
Məni saz bağladı, söz tilsimlədi,
"Sarıtel" oxuyan qaratel gözəl!

Bu qəmli havadı, bu şən havadı,
Mənim sümüyümə düşən havadı,
Bu mənim bağrımı deşən havadı
"Sarıtel" oxuyan qaratel gözəl!

Yada yar düşəndə dağa qar düşüb,
Meydan istəyənin yeri dar düşüb.
Ortaya nə yaman soyuqlar düşüb,
"Sarıtel" oxuyan qaratel gözəl!

Kövrələn könlümü saldın bəndə sən,
Aşıqsan, şairsən, ya xanəndəsən?
Bilmirəm Tanrısan, yoxsa bəndəsən,
"Sarıtel" oxuyan qaratel gözəl!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xalların odunda yanan can olsun,
Al məndən heyfini, qana qan olsun,
Çal-oxu, qoy yanan Zəlimxan olsun,
"Sarıtel" oxuyan qaratel gözəl!

**BİRCƏ MƏNİ XATIRLA**

Ömrü-günü uzun olsa həsrətin,
Göz yaşında bir çiməni xatırla.
Çiçəkləri şeh görməmiş saralan,
Solub gedən bir çəməni xatırla.

Dağlarıma gün yerinə çən düşüb,
Xınalı daş kəkliyindən gen düşüb.
Kimi görsən saçlarına dən düşüb,
Bircə məni, bircə məni xatırla.

Sevən də çox, sevilən də, atan da,
Bu dünyada üzən də çox, batan da.
Səksəkəli quş yuxusu yatanda,
Bircə məni, bircə məni xatırla.

Mənim gözüm işarədə, himdədi,
Eşqim, ruhum sən çaldığın simdədi.
Desələr ki, fil dözümü kimdədi,
Bircə məni, bircə məni xatırla.

Həm çörəyin, həm duzunam mən sənin,
Həm qismətin, həm ruzunam mən sənin.
Baharınam, Novruzunam mən sənin,
Yaşıllaşan bir səməni xatırla,
Bircə məni, bircə məni xatırla.

Can üşüdən sükut görsən ağlama,
Ağlar qalmış bulud görsən ağlama.
Çiyinlərdə tabut görsən ağlama,
Bircə məni, bircə məni xatırla.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ey Allahın göydən gələn pərisi,
Soyulsa da şairlərin dərisi,
Bil ki, mənəm min illərin dirisi,
Bircə məni, bircə məni xatırla.

## QAYIDAQ ƏVVƏLKİ XATİRƏLƏRƏ

Bu gündən sabaha uzanmasın əl,
Hələ sabahlara baş vurmayaq gəl.
Necə yaşamışıq milyon il əvvəl,
Güllər şehə batsın, çiçəklər zərə,
Qayıdaq əvvəlki xatirələrə.

İlk sevgi çiçəyi harda açılıb,
Kiminçün göyərib çəmən birinci?
Sevda yollarına can atan gözəl,
Nə sən birincisən, nə mən birinci.
Analar nə qədər oğullar doğub,
Məcnunlar doğulub, bəlkə min kərə,
Qayıdaq əvvəlki xatirələrə.

Eşqin saralmayan çöhrəsi sən ol,
Toxumu mən olum, pöhrəsi sən ol.
Aşıq bir həftəlik dastan başlasa,
Tahiri mən olum, Zöhrəsi sən ol.
Şehli çəmənlərdən gül dərə-dərə
Qayıdaq əvvəlki xatirələrə.

Aldadan, aldanan, satdıran, satan;
Dünyanın işləri məzədi hələ.
İnsanın insana münasibəti
Tikandı, qanqaldı, nizədi hələ.
Köhnə xatirələr dinsin, danışsın,
Təzə xatirələr təzədi hələ,
Qayıdaq əvvəlki xatirələrə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bugünkü sevgilər xatirələşmir,
Bu gün xatirəyə dönmək çətindi.
Soyuq ürəklərdə ölür duyğular,
İsti ürəklərə enmək çətindi.
Ağrıdan, əzabdan, yasdan, qayğıdan
Danışmaq çətindi, dinmək çətindi.
Öz sevgi payını götürsün hərə,
Qayıdaq əvvəlki xatirələrə.
Qayıdaq əvvəlki xatirələrə...

## GƏLMİŞƏM, QOYNUNDA SIĞINACAQ VER

*Əzizim sinə, sinə*
*Çən gəlir sinə-sinə.*
*Aləmə sığmaz başım*
*Sığıbdı sinəsinə.*

Peşmandı gülləri dərdirən, dərən,
Peşmandı qurudan, peşmandı sərən.
Ömür parça-parşça, gün pərən-pərən,
Nursuz gözlərimə nurlu çıraq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

Qorlanıb varlığım, odlanıb içini,
Sənsiz mən haranı bəyənim, seçim?
Ürəklə doldurum, doyunca içim,
Qaynar baxışlardan sərin bulaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

Qış meydan suladı, ağır gəldi yaz,
Kədərim dərindi, sevincim dayaz.
Köməşən əlimi qızdırım bir az,
Üşüyən qəlbimə od ver, ocaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

Qalmaz bir nəsildə, bir soyda dünya,
Gah yasda keçinər, gah toyda dünya.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəyimə lazımdı bu boyda dünya?
Başımı qoymağa künc ver, bucaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!
Sevgidir həyatda hər şeydən baha,
Sevənlər üzünü tutar Allaha.
Heç nə istəmirəm dünyadan daha,
Ürək ver, könül ver, dil ver, dodaq ver,
Gəlmişəm, qoynunda sığınacaq ver!

## GEDİRƏM BİR QƏLBİ SEVİNDİRMƏYƏ

Çəməndə çiçəyəm, sünbüldə dənəm,
Sevgidə, sevincdə dağlara tənəm.
Dünyanın ən xoşbəxt adamı mənəm,
Gedirəm bir qəlbi sevindirməyə.

İçimdə işıq var, ulduz var, Ay var,
Ruhumda çağlayan bir dəli çay var.
Könlümdə Allahın verdiyi pay var,
Gedirəm bir qəlbi sevindirməyə.

Nə həsrət, nə də ki qəm aparıram,
Nə də kipriyimdə nəm aparıram.
Quşam, dimdiyimdə yem aparıram,
Gedirəm bir qəlbi sevindirməyə.

Ay sevinc aparan, ayaqyalın qaç,
Ümid gözləyənin qapısını aç.
Dərdə dərman olub, ağrıya əlac,
Gedirəm bir qəlbi sevindirməyə.

Ucaldıb başları, uca gedirəm,
Düşsəm də zəhmətə, borca, gedirəm.
Elə bil Kəbəyə, Haca gedirəm,
Gedirəm bir qəlbi sevindirməyə.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Hər könül bir dünya, bir Kainatdı,
Gedirəm dünyanı sevindirməyə,
Gedirəm həyatı sevindirməyə.
Gedirəm sevgiyə könül bağlayan
Bütün Kainatı sevindirməyə!

**ÜRƏYİM KÖKSÜMÜ YARIB ÇIXARDI**

Ürəyim köksümü yarıb çıxardı,
Nə zaman gözlərim görsə qızları.
Mənim mahnılarım dayandırardı,
Hər səhər gedəndə dərsə qızları.

Qaynar baxışlardan od yağa-yağa,
Enərdik arana, qalxardıq dağa.
Qoymazdı bizləri yaxınlaşmağa,
Çəkərdi inadı tərsə qızları.

Zəlimxan, xatırla son o dəmləri,
ŞeyxSənanlaraverdiqəmləri
Dinindən döndərdi Xan Koromlori,
Tərsa gözəlləri, tərsa qızları.

**SƏN GƏLMƏMİŞDİN**

Səsini içinə çəkmişdi bulaq,
Yellər qanadını açmırdı o gün.
Donmuşdu dağ-dərə, donmuşdu torpaq,
Güllərin dodağı qaçmırdı o gün.
Sən gəlməmişdin.

Göydən çəkilmişdi Günəşin zəri,
Yerdə axarını çay saxlamışdı.
Elə bil ən böyük dərdi-kədəri
Təbiət mənimçün pay saxlamışdı.
Sən gəlməmişdin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yox idi həyatda işıqdan əsər,
Üstümdə qaralmış bulud var idi.
Gözümdən nur getdi, sözümdən kəsər,
İçimdə lal olmuş sükut var idi.
Sən gəlməmişdin.

Ürəyim xaraba qalmış bir şəhər,
Şam kimi qəlbimin yağı damırdı.
Üzümdən zəhrimar, dilimdən zəhər,
Rəngimdən, ruhumdan ağı damırdı.
Sən gəlməmişdin.

Gəldim yerə-göyə vurulmuş kimi.
Gəlmirsən, yerinə dərd gəlir, gözəl!
Sevənlər evindən uçur quş kimi,
Sevənlər evinə pərt gəlir, gözəl!
Nə zarafat bilir, nə gerçək bilir,
Həsrət gəlişini sərt gəlir, gözəl!
Sən gəlməmişdin.

## DÖYMƏK OLMUR PƏNCƏRƏNİ

Ləzzət ilə baxana bax, ocağıma, istimə,
Üstümdəki yorğan deyil, köz örtmüşəm üstümə.
Ah çəkmişəm, el yığılıb dumanıma, tüstümə,
Bu yanğıda keşişlərin yetmiş yeddi fəndi var.

Heç bilmirəm bu dinsizi hansı dinə tapını,
Əlləriylə çəkib üzdü ürəyimin sapını.
Döymək olmur pəncərəni, açmaq olmur qapını,
Qıfılı var, tilsimi var, möhürü var, bəndi var.

Allah kəsib sevənlərin işini, əlacını,
Tuta bilmir tədbirini, ala bilmir bacını.
Acı-acı danışandan almaq olmur acını,
Şirin-şirin dillənənin dil altında qəndi var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağrı başda at oynadıb, alovlara can düşüb,
Can deyənin ömrü boyu ürəyinə qan düşüb.
Məcnun çəkən bəlalara gəlib Zəlimxan düşüb,
Nə qalası şəhəri var, nə köçəsi kəndi var.

## BU QIZ GƏLİN OLMAĞA HAZIRLAŞIR DEYƏSƏN

Elçi şirin çayını vaxtında içib gedib,
Bəy gəlib gözəllərin gözünü seçib gedib.
Fikri özündən qabaq atlanıb, köçüb gedib,
Bu qız gəlin olmağa hazırlaşır deyəsən.

Allahın sağ gözüylə baxdığı bir baxış var,
İlahinin vurduğu min cür ilmə-naxış var,
Evdə toy tədarükü, ehtiyat, yır-yığış var
Bu qız gəlin olmağa hazırlaşır deyəsən.

Yerə-göyə sığışmır arzuların qanadı,
Ömrü əlvan bir xalı, sevgisi bir xanadı.
Hər gözəl bir gəlindi, hər gəlin bir anadı,
Bu qız gəlin olmağa hazırlaşır deyəsən.

Ruhunda bir layla var, dilində bir oxşama,
Oxuyur öz içində hey səhərdən axşama.
Necə yanır, əriyir, bax, səhərdən axşama,
Bu qız gəlin olmağa hazırlaşır deyəsən.

Fikrindən, xəyalından gündə yüz dilək keçir,
Könlünə beşik düşür, meylindən bələk keçir.
Bakirəlik həddini yenə bir mələk keçir,
Bu qız gəlin olmağa hazırlaşır deyəsən.

Sığallı bir sonadı, sonalığı mübarək,
Xınayaxdı gecəsi xınalığı mübarək,
Gəlinliyi mübarək, analığı mübarək,
Bu qız gəlin olmağa hazırlaşır deyəsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SÖHBƏT BAXIŞLARIN,
## SÖZ ƏLLƏRİNDİ

*... Yarı xalvətdə gördüm,*
*Danışmadım doyunca.*

**Bayatıdan**

Ruhunu titrədən, qəlbini alan,
Bir son, bir istəklin, bir xəlvət otaq.
Kimi inandırar bu boyda yalan,
Yarı xəlvətdə gör, danışma ancaq?

Mənası sehrli, mətləbi dərin,
Görən, kim oxuyub bu bayatını.
Güvənib gücünə şux sətirlərin
Nəğməyə döndərib öz həyatını.

Oğlan yazıldısa qızın baxtına,
Söhbət baxışların, söz əllərindi.
Çıxar məhəbbətin şahlıq laxtına,
Sevgi də, gənclik də gözəllərindi.

Tükənmir söhbəti min illər boyu,
Görəsən, sevənlər nədən danışır.
Taxılır nişanı, çalınır toyu,
Can yanır, dil susur, bədən danışır.

Duyğular ürəkdə aşıb-daşanda,
Dilə nə ehtiyac, göz danışarmış.
Dilin vəzifəsi başqalaşanda,
Baxışlar ən şirin söz danışarmış!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BİZ NİYƏ SEVMƏYƏK BİR-BİRİMİZİ

Yer göyü, dağ dağı, daş daşı sevdi,
Tanrı naxış vurdu, nəqqaşı sevdi.
Göz gözə boylandı, qaş qaşı sevdi,
Biz niyə sevməyək bir-birimizi?

Çəmənlər torpağa xalı çəkirsə,
Xalıda yaşılı, alı çəkirsə,
Arı çiçəklərdən balı çəkirsə,
Biz niyə sevməyək bir-birimizi?

Ulduzlar sayrışıb göz vurur Aya,
Çeşmələr çağlayıb tökülür çaya.
Sevənlər gəlirsə hər gün dünyaya,
Biz niyə sevməyək bir-birimizi?

Gül şehdən güc alır, mamır qayadan,
Köz oddan qızarır, çiçək həyadan,
Süzülüb gəlirsə kökdən, mayadan,
Biz niyə sevməyək bir-birimizi?

Ömür göz qırpımı, fürsət azdısa,
Könül son nəfəsdə sınan sazdısa,
Uçub əlimizdən gedən yazdısa,
Biz niyə sevməyək bir-birimizi?

Ömrün həm sevinci, həm ahı varsa,
Pərvanə yanğısı, şam ahı varsa,
Adəmin cənnətdə tamahı varsa,
Biz niyə sevməyək bir-birimizi?

Yağış gözəllərin öpür üzünü,
Damla pıçıltıyla deyir sözünü.
Şəlalə qayadan atır özünü,
Tufan dağı sevir, dalğa dənizi
Biz niyə sevməyək bir-birimizi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ALLAH SƏNİ PƏNAHINDA SAXLASIN**

Ömrüm  boyu duaçınam, ay gözəl,
Allah səni pənahında saxlasın.
Oruc tutub, namazını qılmışam,
Allah səni pənahında saxlasın.

Hər qaşında Quranın bir ayəsi,
Sevilməkdi insanlığın qayəsi.
Üzərindən çəkilməsin sayəsi,
Allah səni pənahında saxlasın.

Mən nə şaham, nə şahlıqda vəzirəm,
Eşqin ilə dərviş olub gəzirəm.
Səndən ötrü məscidlərdə nəzirəm,
Allah səni pənahında saxlasın.

Nə Tanrıyam, nə Allaham, nə dinəm
İcazəsiz nə danışam, nə dinəm.
Vaqif demiş: sən ey Məkkəm, Mədinəm,
Allah səni pənahında saxlasın.

Tur dağında, Musanın Tur eşqinə,
Məhəmmədin alnında nur eşqinə,
Quran, İncil, Tövrat, Zəbur eşqinə,
Allah səni pənahında saxlasın.

Sevgi sözü əqidədi, inamdı,
Sevən kəslər peyğəmbərdi, imamdı.
Bəlkə bu gün mənim ömrüm tamamdı,
Allah səni pənahında saxlasın.

Belə gülü hər gülüstan bitirməz,
Hər torpaq da bu neməti yetirməz.
Zəlimxansız dünya bir şey itirməz,
Allah səni pənahında saxlasın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XƏTRİNƏ DƏYMƏ

Meh var, qoy sığallasın,
Yelin xətrinə dəymə.
Saçdı, qoy dalğalansın,
Telin xətrinə dəymə.

Barmaqlarım inciyər,
Əlin xətrinə dəymə.
Daş-qaşdı, qoy düzülsün,
Ləlin xətrinə dəymə.

Sözüm bir nəmər olsun,
Dilin xətrinə dəymə.
Qollarım kəmər olsun,
Belin xətrinə dəymə.

Qoy çağlasın Zəlimxan,
Selin xətrinə dəymə.
Şairi küsdürərsən
Elin xətrinə dəymə.

## ŞAİRİN SÖZÜNƏ YALANDIR DEMƏ

Gül sənin nəyinə gərəkdir, gülüm?
Öpən dodağı yox, oxşayan əli,
Gəl, gül də, çiçək də özümüz olaq,
Sən bir az ağıllı, mən bir az dəli.

Gül sənin nəyinə gərəkdir, gülüm?
Sənin gülün mənəm, çiçəyin mənəm.
Güllü nağıllara getməsin ağlın,
Sənin həqiqətin, gerçəyin mənəm.

Gül sənin nəyinə gərəkdir, gülüm?
Hüsnün, gözəlliyin dünyada təkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əgər sən varsansa, bu yer üzündə,
Dünya başdan-başa güldü, çiçəkdi.

Gül sənin nəyinə gərəkdir, gülüm?
Qoxla nəfəsimi çiçəyə döndər.
Şairin sözünə yalandır demə,
Bütün yalanları gerçəyə döndər.

**KƏRƏM YALAN OLDU,**
**MƏN GERÇƏK OLDUM**

Gəl, gözüm işığı, gəl, gözüm nuru,
Dilim qabar oldu "göz" deyə-deyə.
Ruhum harayladı, könlüm çağırdı,
Öldürdün, darıxma, "döz" deyə-deyə.

Yoruldum, dizimi heydən elədim,
Vaxtımı hey axşam, hey dan elədim.
Ayağm altında meydan elədim,
Sinəmin üstündə "gəz" deyə-deyə.

Nədi sirr saxlamaq, sirr, mən bilirdim,
Gizli sevgiləri pir mən bilirdim,
Bir Allah bilirdi, bir mən bilirdim,
Dillərdə saz oldum, "söz" deyə-deyə.

Yerinə yetməyən bir dilək oldum,
Yol üstə saralan son çiçək oldum.
Kərəm yalan oldu, mən gerçək oldum,
Qaynar baxışlara "köz" deyə-deyə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏN SƏNİN QƏLBİNƏ NECƏ YOL TAPIM**

Gəl, mənim ömrümün şirin dünyası,
Məhəbbət adlanan pirin dünyası,
Fərhad əfsanəsi, Şirin dünyası,
Qalamı uçurum, qayamı çapım,
Mən sənin qəlbinə necə yol tapım?

Ömrüm sənə sarı düşən güzardı,
Əvvəli beşikdi, sonu məzardı,
Ay Allah, bu azar nə xoş azardı,
Ürək ağrılarım, könül əzabım,
Mən sənin qəlbinə necə yol tapım?

Ürəkdon-ürəyə dil körpüsü var,
Görüşdən-görüşə gül körpüsü var,
Gizli sevdaların qıl körpüsü var,
Çatarmı keçməyə dözümüm, tabım,
Mən sənin qəlbinə necə yol tapım?

Keşikçi ayıqdı, gözətçi mətin,
İzləmək qorxulu, boylanmaq çətin,
Hasarı hündürdü bu imarətin,
Tilsimli pəncərəm, qıfıllı qapım,
Mən sənin qəlbinə necə yol tapım?

Gecələr şam kimi əritdin məni,
Gündüzlər yol üstə qurutdun məni,
Gözlədə-gözlədə çürütdün məni,
Örtülü dəftərim, bağlı kitabım,
Mən sənin qəlbinə necə yol tapım?

Tufanmı qaldırım, mehəmi dönüm?
Yağışmı yağdırım, şehəmi dönüm?
Qulamı çevrilim, şahamı dönüm?
Çəmənim, çiçəyim, gülüm, gülabım,
Mən sənin qəlbinə necə yol tapım?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tanrı sovqatımsan, din işığımsan,
Səhər şəfəqimsən, dan işığımsan,
Ən şirin ləhcəmsən, danışığımsan,
Bütün suallara sənsən cavabım,
Mən sənin qəlbinə necə yol tapım?
Mənim ilk sevincim, son iztirabım,
Mən sənin qəlbinə necə yol tapım?

**MƏNİM BU KÖLGƏDƏ**
**BİR XATİRƏM VAR**

Saxlaya bilirdim vaxtı, saatı,
Yaşaya bilirdim ömrü, həyatı.
Şirin bir oxşama, kövrək bayatı,
Bütün ömrüm boyu unutmadığım
Vaxtın əllərimə keçdiyi çəm var,
Mənim bu kölgədə bir xatirəm var.

Başımın üstündə barlı bir budaq,
Budağın altında odlu bir dodaq,
İllərdi ağlayır orda bir bulaq,
Yarpaqlar üstündə hələ də nəm var,
Mənim bu kölgədə bir xatirəm var.

Üz közə dönmüşdü, yanaqlar zərə,
Arxada uçurum, qarşıda dərə.
Hər insan ömrünün xatirələrə
Yetdiyi məqam var, çatdığı dəm var,
Mənim bu kölgədə bir xatirəm var.

Bürünüb, qərq olub yaşıl tüllərə,
Nəğmətək axardı saf könüllərə.
Heyif, tez qarışdı solan güllərə,
İndi uzaqlarda bir bəxti kəm var,
Mənim bu kölgədə bir xatirəm var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tutur bildiyini Yaradan, Xalıq,
Elə bil dəryadan ayrılır balıq.
Yaş kədər gətirir, zaman qocalıq,
Gözümdə həsrət var, könlümdə nəm var,
Ağac kölgəsində bir xatirəm var!
Mənim bu kölgədə bir xatirəm var.

## SEVGİ YAĞIŞLARINA TUTACAĞAM DÜNYANI

Təpiklər tapdağında əzildi, əzdi dünya,
Xilası, xilaskarı axtardı, gəzdi dünya.
Ədavətdən yoruldu, nifrətdən bezdi dünya,
Sevgi yağışlarına tutacağam dünyanı.

Neçə ki kin-küdurət bir-birinə calaqdı,
İnsan hey çarmıxdadı, həmişə daşqalaqdı.
Anamızı ağladan böhtandı, badalaqdı,
Sevgi yağışlarına tutacağam dünyanı.

Sevib cavanlıq etmək, sevib qocalmaq gərək,
Saf duyğular içində xəyala dalmaq gərək.
Sevgini xəyanətin əlindən almaq gərək,
Sevgi yağışlarına tutacağam dünyanı.

Rəqib savaşlarında qırğın görüb, qan görüb,
Gül canlar, gül sevgilər nə qədər tikan görüb.
Mən bütün insanları şirin, mehriban görüb,
Sevgi yağışlarına tutacağam dünyanı.

Nəyinə vurulmuşam mən, dünyanın nəyinə,
Nuruna, işığına, gözəlinə, bəyinə.
Sığınıb Yaradan, Allahın köməyinə,
Sevgi yağışlarına tutacağam dünyanı.

Sarı-sarı səhralar yaşıl tül bitirəcək,
Qara-qara qayalar qızılgül bitirəcək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər sevilən, hər sevən bir könül bitirəcək,
Sevgi yağışlarına tutacağam dünyanı.

Can səpdim, can əritdim, yenə can bitirəcək,
Sağlam toxumlar düşüb din-iman bitirəcək.
Eşqi, məhəbbətiylə Zəlimxan bitirəcək,
Sevgi yağışlarına tutacağam dünyanı.

**İLAHİ, MİN ŞÜKÜR YARATDIĞINA**

Bir gündə min dəfə şükür deyirəm,
İlahi, min şükür yaratdığına!
Göylərin payıdı enib torpağa,
İlahi, min şükür yaratdığına!

Pətəyi çəməndən, balı çiçəkdən,
Sevgisi beşikdən, eşqi bələkdən,
Payı gözəllikdən, nuru mələkdən,
İlahi, min şükür yaratdığına!

Baxışı ulduzdan, işığı Aydan,
Axarı çeşmədən, ləngəri çaydan.
Günəşi bahardan, alovu yaydan,
İlahi, min şükür yaratdığına!

Arayan narahat, aranan gözəl,
Darayan bəxtəvər, daranan gözəl.
Yaradan müqəddəs, yaranan gözəl,
İlahi, min şükür yaratdığına!

Gözüm gözəlliyin həsrəti, acı,
Gözəllər başımın cığası, tacı.
Sən Allah, o bəndə, mən tamaşaçı,
İlahi, min şükür yaratdığına!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖZLƏRİMİ ÖZÜN QAPA**

Dedim: - Gəl, bir seyrə çıxaq.
Yox, gələ bilmərəm, - dedi.
Dedim: - Nazı bir yana qoy.
Yox, gələ bilmərəm, - dedi.

- Qapım açıq, baxtım açıq,
Sevmir mənim baxtım acıq,
İşıq kimi baxtıma çıx!
- Yox, gələ bilmərəm, - dedi.

- Dağları en, dərəyə gəl,
Ovçun mənəm, bərəyə gəl,
Yaşıl bir mənzərəyə gəl.
- Yox, gələ bilmərəm, - dedi.

- Budaqlardan dərim gülü,
Qədəminə sərim tülü,
Gəl, sevindir bir könülü.
- Yox, gələ bilmərəm, - dedi.

- Əcəl yatmır ipə-sapa,
Kim itirə, kimlər tapa,
Gözlorimi özün qapa.
- Yox, gələ bilmərəm, - dedi.

- Dözümüm, səbrim üstə gəl,
Zəhmətim, cəbrim üstə gəl,
Ölürəm, qəbrim üstə gəl,
- Yox, gələ bilmərəm, - dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SEVGİ ADLI ŞAHA QURBAN

Mən insanam - Allah mənim,
Adəm mənim, Nuh mənimdi.
İşıq məndə, səhər məndə,
Könül mənim, ruh mənimdi.

Yaradan bir, tanrı birdi,
Birin işi bağlı sirdi.
Hamının sonu qəbirdi,
Bir qəbir də eh...mənimdi.

Güc, təpər dizdən ötrüdü,
Gözəllik gözdən ötrüdü.
Hər nə var bizdən ötrüdü,
Gah sənindi, gah mənimdi.

Mələk mənəm, fələk mənəm,
Qanad mənəm, lələk mənəm.
Çöldə bitən çiçək mənəm,
Üstündəki şeh mənimdi.

Açılan sabaha qurban,
Tükənməz iştaha qurban.
Sevgi adlı şaha qurban,
Mən şahınam, şah mənimdi.

## GƏLMİŞƏM MƏN SƏNİN ZİYARƏTİNƏ

Udduğum havaynan, içdiyim suynan,
Dəli bir ümidnən, şirin arzuynan
Gəlmişəm mən sənin ziyarətinə.

Qoşa qanad kimi qollarını aç,
Dərdimə dərman ol, ağrıma əlac,
Gəlmişəm mən sənin ziyarətinə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün məbədlərdən səni baş bilib,
Kəbənin köksündə qara daş bilib,
Gəlmişəm mən sənin ziyarətinə.

Sevginlə könlümü, gəl, qarət eylə,
Bir möcüzə göstər, bir qeyrət eylə.
İlahi sovqatı təbəssümünlə
Məni də bir parça ziyarət eylə,
Gəlmişəm mən sənin ziyarətinə.

**MƏNƏ XOŞGƏLDİN DE,
ƏLVİDA DEMƏ**

Elə ki taleyin üzünə güldü,
Daha dad qılmasın göz ayrılıqdan.
Görüşlər dalınca görüşlər gələr,
Düşməz ortalığa söz ayrılıqdan.

"Sevirəm" – deyənin sevgisi haqsa,
Qəm yemə bu yolda göz yaşın axsa.
Sonu bir bayrama qovuşacaqsa,
Nə usan, nə də ki, bez ayrılıqdan.

Üz vermə həsrətə, nə danış, nə din,
Boylanmaq zülümdü, gözləmək çətin.
Əlim ətəyində qalıb həsrətin,
Sən allah, əlimi üz ayrılıqdan.

Şirin bir qismət ol qismətdən kəmə,
Qənim ol yolunda çəkdiyim qəmə.
Mənə xoşgəldin de, əlvida demə,
Bir görüş yaxşıdır yüz ayrılıqdan.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**SEVMƏ MƏNİ,**
**SƏN ALLAHI SEVƏRSƏN**

Ulduzu sev, işıq olsun beyninə,
Buludu sev, paltar olsun əyninə.
Torpağı sev, alsın səni qoynuna,
Sevmə məni, sən Allahı sevərsən.

Qalxan olmaz, qılınc olar bu sevgi,
Qazanc olmaz, qaxınc olar bu sevgi.
Qılınc qədər qorxunc olar bu sevgi,
Sevmə məni, sən Allahı sevərsən.

Dağa haray, daşa səda salarsan,
Qanım gedər, bir qan-qada salarsan.
Sən bir odsan, məni oda salarsan,
Sevmə məni, sən Allahı sevərsən.

Ağrı sənəm, aman sənəm, ah sənəm,
Canımda od, yanağımda şeh sənəm.
Qərib üçün nələr çəkdi Şahsənəm,
Sevmə məni, sən Allahı sevərsən.

Yuxular var, yuxularda buta var,
Kərəmlərə tilsim quran ata var.
Mən bilirəm, bu sevgidə xata var,
Sevmə məni, sən Allahı sevərsən.

İşığım yox, otağınca, evincə,
Dönəmmərəm gözlədiyin sevincə.
Allahı sev, gəlib məni sevincə,
Sevmə məni, sən Allahı sevərsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BİR GÖZƏL ÖLDÜRDÜ MƏNİ**

Qəfil ölmək istəmirdim,
Bir gözəl öldürdü məni.
Səfil ölmək istəmirdim,
Bir gözəl öldürdü məni.

İncə ruhnan, şirin səsnən,
Göz baxışnan, od nəfəsnən.
Alov dilli bir həvəsnən,
Bir gözəl öldürdü məni.

Döndü gülün butasına,
Saldı gözün xatasına.
Xəbər verin atasına,
Bir gözəl öldürdü məni.

O xəznədar, mən bir sayıl,
Baxdım, oldum hayıl-mayıl.
Nə Allahdı, nə Əzrayıl,
Bir gözəl öldürdü məni.

Qəlbi kaman, dili neymiş,
Aman Tanrım, bu qız nəymiş?
Gözəl ölmək gözəl şeymiş,
Bir gözəl öldürdü məni.

**ÇƏKƏR**

Görüş var, bir ömrü versən də azdır,
Görüş var, getməyə adam can çəkər.
Görüş var, şadlığı sığmır illərə,
Görüş var, fərəhi bircə an çəkər.

Yaşasan ən şirin arzuyla, kamla,
Sevincin sel olar, dərdinsə damla.
Ürəkdən verilən xoş bir salamla
Əli əl isidər, qam qan çəkər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayrılıq həyatda hər şeydən çətin,
Min bir əzabı var bir məhəbbətin,
Gəlməsən yandırar məni həsrətin,
Gələrsən, nazını Zəlimxan çəkər.

## NİFRƏTƏ ÇEVİRMƏ MƏHƏBBƏTİMİ

Ucadı zirvəmiz, qoy uca qalsın,
Endirmə yerlərə, göy uca qalsın.
Qəddi bükülməsin gəncliyimizin,
Göz nurlu, can odlu, boy uca qalsın,
Nifrətə çevirmə məhəbətimi!

Sevilən dünyanı yeddi qat sevir,
Həyatı sevəni bu həyat sevir.
Daş atma gözünə duru suların,
Sevgi bir balaca ehtiyat sevir,
Nifrətə çevirmə məhəbbətimi!

Sevdim Allah verən boyu, buxunu,
Çəkdim ciyərimə ətri, qoxunu.
Bir acı təəssüf, bir köntöy baxış,
Tərsinə fırladır yerin oxunu,
Nifrətə çevirmə məhəbbətimi!

Duyğular susanda can şikəst olar,
Ruh yorğun düşəndə ürək süst olar.
Cənnət cəhənnəmə çevrilən günü,
Göy baş-ayaq düşər, yer alt-üst olar,
Nifrətə çevinnə məhəbbətimi!

Su kimi durulub sevmişəm səni,
Oxlanıb, vurulub sevmişəm səni.
Göydən almamışam hədiyyə kimi,
Yollarda yorulub sevmişəm səni,
Nifrətə çevirmə məhəbbətimi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BÖYÜK SEVGİLƏR

Sevənlər birləşəndə bir ürək, bir can olur,
Nur yağır gecə-gündüz rəngindən, çöhrəsindən.
İstər dəryaya tulla, istər qayalardan at,
Öldürsən də əl üzməz Tahir öz Zöhrəsindən.

İlmə-ilmə toxunub, yaşıl ağa sarılar,
Gül çəmənə, şeh düzə, qaya dağa sarılar.
Yun əyrilib ip olar, sap yumağa sarılar,
Düyçələr dolub çıxar zamanın cəhrəsindən.

Ölməz böyük sevgilər, ölüm, təhlükə bilməz,
Gözündə su bulanmaz, aynası ləkə bilməz.
Min illər gəlib keçər, heç vaxt əl çəkə bilməz
Fərhad öz qayasından, Məcnun öz səhrasından.

*30 noyabr 2004*

## KÖNLÜM

Öz ağrını özün çək,
Demə hər yerdə, könlüm!
Açma dərdin üzünü,
Yırtılar pərdə, könlüm!

Hey içini yeyirdin,
"Dözəmmirəm" deyirdin.
Xeyir danış, xeyir din,
Xeyirdə-şərdə, könlüm!

Bil anın qiymətini,
Bil canın qiymətini,
Dünyanın qiymətini,
Axtarma zərdə, könlüm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bişirəcək aşını,
Tovlayacaq başını.
At bu nərdin daşını,
Kərəm yox zərdə, könlüm!

Arzuların canı var,
Canın qaynar qanı var.
Min dərdin dərmanı var.
Bir damla tərdə, könlüm!

Özünlə çək davanı,
Özünlə qur divanı.
Özün çal öz havanı,
Bu sim, bu pərdə, könlüm!

Ağla gözün dolunca,
Saralınca, solunca.
Namərdə xan olunca,
Qul ol bir mərdə, könlüm!

*5 fevral 2005*

**MƏN GETDİM, MƏNİ GÖZLƏMƏ**

Daha bu yer çiçəkləməz,
Çiçəkləri ləçəkləməz.
Kifir olar, kafir olar,
Gözəlləri göyçəkləməz,
Mən getdim, məni gözləmə.

Ruha sirdaş olammadın,
Haqqa qardaş olammadın.
Mən hönkürüb ağlayanda,
Gözümdə yaş olammadın,
Mən getdim, məni gözlomə.

Daşıdığım əzab haqqı,
Oxuduğum kitab haqqı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən verdiyim suallara,
Vermədiyin cavab haqqı
Mən getdim, məni gözləmə.

Ruh uçar, bədən qayıtmaz,
Çıxar cərgədən, qayıtmaz.
Aylar, illər təzələnər,
Qayıtmaz, gedən qayıtmaz.
Mən getdim, məni gözləmə.

Lal olmuş bir bulud gözlə,
Daş olmuş bir sükut gözlə.
Mismarlanmış, möhürlənmiş,
Taxta gözlə, tabut gözlə,
Mən getdim, məni gözləmə.

Səs olub neyə çəkilləm,
Ah olub göyə çəkilləm.
Yaradanın özü bilir,
Göylərə niyə çəkilləm,
Mən getdim, məni gözləmə.

Damar vurur, qan çağırır,
Günəş doğur, dan çağırır.
Sən gecikdin, çağırmadın,
Məni çağıran çağırır,
Mən getdim, məni gözləmə.

*27 fevral 2005*

## GƏL, SƏNƏ ŞEİR OXUYUM

Gəl, sənə şeir oxuyum,
Çeşməyə gəl, çaya gəl.
Doğul, yenidən doğul,
Təzədən dünyaya gəl.

Gəl, sənə şeir oxuyum,
Ruhu cana qaytarım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəl, səni doğulduğun,
O ilk ana qaytarım.

Gəl, sənə şeir oxuyum,
Dağ şehindən saf olsun.
Durulsun baxışların,
Sulardan şəffaf olsun.

Gəl, sənə şeir oxuyum,
Ömrüm bir az uzansın.
Boş şeydi cib qazancı,
Qazanır, ruh qazansın.

Haqqın nurundan qopub,
Can içində canındı.
Mənim deyil o şeir,
Məni yaradanındı.

*3 mart 2005-cü il*

## SEVƏNLƏR HƏMİŞƏ MÖHTƏRƏM OLUR

Sevinc gözləməsin sevən dünyadan,
Qisməti çox zaman kədər-qəm olur.
Can şamda titrəyən şöləyə dönür,
Göz dolur-boşalır, kirpik nəm olur.

Meyli qıza düşür, qadına düşür,
Hərə bir gözəlin oduna düşür.
Kim cəfa çəkirsə, ad ona düşür,
Gah Qərib, gah Məcnun, gah Kərəm olur.

Nazıyla oynamaq adətim, peşəm,
Sevgidir varlığım, sevgidir nəşəm.
Sevənlər həmişə məğrur, möhtəşəm,
Sevənlər həmişə möhtərəm olur.

*2 fevral 2005*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ALLAHDAN QORXMASAYDIM**

Günəşin doğan çağı
qarşıma mələk çıxıb,
Nə mübarək səhərdi,
nə gözəl sabahdı bu.
Hardan bildi bu yerdən
şair gəlib keçəcək,
Bəlkə, xəbər verən var?
sirrimdən agahdı bu.
O yetən kamilliyə
heç bir gözəl yetişməz.
Bahadı, dəyərinə qiymətdə
ləl yetişməz.
Dindirsən dilə gəlməz,
uzatsan əl yetişməz,
Yüksəkdədir məqamı,
uca bir dərgahdı bu.
Xoşbəxtlik kimə bütöv,
kimə kəm-kəsir düşür,
Bu ilahi gözəllik
bəxtə mində bir düşür.
Qızların baxışından
oğlanlar əsir düşür,
Burda Əsir olmamaq -
ən böyük günahdı bu.
Nələr gördü gözümüz,
bu dünyada, eh, nələr,
Gözəllər sərgisində
çox dəyişib səhnələr,
Qızlar qarıya dönüb,
dəbdən düşüb köhnələr
Təzə çıxıb taxtına,
Təzə padşahdı bu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zirvə Tanrı yanında,
                    kim çatmaya, kim çata,
Odur hərəkət verən
                    bu boyda Kainata.
Şair gözündə od var,
                    gözəl dilində xəta,
Allahdan qorxmasaydım,
                    deyərdim, Allahdı bu.

*27 yanvar 2005*

**MƏNƏ DÜNYA BAĞIŞLA**

Məcnun olmaq istərəm,
Mənə səhra bağışla.
Balıq olmaq istərəm,
Mənə dərya bağışla.
Baş qoyum dizin üstə,
Mənə layla bağışla.
Sevmək zamanı gəldi,
Qaynar çeşmə, göy çəmən,
Güllü yayla bağışla.
Əsirgəmə, ey gözəl,
Dünyanı istəyirəm,
Mənə dünya bağışla.

*27 sentyabr 2004*

**GÖYLƏRƏ VARAN MƏNƏM**

Dağ desən, gül açaram,
Bağ desən, aran mənəm.
Gözəllər Fərhadıyam,
Qayalar yaran mənəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqi başa tac bilib,
Hər dərdə əlac bilib,
Sevgini merac bilib
Göylərə varan mənəm.

Yarıb şaxtanı, qarı,
Yıxıb bəndi, hasarı,
Səni Tanrıya sarı,
Alıb aparan mənəm.

*29 sentyabr 2004*

## ÇƏMƏN OLSAN, ÇİÇƏYİNİ DƏRƏRDİM

Üz-gözündən Tanrı nuru tökülür,
Durulanıb, bulaqdanmı gəlmisən?
Duyğuların qanadına çevrilib,
Nəğmə olub, dodaqdanmı gəlmisən?

Bir ovçuyam, qismətimə ov gəlib,
Od yanına çaxmaq gəlib, qov gəlib.
Tufanlara, şimşəklərə lov gəlib,
Sevgi adlı sınaqdanmı gəlmisən?

Çəmən olsan, çiçəyini dərərdim,
Çiçək olsan, yaylıq üstə sərərdim,
Bəndə olsan, səni çoxdan görərdim,
Mələk olub, uzaqdanmı gəlmisən?

*20 iyul 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VƏTƏN

Vətəndə qürbəti heç düşünmədim,
Qürbətə düşdüyüm an "Vətən!" - dedi.
Qəlbim an kimi elə sızladı,
Bağrımın başında şan "Vətən!", - dedi.

Allahı, vallahı söz olan dilim,
Yurdun hər sözünə göz olan dilim,
Ağrımın içində köz olan dilim,
Axşam harayladı, dan "Vətən!", - dedi.

Nədir bu sözdəki ilahi qüdrət?
Dizlərə taqətdi, qollara qüvvət.
Elə ki birləşdi həsrətlə qüdrət,
Ürək parçalandı, can "Vətən!", - dedi.

*8 oktyabr 2004*

## GÖZÜMƏ AZ DƏYİR QARAPAPAQLAR

Hər dəfə şəhərdən kəndə dönəndə
Üzür ürəyimi bir nigaranlıq.
Baxıram, özümə yazığım gəlir,
Duyuram, qəlbimə çökür qaranlıq.
Yorğun xəyalıma gör nələr düşür,
Dünənə qayıdıb fikrim bir anlıq.
Ağır yerişindən yer ləngərlənən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hanı o qaməti, duruşu şaxlar,
Göyəmi çəkilib bin-bərəkəti,
Gözümə az dəyir qarapapaqlar!

Mən papaq deyəndə - ata yurduna
Sonsuz sədaqəti salıram yada.
Ana-bacılara ər vəfasını,
Namusu, qeyrəti salıram yada.
Necə sevinərdik kişi görəndə,
Papağa hörməti salıram yada.
Baxardıq dağların zirvəsi kimi
Hər kimin saçında görünəndə qar.
Oynamır qamçısı, kişnəmir atı,
Gözümə az dəyir qarapapaqlar!

Nağıl yaraşıqlı, dastan şırğalı,
Bayatı ətirli söhbət istərəm.
Kişi təpərindən, ər nəfəsindən
Qəlbimə, ruhuma qüvvət istərəm.
Müqəddəs sayılan el adətinə
Əzəli, əbədi hörmət istərəm.
Böyüksüz ocağın, böyüksüz evin
Təməli dağılar, özülü laxlar.
Varlana-varlana yoxsullaşırıq,
Gözümə az dəyir qarapapaqlar.

Cavanlar dağılıb, qocalar köçüb,
Yoxsul görməmişdim bu kəndi belə.
Toylar, toyxanalar uşaq yığnağı,
Kişilər nə yaman tükəndi belə.
Qəlbimdə dədələr həsrəti ki var,
Mənim də qəddimi bükəndi belə.
Aylar da, illər də düzülər səfə,
Gün gələr qocalıq məni də haqlar.
Bizi nə gözləyir, onu bilmirəm,
Gözümə az dəyir qarapapaqlar!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gör-götür dünyası göstərib bizə,
Elin başbiləni başda tac olub.
Sağlam toxum kimi düşüb torpağa,
Hər sözü bar verən bir ağac olub.
Əsil ağsaqqala, ağsaqqallığa
Nəsildən-nəsilə ehtiyac olub.
Oğullar görmüşəm bir kəndin deyil,
Çiynində mahalın yükünü saxlar.
Aqil babalarım, de, hardasınız?
Gözümə az dəyir qarapapaqlar!

Uzağa düşəndə süddən, sümükdən,
Bir xalqın həyatı tükənə bilər.
Canında məhəbbət, gözündə heyrət,
Dilində bayatı tükənə bilər.
Bəmində laylası yadına düşməz,
Zilində "Heyratı" tükənə bilər.
Özünü tanımaz, özgəni görməz,
Qəlbi gen olarmı düşüncəsi dar?
Döyünün, çırpının, böyük ürəklər,
Gözümə az dəyir qarapapaqlar!

## YAŞA

Buna ömür neyləsin,
Daş olsa da, dayanmaz.
Buna dəmir neyləsin,
Oğulsan, arzuların
Arxasınca çat, yaşa!

Milləti rüşvət yedi,
Xalqı siyasət yedi.
Haqqı xəyanət yedi,
Oğulsan, bu dərdləri,
Dağ boyda namərdləri
Kürəyindən at, yaşa!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yerə verilən - zəhər,
Tağdan dərilən – zəhər.
Hər gün dirilən - zəhər.
Oğulsan, bu zəhəri
Çörəyinə qat, yaşa!

İçimizi çürüdən
Qurd olar, bu boyda yox!
Torpağımız yadlara,
Yurd olar, bu boyda yox!
Dərmanı tapılmayan
Dərd olar, bu boyda yox!
Oğulsan, bu həyatda
Yaxşı bir həyat yaşa!
Sənin ki qismətinə
Bu qədər ağrı çıxdı.
Bu qədər quldur-qaçaq,
Bu qədər oğru çıxdı.
Nə qədər yalançı var,
Nə qədər talançı var,
Nə qədər palançı var,
Yaşa, ey dəli könlüm,
Hər gün narahat yaşa!

## QƏRİBLƏR

*Bizə ayrı düşmək haqdan əmirdi,*
*Yeddi il dediyin xeyli ömürdü.*
*Məgər mənim canım daşdı, dəmirdi,*
*Ana mən Qəribəm, Qəribəm, Qərib.*

**"Aşıq Qərib" dastanından**

Sən şükürlüsənmiş, ay Aşıq Qərib,
Sənin qəribliyin yeddi il çəkib.
Tale qəriblərə zülüm göndərib,
Hərəsi bir ağrı, bir nisgil çəkib.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şahsənəm eşqinə düşüb yollara,
Dərdini deməyə söz götürübsən.
Vaxtında yetişib vəfalı yara,
Həsrətin yükünü az götürübsən.

Daşımaq çətindi əzabı, dərdi,
Bəxtin qarası var, işin bədi var.
Sənin Şahvələdin bircə nəfərdi,
İndinin min nəfər şahvələdi var.

Min yol çağırsaq da, gözə görünməz
Səni göy atına mindirən kişi.
Hamıya görünər, bizə görünməz,
Qəribi qürbətdə dindirən kişi!

Hələbdən Tiflisə, Sənan dağına
Mavi qanadların üstünə gəldin.
Ana istəyinə, yar sorağına
Uç aylıq yolları üç günə gəldin!

Bu gün qəriblər var, bir günlük yola
Qırx ildi əlləşir, yetişə bilmir.
Dolanır gözünə yaş dola-dola,
Naləsiz, fəryadsız ötüşə bilmir!

Dözə bilmədinsə yeddicə ilə,
Yetmiş il qürbətdə qalan neyləsin?
Əridib ömrünü hey gilə-gilə,
Tufandan-tufana salan neyləsin?

Yuxularda görüb Azərbaycanı
Xəyalı min yerə dağılan da var.
Üzülüb ürəyi, əzilib canı,
Göz yaşı içində boğulan da var.

Qürbətin hər günü qəlbin yasıdı,
Hər könül bir odlu ahdan ağrıyar,
O ki qəm oylağı, dərd yuvasıdı,
Gahdan sakit olar, gahdan ağrıyar.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sönən şama dönər, əriyən yağa,
Onun yarasına məlhəm tapılmaz.
Elə ki can atar məktub yazmağa,
Varaq tapılsa da, qələm tapılmaz!

Qəriblər qəfləti ölmür, işə bax,
Susmaq ağır olur, can vermək çətin.
Görür sifətini ölümdən qabaq
Yadlaşan sevginin, buz məhəbbətin!

Elə ki göz yumur Tanrıya bəndə,
Onda yavaş-yavaş bədən soyuyur.
Qəribin ürəyi buza dönəndə,
Buzun arasında Vətən soyuyur!

Qərib var, Vətəndən yarpaq arzular,
Vətənin üzütək öpülmək üçün.
Qərib var, Vətəndən torpaq arzular.
Öləndə qəbrinə səpilmək üçün!

Gözünün yaşında boğulan, axan,
Eldən aralanıb gedən yazıqdı.
Gözləri həmişə qürbətə baxan,
Qəribi çox olan Vətən yazıqdı!

Görüb təbiətin sərt ayazını
Dərdini obaya, elə söyləyər.
Qəmli aşıq kimi çalıb sazını,
Qəriblər fikrini belə söyləyər:

Ağlamaqdan,
Əzizim ağlamaqdan.
Bağda yarpaq qalmadı
Yarama bağlamaqdan.

Vallah, şükürlüsən, ay Aşıq Qərib,
Sənin qəribliyin yeddi il çəkib.
Tale qəriblərə zülüm göndərib,
Hərəsi min ağrı, min nisgil çəkib!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BU QATARLA MƏN GEDƏSİ OLMADIM**

Yox, deyəsən baş tutmadı bu səfər,
Bu qatarla mən gedəsi olmadım.
Tapılmadı könül açan bir nəfər,
Bu qatarla mən gedəsi olmadım.

Xidmətçisi yetmiş ilin xəstəsi,
Dilənçisi əl açmağın ustası.
Meydan açıb lotuların dəstəsi,
Bu qatarla mən gedəsi olmadım.

Ağıllıdan dəlisi çox bu yolun,
Qansoranı, zəlisi çox bu yolun.
Əlisi çox, Vəlisi çox bu yolun,
Bu qatarla mən gedəsi olmadım.

Durduğu yer lap yarğanın qaşıymış,
Bələdçisi nabələdmiş, naşıymış.
Sürücüsü oğruların başıymış,
Bu qatarla mən gedəsi olmadım.

Bu yollarda kim çapılar, kim çapar,
Allah bilir, kim itirər, kim tapar.
Bilet verən, biletini gəl apar,
Bu qatarla mən gedəsi olmadım.

**GÖRÜŞ**

Ellərlə görüşüm çox şirin oldu,
Arılar baş qoydu gülümün üstə.
Elə çiçəklədi sözlər, kəlmələr,
Bir çəmən göyərdi dilimin üstə.

Ötmədi mənasız, hədər bir anım,
Odlu duyğularla qaynadı qanım.
Sevgidən Kərəmtək alışdı canım,
Sevənlər baş əydi külümün üstə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şöhrətdə ən uca zirvəylə hənəm,
Günəşəm, buludam, yağışam, çənəm.
Gördüm bu dünyanın anası mənəm,
Dünya bir körpədi qolumun üstə.

Cahanı dolaşan səyyah olmuşam,
Zəlimxan, çox şeydən agah olmuşam.
Sanki el içində Allah olmuşam,
Özgə bir əl yoxdu əlimin üstə.

## ÇƏKƏ-ÇƏKƏ

Şəvə saçımızı qara döndərir
İllər başımıza əl çəkə-çəkə.
Nurlu baxışları salır nəzərdən
Tale gözümüzə mil çəkə-çəkə.

Bəxtimiz qalxanda şölə saçmışıq,
Bəxtimiz yatanda gözdən qaçmışıq.
Nə qədər nadana ağız açmışıq
Boğaz çəkə-çəkə, dil çəkə-çəkə.

Düşdü yoxsulları borca dünyanın,
Alçağı çox oldu uca dünyanın.
Qocalıb gedirik, qoca dünyanın
Dərdini, qəmini bol çəkə-çəkə.

Timsahlar gözünün yaşını sıxdı,
Yalanlar dünyanın sonuna çıxdı.
Satqınlar bu xalqın evini yıxdı
Saxta kağızlara qol çəkə-çəkə.

Dağ da möhtac olur, düz də yollara,
Cığır da can atır, iz də yollara.
Yollar bizə baxır, biz də yollara,
Qalırıq gözləri yol çəkə-çəkə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QORUYA BİLMƏDİK MƏZARINIZI

*Molla Pənah Vaqifin, Xan qızı Natəvanın, Aşıq Ələsgərin, Dədə Şəmsirin, Sarı Aşığın müqəddəs ruhları! Sizin qarşınızda günahkarıq, Siz günahımızdan keçsəniz də, Allah bizi bağışlamayacaq, Qoruya bilmədik məzarınızı!*

Qayanı yardılar, daşı çapdılar,
Məqbərə ucaldıb, günbəz yapdılar,
Sizin ruhunuzu sevən nəsillər
Sizin adınızla şöhrət tapdılar.
Belinə daş qoyduq biz o şöhrətin,
Qoruya bilmədik məzarınızı!

Könül adamları, ruh adamları,
Ağrı adamları, ah adamları,
Saflıqda dünyanın şeh adamları,
Ulu məmləkətin şah adamları,
Belimiz qırıldı şah damarından,
Qoruya bilmədik məzarınızı!

Döyüşdə əsgərə dönə bilərdik,
Torpaqda səngərə dönə bilərdik,
Sıyrılmış xəncərə dönə bilərdik,
"Allahu əkbər"ə dönə bilərdik,
Dünya bizdən ötrü məhşərə döndü,
Qoruya bilmədik məzarınızı!

Yurdun işığını, nurunu satdıq,
Odunu, közünü, qorunu satdıq,
Satdıq, dədəmizin gorunu satdıq,
Qaniçən yağının ixtiyarına
Qəbristan da verdik, qəbir də verdik,
Utanmaz-utanmaz hələ bir durub
Millətə öyüd də, səbir də verdik.
Hər şeyi qoruduq, ismətdən özgə,
Hər şeyi qoruduq, qeyrətdən özgə,
Qoruya bilmədik məzarınızı!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxina gəlmədi  uzaqlarımız,
Çox yerdə kar oldu qulaqlarımız.
Baltalar enəndə kökə, gövdəyə,
Bilmədik quruyar budaqlarımız.
Axarı qarışdı zir-zibillərə,
Gözündən bulandı bulaqlarımız,
Qurumaz bulaqlar, qaynar çeşmələr,
Qoruya bilmədi məzarımızı!

Dağıldı, töküldü torpağın üstü,
Hər yanı dumandı, hər yam tüstü.
Könül bulandıran bu mənzərədən
Dünyanın müqəddəs ruhları küsdü.
Vaqifı qaldırıb Cıdır düzündə
Şeir köhləninə mindirən olsa,
Qəmli Natəvanı tutub söhbətə,
Ruh verib, dil verib dindirən olsa,
Eşitmək ağırdı ah-zarınızı,
Qoruya bilmədik məzarınızı!

Göyçə göyüm-göyüm göynədi, getdi,
Ağdamda ağ gündən əsər qalmadı.
Gəldi Kəlbəcərin qara günləri,
Şuşada bir tutar, kəsər qalmadı.
"Vaqif! Ey sərvərim, ey tacidarım!"
Başdan Şuşa adlı tacı vermişik!
Şuşanı verməklə düşmən çənginə,
Məkkəni vermişik, Hacı vermişik!
Yaxşının məzarı yad tapdağında,
Biz San Aşığa acı vermişik!

Eheeey! Hayandasan, Xan qızı, söylə,
Eheeey! Hayandasan, Ələsgər dədə,
Eheeey! Hayandasan, gəl, Dədə Şəmşir,
Haraya uçdunuz əllərimizdən,
Hayana saldınız güzarınızı?
Qoruya bilmədik məzarınızı!!!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BORÇALI DEYİLƏN**

Adəmdimi, Həvvadımı, Nuhdumu,
Ürəkdimi, nəfəsdimi, ruhdumu,
Ağrıdımı, acıdımı, ahdımı,
Kimdi günü göy əsgiyə düyülən?
Nəymiş Allah, bu Borçalı deyilən?!

Neçə dəfə dəyişdilər adını,
Bircə dəfə dəyişmədi dadını.
Dosta verdi ürəyinin odunu,
Dost dilində əzizlənən, öyülən
Nəymiş Allah, bu Borçalı deyilən?!

Zəhərdimi, şəkərdimi, baldımı,
Sığaldımı, naxışdımı, xaldımı,
Dillidimi, dilsizdimi, laldımı,
Təhqir olan, yad dilində söyülən –
Nəymiş Allah, bu Borçalı deyilən?!

Palıd kimi tufanlarla öc olan,
Qüvvət kimi qolumuzda güc olan,
Papaq kimi başımızda tac olan,
Zireh kimi əynimizə geyilən
Nəymiş Allah, bu Borçalı deyilən?!

Təbriz kimi həmi yaxın, həmi yad,
Dərbənd kimi həmi qəmli, həmi şad,
Göyçə kimi harayına yox imdad,
Haqqı-sayı tikə-tikə yeyilən –
Nəymiş Allah, bu Borçalı deyilən?!

Sayagəlməz qayğılarla yüklənən,
Telli sazı qəm üstündə köklənən,
Yağıların meydanında təklənən,
Bədbəxtliyi görkəmindən duyulan –
Nəymiş Allah, bu Borçalı deyilən?!

Yaddan çıxıb yaxşılığı, yeyliyi,
Əldən gedib sultanlığı, bəyliyi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Götürəmmir gədəliyi, səyliyi,
Düşmənidi düşmənlərə əyilən –
Nəymiş Allah, bu Borçalı deyilən?!

İçimizdən qalxan ahmı günahkar,
Adil şahmı, Nadir şahmı günahkar,
Yüz bəndəmi, bir Allahmı günahkar,
Heç bilmirəm kimdi döyən, döyülən –
Nəymiş Allah, bu Borçalı deyilən?!

Aranında əl-ayağı kəsilən,
Yaylağında bəndi-bağı kəsilən,
Bir gün sağı, bir gün solu kəsilən,
Damar-damar dabanından soyulan –
Nəymiş Allah, bu Borçalı deyilən?!

Loğma-loğma yad ağzına atılan,
Parça-parça satqınlara satılan,
Qarış-qarış özgələrə qatılan,
Unudulan, sol əl ilə tutulan,
Yolu-izi göz yaşıyla yuyulan –
Nəymiş Allah, bu Borçalı deyilən?!

Həsrətinə kim batmaya, kim bata,
Harayına kim çatmaya, kim çata,
Qovğasında kim ayıla, kim yata,
Yatan bilmir nələr çəkib ayılan –
Nəymiş Allah, bu Borçalı deyilən?!

Övladını kişi gördüm, mərd gördüm,
Mərdlərində dağlar boyda dərd gördüm,
Dərd çəkəni qaya kimi sərt gördüm,
Aman Allah! Nə bəlalı yurd gördüm,
Buymuş Allah, bu Borçalı deyilən!!!

Yaralan göz-göz olan, sulanan,
Duru gözü çalxalanan, bulanan
Suymuş Allah, bu Borçalı deyilən,
Buymuş Allah, bu Borçalı deyilən!!!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**KƏRKÜK**

Bu gün sənin taleyini
düşünürəm,
Ağır gündə üstünü
od alan Kərkük.
Öndə qatil, sağda düşmən,
solda yağı,
Yurd-yuvası, el-obası
talan Kərkük.
Dərdlərini zirvələrə
tən bilirəm,
Əzabını saçlarıma
dən bilirəm.
Borçalıyam, nə çəkirəm,
mən bilirəm,
Borçalıtək könül bağı
talan Kərkük.

Beş yüz ildi Boyat səndə,
Nəsim səndə,
Məndən qopan ruhum səndə,
səsim səndə.
Gəl qovuşaq, qurbanımı
kəsim səndə,
Bəd xəbərlər yalan olsun,
yalan, Kərkük.
Əvvəlkitək vuran əlim
yoxdu hələ,
Qılınc çəkib, coşan dəlim
yoxdu hələ.
Fateh yoxdu, Sultan Səlim
yoxdu hələ,
Gözlə görək, gözü yolda
qalan Kərkük.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Harda zor var,
orda xəbis barmağı var,
Harda şər var,
orda iblis barmağı var,
Taleyində bir
"ingilis barmağı" var
Qismətini qızıl ilan
çalan Kərkük.

Qarabağ da Ərbil, Məsul
talelidi,
Ruhu girov, özü yoxsul
talelidi,
Əzilənin taleyi qul
taleyidi,
Yıxdı səni filan oğlu
filan, Kərkük.

Dönə-dönə sındırıblar
inadını,
Uça bilmir, tale qırıb
qanadını.
Məkkə bilib öz adını,
soyadını,
Namazını türkə sarı
qılan Kərkük.
Cəllad deyək, yağı deyək
bəxtimizə,
Ömrün qara çağı deyək
bəxtimizə,
Layla çalaq, ağı deyək
bəxtimizə,
Sən anam ol, mən də sənin
balan, Kərkük.

*16 mart 2003*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DƏRDİN DASTANI**

Mən bu yurdun ozanıyam, sazıyam,
Tel dərdini gəlib mənə danışır.
Doqquz teldən doqquz gümüş çay axır
Sel dərdini gəlib mənə danışır.

Bu Kərəmdi, bu "Kərəmi", bu Leyli,
Hamısı da yerdən, göydən gileyli.
Çay nisgili, sel harayı, su meyli,
Göl dərdini gəlib mənə danışır.

Budaq üstə narın-narın qar qonur,
Saflıq qonur, sərvət qonur, var qonur.
Nə zaman ki gül üstünə xar qonur,
Gül dərdini gəlib mənə danışır.

Yeriyəmmir, dizlərinə duz çökür,
Boylanammır, baxışına buz çökür.
Qarışqanın qarşısında diz çökür,
Fil dərdini gəlib mənə danışır.

Damla düşür, kirpikləri nəmlənir,
Faciəsi göz yaşında cəmlənir.
Əzabları içə-içə dəmlənir,
Lül dərdini gəlib mənə danışır.

Yeyilənlər bu dişlərdən nə çəkdi,
Dağlananlar bu şişlərdən nə çəkdi,
Gur ocaqlar keşişlərdən nə çəkdi,
Kül dərdini gəlib mənə danışır.

Seçmək olmur nə gerçəyi, nə şəri,
Yaman günə kimlər saldı bəşəri?
Bir arvadın on oynaşı, beş əri,
Boll dərdini gəlib mənə danışır.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan başqa, dövran başqa təbdədi,
Ümidimiz dərmandadı, həbdədi.
Aman Allah, qul bazarı dəbdədi,
Qul dərdini gəlib mənə danışır.

Söyə-söyə ocağını, pirini
Sındırıblar salamatı, dirini.
Əl ağacı vermir əlin yerini,
Şil dərdini gəlib mənə danışır.

Qartal baxar zirvələrdə nəşəyə,
Dağ kəlləri naxış olar meşəyə.
Atdan alıb yükləyiblər eşşəyə,
Gül dərdini gəlib mənə danışır.

Nə olsun ki soyuq-soyuq yel əsir,
İnsan yenə yaşamağa tələsir.
Diz bükülür, baş titrəyir, əl əsir,
Bel dərdini gəlib mənə danışır.

Kənd alışır, şəhər yanır içimdə,
Qəm qovrulur, kədər yanır içimdə.
Kim nə bilsin, nələr yanır içimdə,
Çöl dərdini gəlib mənə danışır.

Dərddi, qəmdi hər tin, döngə, hər dalan,
Nə dərd olsa, mərd daşıyan, mərd alan.
Dərd alanam, dərd alanam, dərd alan,
El dərdini gəlib mənə danışır.

Min pərdəyə, min bir simə danışsın,
Kimi var ki, getsin kimə danışsın?
Dilə gəlib yolsuzların əlindən,
Yol dərdini gəlib mənə danışır.
Az dərdini özgələrlə bölüşən
Bol dərdini gəlib mənə danışır.

*25 sentyabr 2000*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QALASIYAM

*Borçalı oğullarının dilindən*

Yağlı loğma saymasın heç kəs məni dünyada,
Nə quşa yem olası, nə qurda qalasıyam!
Gözlərimin nurudu doğulduğum bu torpaq,
Nur məndə qalasıdı, mən nurda qalasıyam!

Ey anamın göz yaşı, ey atamın başdaşı,
Ey mənim dağlarımın qəmdən çatılan qaşı,
Dar ayaqda dayanıb sizin ilə yanaşı,
Bu elə, bu obaya, bu yurda qalasıyam!

Onsuz mənim ömrümün yaşılı, alı yoxdur,
Onsuz mənim bəxtimin atı var, nalı yoxdur.
Borçalıdan savayı ayrı Borçalı yoxdur,
Dünya köç-köç olsa da, mən burda qalasıyam!

## DÖZMÜRƏM BU DAĞIN YIXILMAĞINA

Bu dağ özülündən aşmamalıydı,
Bu dağ öz fikrində çaşmamalıydı.
Başını başlara qoşmamalıydı,
Dözmürəm bu dağın yıxılmağına.

Topəni özümə dərd eləməzdim,
Heyrətdən gözümü dörd eləməzdim.
Vallah, yıxılanı pərt eləməzdim,
Dözmürəm bu dağın yıxılmağına.

Gülünün neməti, həyası qaçıb,
Halal nemətinin mayası qaçıb.
Kökü silkələnib, qayası qaçıb,
Dözmürəm bu dağın yıxılmağına.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yadımda dəhşətli bircə an qalıb,
Ondan nə nişanə, nə ad-san qalıb.
Hələ də yerində toz-duman qalıb,
Dözmürəm bu dağın yıxılmağına.

Zümrüd bulaqların şüşəsi getdi,
Palıdı qırıldı, meşəsi getdi.
Bütün canlıların nəşəsi getdi,
Dözmürəm bu dağın yıxılmağına.

Dağlar yıxıldıqca ruhumuz ölür,
Mehimiz can verir, şehimiz ölür.
Təbiət adlanan şahımız ölür,
Dözmürəm bu dağın yıxılmağına.

Bu dağ sinəmdəki Vətən dağıdı,
Ruh dağı, can dağı, bədən dağıdı.
Dərd mənim ruhumu nədən dağıdır?
Dözmürəm bu dağın yıxılmağına.

Qırılar qanadı eşqin, həvəsin,
Tükənər sevinci ruhun, nəfəsin.
İlahi! Dağını yıxma heç kəsin,
Dözmürəm bu dağın yıxılmağına.

*21 yanvar 2002*

## NECƏ BARIŞDIRIM KÜSƏNLƏRİ MƏN

Biri taleyindən, baxtından küsür,
Biri zamanından, vaxtından küsür.
Biri Allahının ögeyliyindən,
Biri öz şahının taxtından küsür,
Necə barışdırım küsənləri mən?

Biri boynundakı kəndirdən küsür,
Biri qolundakı zəncirdən küsür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birinin ürəyi şüşətək sınır,
Biri bircə kəlmə təhqirdən küsür,
Necə barışdırım küsənləri mən?

Göz qəmli, can üzgün, könül pərişan,
Doğmayla barışmır yadla barışan.
Şeytan öz işində, öz əməlində,
Gülür qarışdıran, sınır qarışan,
Necə barışdırım küsənləri mən?

Biri bəndə düşür, biri bərəyə,
Biri dağa baxır, biri dərəyə.
Kor olmuş gözlərim baxsın, neyləsin
Ürək bulandıran bu mənzərəyə?
Necə barışdırım küsənləri mən?
Çırağı narazı, şamı narazı,
Sarayı narazı, damı narazı.
Bir razı qalana rast gəlmədim mən,
Dağılmış dünyadan hamı narazı
Necə barışdırım küsənləri mən?

Ahım Ağrıdağm başına çatır,
Gücüm gözlərimin yaşına çatır.
Ömrüm altımışa çatır, ha çatır,
Yaşım peyğəmbərin yaşına çatır,
Necə barışdırım küsənləri mən?
Ozanı, dədəni, ulunu göstər,
Bizi barışdıran qulunu göstər.
Necə barışdıraq, necə barışaq,
İlahi, gəl, bizə özün kömək ol,
Bizə barışmağın yolunu göstər,
Necə barışdırım küsənləri mən?
Necə barışdırım küsənləri mən?

*3 aprel 2002*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SƏNDƏN DİLİ BİLƏN OLMAZ

"Nur" sözündən nurlanmasan,
"Qor" sözündən qorlanmasan,
"Bar" sözündən barlanmasan,
Səndən dili bilən olmaz.

Ruhunda "Heyratı" yoxsa,
Eşqin min bir qatı yoxsa,
Dilində bayatı yoxsa,
Səndən dili bilən olmaz.

Sözün yolu, izi nədir,
Sehrləyən bizi nədir?
Bilməsən ki, xəzinədir,
Səndən dili bilən olmaz.

Dərd duymasan, ah bilməsən,
Öz dilini şah bilməsən,
Ananı Allah bilməsən,
Səndən dili bilən olmaz.

Qanında bir səylik varsa,
Canında bir keylik varsa,
Ruhunda ögeylik varsa,
Səndən dili bilən olmaz.

Nə bir qəlbin alovusan,
Nə bir çaxmağın qovusan.
Özgə dillərin ovusan,
Səndən dili bilən olmaz.

Bir qəlbin min gülüstanı,
Bir ömrün neçə dastanı.
Duymasan "Şəbi-hicran"ı,*
Səndən dili bilən olmaz.

---

*Füzulinin məşhur qəzəlinə işarədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, Sabirin rübabıdı,
O, Cəlilin əzabıdı.
O, "Anamın kitabı"dı*
Səndən dili bilən olmaz.

Yada doğma, yaxına yad,
Dilim səndən dad çəkər, dad.
Yatmısan, ey dadi-bidad,
Səndən dili bilən olmaz.

## GÜNAHLAR YUYULMAZ GÖZ YAŞLARIYLA

Günahlar yuyulmaz göz yaşlarıyla,
Sanma su günahı yuyub aparır.
Hər kəs öz suçunu, öz günahını,
Qara tabutuna qoyub aparır.

Qəlbi də qanadar, ələ də batar,
Qara tikan kimi bitər günahlar.
Yıxıb yanı istə çox oğulları,
Üzrü günahlardan betər günahlar.

Bir köntöy baxışla, bir acı sözlə
Qabarır, çəkilir, dikəlir günah.
Əjdaha ağzından özünü gözlə,
Nifrət yeyə-yeyə kökəlir günah.

Çox gözlər aldanıb göz yaşlarına,
Aldadan sevinib, aldanan yatıb.
Şübhələr, yalanlar burulğanında,
Nə qədər insanlar qərq olub, batıb.

Yumaz göz yaşların günahlarını,
Ümid bir damladan asılı qalar.

---

*C.Məmmədquluzadənin "Anamın kitabı" əsərinə işarədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecikən barışıq xəcalət olub,
Yetimtək bir küncə qısılı qalar.

Daha göz yaşına ümid bağlama,
Deyirlər, qozbeli qəbir düzəldər.
Deyirlər, Allahın səbri böyükdür,
Düzəltsə, bu işi səbir düzəldər.

**QƏBİRQAZAN**

Necə də həvəslə girişib işə,
Elə bil ev tikib, saray ucaldır.
Onun nə günahı, neyləsin, Allah!
Bütün komalardan, kaşanələrdən
Ah-nalə qarışıq haray ucaldır.

İşi yaxşı gedir qəbirqazanın,
Ayağı yeriyir, əli gətirir.
Dirilər üzüldü qəm daşımaqdan,
Hər gün qəbiristana ölü gətirir.

Ölü adiləşir onun gözündə,
Allah bəndəsidir, kim olur-olsun.
Ya səsi içində batan bir nəfər,
Ya haqqın səsidir, kim olur olsun.

Ölüb gedənləri insan oğlu yox,
Dəyirman ağzından çıxan ah bilir.
Daş harda, qum harda, kərpic hardadı,
Hər şeyin yerini əzbərdən bilir.

Alın yazısını Tanrıdır yazan,
İşin daşdan çıxır, dəmirdən çıxır.
Qaz bu qəbirləri, ay qəbirqazan,
Sənin də çörəyin qəbirdən çıxır...

*2 aprel 2001*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÜZ GƏLİB, DÜZ GEDƏN ADAM

Göyə baxmır ulduz görə,
Yerə baxmır çiçək görə.
Dönüb xalqa baxırmı ki,
Gözü bir ağsaqqal seçə,
Ya da bir ağbirçək göro,
Düz gəlib, düz gedən adam.

Duruş saxta, görüş saxta,
Yeriyir, saxta yeriyir.
Təkəbbürü beş-on addım,
Ondan qabaqda yeriyir.
Elə bil ki, adam deyil,
Adamların arasında
Sıyrılmış taxta yeriyir,
Düz gəlib, duz gedən adam.

Tökülən yaşa biganə,
Atılan daşa biganə.
Ağrı bilməz, acı bilməz,
Qardaş bilməz, bacı bilməz
Düz gəlib, düz gedən adam.

Əldən tutmaz, ələ gəlməz,
Əli ancaq cibindədi.
Sanki qəlbi sinədə yox,
Quyuların dibindədi.
Bütün dünya təbdən çıxa,
Yenə də öz təbindədi
Düz gəlib, düz gedən adam.

Nə könlündə bir şairin
Könül açan şeri qaldı.
Nə gözündə bir rəssamın
Göz oxşayan seyri qaldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zahirdə düz yerisə də,
İçəridən əyri qaldı
Düz gəlib, düz gedən adam.

*23 yanvar 2002*

**LAYLA, XOCALIM, LAYLA**

Duz basdılar yarana,
Layla, Xocalım, layla.
Düşdün gülləbarana,
Layla, Xocalım layla.

Namərdi kim çağırdı?
Göydən ölüm yağırdı.
Dilnən demək ağırdı,
Layla, Xocalım layla.

Daş üstə daşmı qaldı,
Salamat başmı qaldı,
Gözümdə yaşmı qaldı,
Layla, Xocalım layla.

Qaçdı Novruzun tamı,
Kimdi yandıran şamı?
Yas elədin bayramı,
Layla, Xocalım layla.

Dərdin kimi acı yox,
Ağrı var, əlacı yox.
Ağlamağa bacı yox,
Layla, Xocalım layla.

Hisdi, pasdı, qurumdu,
Tüstü burum-burumdu.
Hər tərəf uçurumdu
Layla, Xocalım layla.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu torpağın canısan,
Selə dönmüş qanısan.
Sən kimin qurbanısan?
Layla, Xocalım, layla.

Xocasan, xocan hanı?
Cavansan, qocan hanı?
Tüstülü bacan hanı?
Layla, Xocalım, layla.

Çıxmağa yol olmadı,
Qucmağa qol olmadı.
Üzməyə sal qalmadı,
Layla, Xocalım, layla.

Məndən küsdü soyadım,
Namərd olsun qoy adım.
Səni necə oyadım?
Layla, Xocalım, layla.

Kədər düşdü payına,
Səndən çətin yayına.
Hay vermədik hayına,
Layla, Xocalım, Layla.

Yara sarıyan hanı?
Haqdan yarıyan hanı?
Yurdu qoruyan hanı?
Layla, Xocalım, layla.

Şuşanın ətəyi qan,
Balı qan, pətəyi qan.
Düşmənin kötəyi qan,
Layla, Xocalım, layla.

İtən çənim olaydı,
Bitən dənim olaydı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vətən mənim olaydı,
Layla, Xocalım, layla.

Yatan çətin ayıla,
Çətin adam sayıla.
Heyif Şah İsmayıla,
Layla, Xocalım, layla.

Dünya darmı görəsən?
Qulaq karmı görəsən?
Allah varmı görəsən?
Layla, Xocalım, layla.

**BU GECƏ YUXUMA GİRMİŞDİ ŞUŞA**

Bu gecə yuxuma girmişdi Şuşa,
Cabbar ağlayırdı, Xan ağlayırdı.
Dönmüşdü qanadı qırılmış quşa,
Qarabağ başabaş qan ağlayırdı.

Uzadıb əlini Bakıya sarı,
Batdıqca günaha batın, - deyirdi.
- Vətən xainləri, yurd satqınları,
Satın, Qarabağı satın, - deyirdi.

Canında od vardı, istilənirdi,
Şuşanın dağları çəkirdi ahı.
Seyidin qəlyanı tüstülənirdi,
Zülfü oxuyurdu "Yetim segah"ı.

Bu gecə yuxuma girmişdi Şuşa,
Pənah xan qəzəbdən tir-tir əsirdi.
Şuşanı satanlar verib baş-başa,
Şəhərin üstündə qiymət kəsirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Od tutub yanırdı Vaqifin goru,
Natəvan ah çəkib, ağı deyirdi.
Usta toxunmuşdu hiylənin toru,
Hələ ki sözünü yağı deyirdi.

Vidadi Qazaxda qalxıb məzardan,
Gəlirdi Vaqifin qəbrinə sarı.
Qurtarın! - deyirdi millәti dardan,
Qurtarın! - deyirdi bu torpaqları.

Gözündə yaş gördüm, yanağında nəm,
Cıdır düzündəki "Xarı bülbül"ün.
Dərdin sinəsində dağlandı sinəm,
Didərgin olmuşdu yarı bülbülün.

Ocaq yerlərində qalanırdı kül,
İsa bulağından qan fışqırırdı.
Susmuşdu Üzeyir, susmuşdu Bülbül,
Düşmən "mənəm" deyib, boğaz cırırdı.

Bu gecə yuxuma girmişdi Şuşa,
Cabbar ağlayırdı, Xan ağlayırdı.
Dönmüşdü qanadı qırılmış quşa,
Qarabağ başabaş qan ağlayırdı...

**KƏLBƏCƏRDƏN**
**GƏLƏN QARI**

Ərişindən, arğacından,
Sürüsündən, arxacından,
Meşəsindən, ağacından
                    ayrı düşən,
Allı-güllü alçasından,
Lilparından, dolçasından,
Hanasından, xalçasından
                    ayrı düşən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Barını yellər aparan,
Baxtını sellər aparan,
Qazancını-irəncini
Fitnələr, fellər aparan,
Canı üzgün, rəngi sarı –
Kəlbəcərdən gələn qarı.

Üzündə rüzgarın nəmi,
Gözündə dünyanın qəmi,
Kürəyində əsrin yükü,
Ürəyində dərdin kökü,
Çiynində evi, şələsi,
Beynində topların səsi,
Tökülən gözünün yaşı,
Sökülən bağrının başı,
Canında qışın sazağı,
Saçında dağların qarı,
Bir yuvanın uçan quşu –
Kəlbəcərdən gələn qarı.

Təzəsi, köhnəsi gedən,
Çörəyi, təhnəsi gedən,
Arxının suyu dağılan,
Sökülüb dəhnəsi gedən,
Bir zamanlar çox sevdiyi
Dünyadan zəhləsi gedən,
Pətəyindən ayrı düşüb,
Səs-səmirsiz ölən an –
Kəlbəcərdən gələn qarı.

Dan atmamış yerdən durub,
Günəşdən tez doğasıydı.
Buzovunu əmizdirib
İnəyini sağasıydı.
Bişirməyin, düşürməyin
Dilbiləni, anasıydı.
Sərnici dolub-boşalıb,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nehrəsi çalxanasıydı.
Ondan ötrü bülbüllərin
Yuvasını hardan alım?
Ondan ötrü Kəlbəcərin
Havasını hardan alım?
Bağbanına güllə dəymiş,
Bir bağçanın solan barı –
Kəlbəcərdən gələn qarı.
Dağ-dağ olmuş dağımdımı,
Talan olmuş binəmdimi?
Zülüm çəkmiş başımdımı,
Yaralanmış sinəmdimi?
Oğlu ölmüş anadımı,
Yurdu itmiş nənədimi?
Birdən-birə dərəsi düz,
Dağı dönüb aran olan,
Eşqi sönən, çarxı dönən,
Od-ocağı viran olan,
Qapısına-bacasına,
Məhləsinə qırğın düşən,
Qaçaqaçda, qovhaqovda
Tor-top olub yorğun düşən,
Dərdin dostu, qəmin yarı –
Kəlbəcərdən gələn qarı.
Yanğın düşən bir meşədi,
Boyun bükən bənövşədi.
Qəlbi qara daşa dəyib
Pul-pul olan bir şüşədi.
Bəxti düyünə düşəndə
Ağlamaq da bir peşədi.
İlin, günün bu vaxtında
Onu belə duran görsə,
Şəmşir ağlar zarı-zarı
Saz üstündə qan-yaş tökər
Kəlbəcərdən gələn qarı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömrümüzdən ömür kəsən
O qarının baxışı da,
Baxışdakı buludu da,
Buluddakı yağışı da,
Onu yurda qaytarmağa
Qeyrət gəzir, ağıl gəzir.
Onu yurda qaytarmağa
Bir xilaskar oğul gəzir.
Onu yurda qaytarmasaq,
O qarının baxışları
Üzümüzə dəyən şillə!
Başımıza enən qapaz,
Gözümüzə dəyən güllə!
Daha bəsdi durmağımız,
Daha bəsdi yatmağımız.
Daha bəsdi bu millətin
Günahına batmağımız,
Gəlin, bir az silkələnək!
Gəlin, bir az heyrətlənək!
Gəlin, bir az qeyrətlənək!
Əlimizi yalın görüb,
Tüpürməsin bizə, barı –
Kəlbəcərə qayıdanda
Öpsün bizim alnımızdan,
Kəlbəcərdən gələn qan!!!

## DÜNYA, DƏRDİN ÇƏKİLƏSİ DƏRD DEYİL

Yüngül olsa öhdəsindən gələrdim,
Dünya, dərdin çəkiləsi dərd deyil.
Təkbaşına çəkə-çəkə ölərdim,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Polad sındı, dəmir yandı, mum oldu,
Sal qayalar toza döndü, qum oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sarayların yeri qara şum oldu,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Çaqqalların uladıqca uladı,
Tülkülərin quyruğunu buladı.
Pələng öldü, pişik meydan suladı,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Qara əllər sinəmizə köz basır,
Bəd əməllər yaramıza duz basır.
Yüz daldala, yüz malala, yüz basır,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Can yandıran odlu ahdan qorxuram,
Qanlar tökən hər silahdan qorxuram.
Həm bəndədən, həm Allahdan qorxuram,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Dinsiz olub insaflılar, dinlilər,
Qılınc çəkir qəzəblilər, kinlilər.
Cin atına yaman minib cinlilər,
Dünya, dərdin çəkiləsi dərd deyil.

Çirkaba bax, palçığa bax, lilə bax,
Lil içində yatıb qalan filə bax.
"Bizimki də qara gəldi belə, bax",*
Dünya, dərdin çəkiləsi dərd deyil.

## TORPAQ KİMİ

Təbiətin min nəğməli səsiyəm,
Bulaq eşqim, çay həsrətim, göl məzəm.
Demək, hələ yer üzündə rufan var,
Nə zaman ki danışmazam, dinməzəm.

*"Əsli-Kərəm" dastanından



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Toya, yasa, dərdə, kefə gəlmişəm,
Bir şərəfdi, bu şərəfə gəlmişəm.
Mən dünyaya bircə dəfə gəlmişəm,
Daha bir də gəlməzəm ki, gəlməzəm.

Çiçək oldum, çəmənimi böldülər,
İnsan oldum, bədənimi böldülər.
Çox da mənim Vətənimi böldülər,
Mən özümü bölməzəm ki, bölməzəm.

Nələr salır ömür yada, gün yada,
Bizlə enir, bizlə qalxır dünya da.
Dağlar kimi ucaldımsa dünyada,
Torpaq kimi ölməzəm ki, ölməzəm!

**DÜNYA**

Vaxtında uzadıb kömək əlini,
Vermədin mənimlə əl-ələ, dünya!
Nəyimə gərəkdi vaxtı keçəndə,
Göydən qızıl yağdır, ləl ələ, dünya!

Acı yel üstümdən əsdikcə əsdi,
Yağan qar yolumu bağladı, kəsdi.
Gəl, məni bu qədər yandırma, bəsdi,
Mən ki nə Kərəməm, nə Lələ, dünya!

Yolsuz yoxuşlarda yordum dizləri,
Ahımla qurutdum göy dənizləri.
Qaldı kürəyimdə kəndir izləri,
Dərdi dərd üstündən şələlə, dünya!

Aşılmaz dağları mən necə aşım,
Zəlimxan, fikirdən çatılıb qaşım.
O sənin daşındı, bu mənim başım,
Nə qədər istəsən, gəl, ələ, dünya!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**TƏBRİZDƏN AYRILANDA**

Ayrılıq anları gəldi, yetişdi,
Vaxtı zərrə-zərrə böl, ay Zəlimxan!
Çox qala bilməzsən bu şəhərdə sən,
Göz yaşın olsa da göl, ay Zəlimxan!

Mən kimə yalvarım, kimə diz çöküm,
Sərhədi nə qədər dağıdım, söküm?
Başıma haranın daşını töküm,
Nə qədər bağlanar yol, ay Zəlimxan?!

Hicran sinən üstə çökər qış kimi,
Göynədər qəlbini buz baxış kimi.
Yaman qaralmısan, yağ yağış kimi,
Qara bulud kimi dol, ay Zəlimxan!

Qoyur sapandına, daş kimi atır,
Tale insanları talayır, çatır.
Elə bil dünyanın bir yanı batır,
Əldən üzüləndə əl, ay Zəlimxan!

Sevinc yanımızdan sallanıb ötər,
Yandıq Füzulidən, Sabirdən betər.
Min ildən sonra da hamıya yetər,
Boldu həsrətimiz, bol, ay Zəlimxan!

Vaxt çatır, zamanın səbri daralır,
Gedənin gözündə dünya qaralır.
Ayrılıq gələndə solur, saralır,
Çəmən, ay Zəlimxan, çöl, ay Zəlimxan!

Yenə gözündə yaş, qəlbində kədər,
Gəlişin hədərmiş, gedişin hədər.
Sənin ki dərdin var bir Təbriz qədər,
Niyə yaşayırsan, öl, ay Zəlimxan!

*Təbriz, iyul,1992*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**İLAHİ**

Bir millətdi, bir torpaqdı, bir Vətən,
O tay nədir, bu tay nədir, İlahi!
Hər tərəfə pay veriblər həsrəti,
O pay nədir, bu pay nədir, İlahi!

Eyni bağdı, eyni bağça, eyni bar,
Eyni sazdı, eyni kaman, eyni tar.
Ortalıqda dəmir hasar, lay divar,
O lay nədir, bu lay nədir, İlahi!

Üstümüzdən acı yeltək əsən kim?
Kəsilən biz, kəsdirən kim, kəsən kim?
Aman, qardaş, de, mən kiməm, de, sən kim?
O hay nədir, bu hay nədir, İlahi!

Millətə bax, dəmir tordan boylanır,
Diri evdən, ölü gordan boylanır.
Yeddi burdan, yetmiş ordan boylanır,
O say nədir, bu say nədir, İlahi?!

Hansı başdı, hansı bədən, bilinməz,
Paralansa, varmı Vətən, bilinməz.
Orda ölən, burda itən bilinməz,
O vay nədir, bu vay nədir, İlahi!

Bay olmasın, qarı düşmən bay oldu,
Çox ömürlər nisgillərə pay oldu.
İki yanda göz yaşımız çay oldu,
O çay nədir, bu çay nədir, İlahi!

Bu söhbəti ortalığa kim salıb?
Bu həsrəti ortalığa kim salıb?
Bu zilləti ortalığa kim salıb?
O tay nədir, bu tay nədir,
İlahi! O dərd nədir, bu vay nədir, İlahi!

*Təbriz, iyul, 1992*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BAKIDAN GƏLMİŞƏM, ŞƏHRİYAR BABAM**

Üzünü heç zaman görəmmədiyin,
Bircə çiçəyini dərəmmədiyin,
Qoşa qapısından girəmmədiyin
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

İllərlə qovrula-qovrula qaldın,
Aylarla qıvrıla-qıvrıla qaldın,
Bakının üzünü görə bilmədin.
Bakıdan gəlmişəm,

Şəhriyar babam!

Kəlbəcər nəfəsli Göyçə diləkli,
Naxçıvan qeyrətli, Gəncə ürəkli,
Borçalı ətirli, Xəzər havalı,
Qarabağ nisgilli, Şuşa davalı
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Özümüz çatmadıq səs çatan yerə,
Nur gələn, Ay doğan, Gün batan yerə.
Bu gün baş qoymuşam sən yatan yerə,
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Vurğun məzarıyam, Sabir qəbriyəm,
Cavid dözümüyəm, Cavad səbriyom.
Ana ağısıyam, şəhid qanıyam,
Ağrılı fikirlər burulğanıyam!
Bizim başımızı yaman qatdılar,
Bizi zaman-zaman çox aldatdılar.
Vaxtında hayma çata bilmədik,
Toyuna, vayına çata bilmədik.
Əzrayıl yollarda gecikəydi kaş,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səni əlimizdən aparmayaydı!
Şəhriyar ölümü Azərbaycanın
Başında tufanlar qoparmayaydı!
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Gecikən gəlişin, gedişin ağır.
Üzdən dərd tökülür, gözdən qəm yağır.
Ayıran zalımdı, ayrılan fağır,
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Sevinclə gəlmişdim bura gələndə,
Gedirəm, özümlə dərd aparıram.
İçərim doludu ağrı-acıyla,
Ay ustad, belə də ölüm olarmı?
Ay ustad, belə də zülüm olarmnı?
Min yol torpağından öpmək yerinə
Bircə yol üzündən öpə biləydim!
Qəbrinə göz yaşı səpmək yerinə
Başına gül-çiçək səpə biləydim!
Bax, onda deyərdim indi mən mənəm!
Bütün ölümlərə meydan oxuyub,
Bütün ölüləri dirildən mənəm!
Gör bir nə gündəyəm, bu görüşə də
Şükür söyləyirəm, şükür deyirəm.
Açır qanadını görüş dəmləri,
Həsrət dizlərini bükür deyirəm.
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Dərin dərələrə torpaq doldurub,
Qayalı dağları düz eləmişəm.
Tikanlı məftillər əritmək üçün
İsti nəfəsimi köz eləmişəm.
Tilsimlər sındırıb, qıfıllar açıb
Polad dirəkləri mum eləmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yolumda dikələn daşları belə
Əzib tikə-tikə qum eləmişəm.
Qəzəbim yığılıb yumruqlarıma,
Dilimi dişimə sıxıb gəlmişəm.
Min ilə bərabər yüz səksən illik
Bir həsrət dağını yıxıb gəlmişəm.
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Ağsaçlı Şəhriyar qulluğundadı,
Saçları qapqara şəvə Zəlimxan!
Bu gün səcdədədir, ziyarətdədir,
Baba Şəhriyarı nəvə Zəlimxan!
Bakıdan gəlmişəm,
Şəhriyar babam!

Bakıdan gəlmişəm,
Şəhriyar babam!!!

*Təbriz, avqust, 1992*

**İTKİ-QAZANC**

Səsi qulaqdan itirdik,
Sözü dodaqdan itirdik.
Suyu bulaqdan itirdik,
Közü ocaqdan itirdik.
Gəldik itirə-itirə,
Bir az Vətəndən itirdik,
Bir az torpaqdan itirdik.
Gözümüzü açıb gördük
Qəzəb, nifrət qazanmışıq.
Bir-birimizi yemək üçün,
Kin-küdurət qazanmışıq.
Həm köləlik, təslimçilik,
Həm əsarət qazanmışıq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yarı illət, yarı zillət,
Yarı töhmət qazanmışıq.
Xəstə sevgi, ölü həsrət,
Yetim millət qazanmışıq.

**XOCALIM, AY XOCALIM**

Bu dağların qoynunda yaşıl bir kənd varıydı,
Əlvan saray, güllü bağ, gen aynabənd varıydı.
Neçə dodağı şəkər, söhbəti qənd varıydı,
Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.
Yoxdu daha, nağıldı,
İtdi, batdı, dağıldı.

Mənim şirin qafiyəm, mənim üççə hecalım,
Xocalım, ay Xocalım!

Ağzından alov saçan silahlar yedi səni,
İştahalar, nəfslər, tamahlar yedi səni.
Bağışlanmaz, yuyulmaz günahlar yedi səni,
Göydə Allahı danan "allah"lar yedi səni,
Heç Allah götürərmi qisasımı gec alım?
Xocalım, ay Xocalım!

Neçə ki yer üzündə yamanlar, pislər yaşar,
İçi dolu qurd olan nankor xəbislər yaşar,
Dumanlı beyinlərdə dumanlı hisslər yaşar,
Neçə ki bu şeytanlar, cinlər, iblislər yaşar,
Gərək hər gün, hər saat yağılardan öc alım,
Xocalım, ay Xocalım!

Quruyub cadar olmuş dodaqlara nə deyim?
Kəsilmiş biləklərə, barmaqlara nə deyim?
Qar içində buz olmuş ayaqlara nə deyim?
Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?
Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,
Xocahm, ay Xocalım!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə möcüze göstərim, nə cürə imkan tapım,
Qan itirən kəslərin damarına qan tapım?
Hansı yolu seçim ki, dərdinə dərman tapım,
Amansız cəmiyyətdə sənə nə aman tapım?
Millətəmi güvənim, torpaqdanmı güc alım?
Xocalım, ay Xocalım!

Sənə yas verənlərə yas dalınca yas gərək,
İgidlərim öyməli, oğullarım xas gərək.
Dəmirdən geyim gərək, poladdan libas gərək,
Ölümə ölüm gərək, qisasa qisas gərək,
Gərək səndən ötəri qala yıxım, bürc alım,
Xocalım, ay Xocalım!

Həyat şirin, yol çətin, ölüm ucuz, can baha,
Baş qaldırıb ağrılar, dözmür ürəklər daha.
Təslim olmaq yaraşmaz bu gün ağrıya, aha,
Yalvarmaq istəyirəm peyğəmbərə, Allaha,
Haqqımı qaytarmağa bir ömür də borc alım,
Xocalım, ay Xocalım!

Töküldülər üstünə quduz kimi, ac kimi,
Şumladılar yer kimi, qırdılar ağac kimi,
Dağıtdılar çöllərə əsir, yalavac kimi.
Səni qaldırammasam başım üstə tac kimi,
Tarixin yaddaşında çətin qalxım, ucalım,
Xocalım, ay Xocalım!

Bizdən ürək istədin, ürək vermədik sənə,
Bizdən kömək istədin, kömək vermədik sənə,
Bizdən qanad istədin, lələk vermədik sənə.
Aylarla su vermədik, çörək vermədik sənə,
Buraxdıq özbaşına əlimizdən cənnəti,
Sənsiz nəyimə gərək Məkkə görüm, Hac alım,
Xocalım, ay Xocalım!

Təzədən yandı xallar muğamın nəvasında,
Bayquşlar ötür bu gün bülbülün yuvasında.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biqeyrət oğulların şan-şöhrət havasında,
Kəmfürsət övladların vəzifə davasında,
Harayına çatmağa tapılmadı macalım,
Xocalım, ay Xocalım!

Yerbəyer eləməmiş sevincimi, dərdimi,
Bir-birindən seçməmiş mərdimi, namərdimi,
Əjdahalar əlindən qurtarmamış yurdumu.
Tanrının qırmancına döndərməmiş ordumu.
Qoy gəlməsin ölümüm, qoy çatmasın əcəlim,
Xocalım, ay Xocalım!
XOCALIM, ay XOCALIM!!!

*31 yanvar 1997*

## DƏRD

Hər çiyin tab gətirməz,
Ağır yükdü dərd daşı.
Daşıyırsan həyatda
Kişi kimi dərd daşı.

Enər gözə çən kimi,
Düşər saça dən kimi.
Damla daş dələn kimi,
Dəlib deşər dərd daşı.

Əzər-tikər, qum eylər,
Kotan çəkər, şum eylər.
Dərd əridər, mum eylər
Sərt qayanı, sərt daşı.

Mərd yaşamaq gərəkdi.
Sərt yaşamaq gərəkdi.
Dərd daşımaq gərəkdi,
Möhkəm dayan, mərd daşı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## CANIMIZ

Ömür-gün səhrasında,
Səfil olan canımız.
Qəzası, müsibəti
Qəfil olan canımız,

Həyat bir udum nəfəs,
Dünya beş günlük həvəs.
Hər yanı zindan, qəfəs,
Qıfıl olan canımız.

Enib dərdin şəhrinə,
Düşüb qəmin qəhrinə.
Sehrbazlar sehrinə
Tifil olan canımız.

Ölüm ahıl, biz çağa,
Boğaz yemdi bıçağa.
Axır beş arşın ağa
Təhvil olan canımız.

## GÜNAHSIZ GƏLİRİK

Dünyanı min dəfə dağıtmaq olar,
Bu qədər qan tökən silahlar ilə.
Həyatda hər şeylə bacardı insan,
Bacara bilmədi tamahlar ilə.

Gedir insan oğlu, yolu çaş gedir,
Üzdən qan süzülür, gözdən yaş gedir.
Bu torpaq üstündə hey savaş gedir,
Dil tapa bilmirik timsahlar ilə.

Zamanın ovcunda mum olur qaya,
Qum olub dağılır çeşməyə, çaya.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günahsız gəlirik qoca dünyaya,
Dünyadan gedirik günahlar ilə.

Kimdi fikir verən amana, aha,
Ölüm ucuz olub, yaşamaq baha.
Allahın özü də bacarmır daha
Özü yaratdığı "allahlar" ilə.

## BAZAR YOLU

Bir məzar yoludu bu bazar yolu,
Yoxsullar bu yolla ölümə gedir.
Cibi boş, ürəyi dərd ilə dolu,
Alverə getmir ki, zülümə gedir.

İnsandı, onun da nəfsi, tamahı,
İnsandı, onun da iştahası var.
Yerdə arxası yox, göydə pənahı
Elə yeriyir ki, sanki yası var.

Evinə qayıdır əl boş, üz qara,
Nisgildən, ağrıdan, azardan gəlir.
Könül tikə-tikə, can para-para,
Xortdamış ölüdü, məzardan gəlir.

## KÖNÜLSÜZ DƏRVİŞ

Yoxsul bir həsirdi, bir Məmmədnəsir,
Nə atı, nə də ki, arabası var.
Könülsüz dərvişdi düşər yollara,
Bir dəmir çarığı, bir əbası var.

Allahım, mən deyim kimə bağışla,
Bağışla, hər bəxti kəmə bağışla.
Bədbəxtə bir uçuq kümə bağışla,
Desinlər onun da xarabası var!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NARAZI**

Neyləsin boz səhrada, dəvəsi ölmüş ərəb?
Kimi ölmüş dəvədən, kimi atdan narazı.
Biri gözündə nisgil, biri gözündə giley,
Tərs gələn, bəd gətirən bir saatdan narazı.
Fələklərə ol açan yetişmir muradına,
Olur göy üzündəki yeddi qatdan narazı.
Fikri üst-üstə düşmür oğul ilə atanın,
Zat əsildən narazı, əsil zatdan narazı.
Dözə bilmir zamanın zərbəsinə, zülmünə,
Çat ürəkdən narazı, ürək çatdan narazı.
Barmaq ilə sayılır Allahından razılar,
Hamı bir nəfər kimi bu həyatdan narazı!

**İTİRDİYİM "DOST"A ƏRMƏĞAN**

Yoxsulluq əlindən göz açmayaydım,
Kasıb doğulaydım, kasıb öləydim.
Gəlməsə, Allahın ucuz ölümü
Qeyrət damarını kəsib öləydim,
Kaş sənə həyatda rast gəlməyəydim!

Heç nəyi zamandan gizlətmək olmur,
Vaxtın üzü belə, astarı belə.
Çəkir imtahana salır sınağa
Bax, bclə tanıdır dostları, belə!

Un kimi, dən kimi dost da, düşmən də,
Ələnir xəlbirdən, keçir ələkdən.
Həqiqi məhəbbət, həqiqi sevgi
Beləcə ayrılır küydən, kələkdən.

Mən haqqı tanıyan adamam, qardaş,
Yersiz nə küyüm var, nə kələyim var.
Zamanı gələndə, vaxtı çatanda,
Mənim öz şadaram, öz ələyim var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən şeytan yoluyla qazandığını
Mən Allah yoluyla çoxdan almışam.
Boynumda heç kəsin minnəti yoxdur,
Mənə nə verilib, haqdan almışam!

Otuz il əlimdə qələm işlədi,
Varağa bir kəlmə qeybət düşmədi.
Əsdi mən tərəfdən sevda yelləri,
Heç kəsin payına nifrət düşmədi.

Deyərəm Allahın öz işləridi,
Göynəsə ürəyim, sızlasa yaram.
Sənin pisliyinlə enib zirvədən,
Qələmi çirkaba bulaşdırmaram!

Dostluğun sarayı neçə pilləli,
Kim taxta ucaldı, kim endi taxtdan.
Kiminki sevgidi, kiminki tamah,
Qoy Allah ayırsın haqqı nahaqdan.

Mən elə bilirdim sənsən sirdaşım,
Ruhuma doğmasan, könlümə yarsan.
Mən sənə dağlardan nəğmə gətirdim,
Dedim, dağlar kimi uca durarsan!

Ən böyük düşmənsən özün-özünə,
Suçu nə məndə gör, nə də xalqında,
Bir zirvə vermişdi yaradan sənə,
Dayana bilmədin o ucalıqda!!!

**SUÇ MƏNİM**

Aldanmışam sərvətinə dünyanın,
Ömrüm-günüm, yalan mənim, puç mənim.
Nahaq yerə yaxasından yapışdım,
Taqsır mənim, günah mənim, suç mənim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beş-altı gün yas paltarı geyəllər,
Hərdən yaxşı, hərdən yaman deyəllər.
Ehsanımı şirin-şirin yeyəllər,
Qırxa qədər yeddi mənim, üç mənim.

Qələm alsın başdaşımı yazanlar,
Bel götürsün mozarımı qazanlar.
Ay Zəlimxan, ağı desin ozanlar,
Kəfən mənim, karvan mənim, köç mənim

**VAXTSIZ DÖYMƏ QAPIMI**

Yenə nə taqqıltıdı?
Vaxtsız döymə qapımı.
Nə axşamdı, nə sabah,
Vaxtsız döymə qapımı.

Oğul toyu, qız toyu,
Yol gəlir illər boyu.
Yaşamaqdan kim doyu?
Vaxtsız döymə qapımı.

Oğul gözümün ilki,
Ömrün sərvəti, mülkü.
Otuz yeddi deyil ki,
Vaxtsız döymə qapımı.

Polad gördüm əyilmiş,
Dəmir gördüm yeyilmiş.
Ay qapısı döyülmüş,
Vaxtsız döymə qapımı.

Səndə ətək, məndə ol,
Adın amansız əcəl.
Gəlirsən, vaxtında gəl,
Vaxtsız döymə qapımı!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HAQLISAN ŞAİRDƏN GİLEYLƏNMƏYƏ**

Söz güllə, söz mərmi, söz qurşun gərək,
Söz millət, söz ordu, söz qoşun gərək.
Qoruya göyləri yad nəfəsindən,
Burnu qanamaya bir quşun gərək.
Xalqın namusuna göz dikənlərin
Şair cəsarəti, şair qeyrəti
Tökə boğazına qurğuşun gərək.
Göz yaşı, el dərdi, ana fəryadı
Dönməsə qəlbində sızlayan neyə,
Haqlısan, min dəfə haqlısan, anam,
Haqlısan şairdən gileylənməyə.

Bu necə şairdi şəhid olmadı?
Bu necə şairdi əsgər olmadı?
Əlindən torpağın yarısı getdi,
Qocası, cavanı, qarısı getdi.
Sözü çevrilmədi qızıl gülləyə,
Masası çevrilib səngər olmadı.
Yağı tapdağına dönəndə torpaq
Niyə bir çaxnaşma salmadı yerə?
Niyə bir titrətmə salmadı göyə?
Haqlısan şairdən gileylənməyə.

Füzuli sultanım, Xətai şahım,
Nəsimi inadı "mənəm Allah"ım.
Sözün qılıncını saldıq kəsərdən,
İçimi göynətdi amanım, ahım.
Şerin qibləsinə gətirəmmədik,
Kimi səyə üz tutdu, kimi də bəyə.
Haqlısan şairdən gileylənməyə.
Başda qapaz ola, yanaqda şillə,
Dildə xəncər ola, dodaqda güllə.
Sərhəddə dağ ola, torpaqda qaya,
Canda təpər ola, qeyrətdə maya.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tərpədə dünyanı tufan gücündə,
Qabara, çəkilə ümman gücündə.
Söz gərək düşmənin qəddini əyə!
Əyə bilmədisə namərd qəddini,
Haqlısan şairdən gileylənməyə.
Demək, sözümüzdə el gücü yoxmuş,
Demək, səsimizdə sel gücü yoxmuş.
Obalar çökdüsə düşmən önündə,
Demək, dilimizdə fil gücü yoxmuş.
Döyüş meydanına çıxarmaq üçün
Nə pələng var imiş, nə şir var imiş.
Vətənin gözünə kül üfürməyə
Yalançı bir haray, həşir var imiş.
Baqqallar, darğalar daha çox imiş,
Tülkülər, qarğalar daha çox imiş.
Oğlun əsirdisə, günahkar mənəm,
Qızın girovdursa, günahkar mənəm.
Torpağın ən böyük faciəsinə
Gözü kor, beyni küt, qəlbi kar mənəm.
Şair harayına, şair səsinə
Ordular ayağa qalxa bilmədi.
Şair güvənmədi öz imkanına,
Milləti özünə arxa bilmədi.
Bu gün bir millətin yurdu, yuvası,
Olubsa çamırlıq, olubsa deyə,
Haqlısan, min dəfə haqlısan, anam,
Haqlısan, min dəfə haqlısan, atam.
Haqlısan şairdən gileylənməyə,
Haqlısan şeirdən gileylənməyə!

## AĞDAM QARABAĞIN TOY OTAĞIYDI

Hər şirin zəngulə, hər şirin nəfəs,
Yeni bir dünyaydı, təzə bir həvəs.
Arifin içindən gəlirdi bu səs,
Ağdam Qarabağın toy otağıydı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Coşar bəstəçilər, dinər bəstələr,
Nə muğam susardı, nə şikəstələr.
Kəmərə sığmazdı kəmərbəstələr,
Ağdam Qarabağın toy otağıydı.

Qədirin dəryada gəmisi vardı,
Hələ biçilməmiş zəmisi vardı.
Hamı atalıydı, hamı arxalı,
Hamının dayısı, əmisi vardı,
Ağdam Qarabağın toy otağıydı.

Tək-tək yox, coşardı hər adam belə,
Közə çevrilərdi qar adam belə.
Xan qızı dinəndə, Xan oxuyanda,
Saraya dönərdi qara dam belə,
Ağdam Qarabağın toy otağıydı.

Sevənlər dodağa söz əridərdi,
Qızlar oda dönər, buz əridərdi.
Baharın günəşi əritməyəni,
Bircə baxışıyla qız əridərdi,
Ağdam Qarabağın toy otağıydı.

Nə qızıl üzəngi, nə gümüş yəhər,
Nə çapan oğul var, nə qaşqa kəhər.
Yediyi zəhrimar, içdiyi zəhər,
Ağdam Qarabağın yas otağıdı.

Ocağı alışmır, odu görünmür,
Qavalı, kamanı, udu görünmür.
Zeynal yaman küsüb, Xudu görünmür,
Ağdam Qarabağın yas otağıdı.

Yığılın bir səmtə, araya gəlin,
Bir məlhəm axtaraq yaraya, gəlin.
Ay Famil, ay Şahmar, haraya gəlin,
Ağdam Qarabağın yas otağıdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəxt tərsə fırlanan təkərə dönüb,
O boyda məmləkət şikara dönüb.
Şahbulaq şaha yox, nökərə dönüb,
Ağdam Qarabağın yas otağıdı.

Qəlbimə bir qəmli dastan gəlibdi,
Ağrısı düşməndən, dostdan gəlibdi.
Hələ ki bizimki yasdan gəlibdi,
Ağdam Qarabağın yas otağıdı.

Min-min qonağının biri Zəlimxan,
Seçmir öz gözündə tiri Zəlimxan.
Bu ağır həsrətdən utanıb ölmür,
Hələ də diridi, diri Zəlimxan,
Ağdam Qarabağın yas otağıdı.

## OLMAZ

*Tehran cənnətə dönsə*
*Yaddan çıxmaz Qarabağ.*

Gördüyüm hər gözəllik
heyrətə salır məni.
Min qat gözəl olsa da
heyrətdən Vətən olmaz.
Saçına sığal çəkib,
rəğbət bəsləsələr də
Ömrü beş-on gün olar,
rəğbətdən Vətən olmaz.
Allah evi Məkkədə
evimçün darıxmışam,
Evdən-eşikdən ötrü
ürəyimi sıxmışam.
Həsrətin sınağından
dağlar yarıb çıxmışam,
Adında ayrılıq var,
həsrətdən Vətən olmaz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çəkilən ağrı bilər
sızıldayan iç nədir,
Səfərə çıxan bilər
yolda qalan köç nədir.
Adın göylərə çıxsa,
yadlar üçün heç nədir,
Vətəndən şöhrət olar,
şöhrətdən Vətən olmaz.
Çırpınar intizarda,
qəlbin, ruhun qısılar,
Oğul-uşaqdan ötrü
canın göydən asılar,
Adına, taleyinə
qərib möhrü basılar,
Ancaq onda bilərsən
qürbətdən Vətən olmaz.
Dünyanın çəkmədiyi
ağrısı, azarı yox,
Ağrı nə qədər çəkər,
behi yox, bazarı yox.
Qərib yerdə ölənin
yatmağa məzarı yox,
Zülümdən bir yurd-yuva,
zillətdən Vətən olmaz.
Qəriblərin saçında
qırova bax, qara bax,
İnildəyən kamana,
sızıldayan tara bax.
Cəhənnəmə dönsə də,
cənnətimdi Qarabağ,
"Tehran cənnətə dönsə",
cənnətdən Vətən olmaz!!!

*Almaniya, Bilefeld, 8 noyabr 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GECİKMİŞ ETİRAF**

*Dünyanın gözəl yerlərini gördük zor və*
*silah gücünə əlimizdən alınan gözəlliklərin*
*itkisi məni dəhşətə gətirir.*

Arımı yemişəm, ar itirmişəm,
Bir dağam, zirvəmdən qar itirmişəm.
Qarabağ görkəmdə dünya gözəli,
Şuşa yaraşıqda yar itirmişəm.
Öldürün, öldürün, öldürün məni.

Üstə duz səpilmiş yaramdı dünya,
Mənə yas, düşmənə bayramdı dünya.
Tək bircə Kəlbəcər gedibsə əldən,
Mənim kimisinə haramdı dünya.
Öldürün, öldürün, öldürün məni.

Günah işlətmişəm, səhv eləmişəm,
Səhvimlə özümü məhv eləmişəm.
Torpaq unudulub, yurd yaddan çıxıb,
Qaniçən düşməni əfv eləmişəm.
Öldürün, öldürün, öldürün məni.

Qatil sifətinə şilləm olmadı,
Cəllad sinəsinə gülləm olmadı.
Fürsəti boşuna verdim əlimdən,
Ağlım işləmədi, kəlləm olmadı
Öldürün, öldüriin, öldürün məni

Kərəmim ağılsız, Əslim günahkar,
Lələm tərbiyəçim, nəslim günahkar.
Qələbə çalanı bəyənməsək də,
Məğlub günahkardı, təslim günahkar.
Öldürün, öldürün, öldürün məni.

Torpaq itirəni torpaq götürməz,
Ancaq igidlərə yer versin Vətən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ancaq şəhidlərə yer versin Vətən.
Qarabağ dərdinə dərman yoxdusa,
"Qaytarın!" Hökmündə fərman yoxdusa,
Ölmürsə ruhuma qənim olanlar,
Mənim olmadısa mənim olanlar,
Sabahı görməyən gözdədir günah.
Səndədir, məndədir, bizdədir günah
Öldürün, öldürün, öldürün məni.

*İstanbul, 4 noyabr 2004*

**YA RƏBBİM, ÜRƏKDƏ NƏLƏR VAR İMİŞ**

Verilən dərmandı, inləyən mənəm,
Danışan həkimdi, dinləyən mənəm.
Həsrətdən saralmış varaqlar kimi
Dərdi üst-üstünə çinləyən mənəm.
Canımdan tökülən ağrılarımı
Don kimi yığşıran, dənləyən mənəm.
Özümdən xəbərim yox imiş mənim,
Min qəlbə sığmayan kədər var imiş.
Ya Rəbbim, ürəkdə nələr var imiş!
Məni qaya kimi yıxanda gördüm,
Qəlbimin içinə baxanda gördüm,
Ağrı var, azar var, haray var, ün var.
Qubarı qat-qatdı, qabarı çat-çat,
Hər qara nöqtədə bir dağ-düyün var.
Ömür kitabında baş-başa verən
Neçə yaslı gecə, yaralı gün var.
Ulduz parıldamaz, Ay dada gəlməz,
"Günəşi tutulmuş səhər"* var imiş.
Ya Rəbbim, ürəkdə nələr var imiş!

---

*Səməd Vurğunun misrasına işarədir.

Səsi boğazında quruyub qalan,
Yuvası dağılmış quşlar ordadı,
Gözümdən süzülən mində biriymiş,
İçimə tökülən yaşlar ordadı.
İşini görürmüş məndən xəbərsiz,
Üstümə atılan daşlar ordadı.
Qələmlə vurulan səssiz güllələr,
Söz ilə kəsilən başlar ordadı.
Alnıma yazılan qədər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş!
Əsir götürdülər filankəsləri,

Filankəs tapılmır, itdi, bəd xəbər.
Laçın xəyanətə qurban verildi,
Şuşa əlimizdən getdi, bəd xəbər.
Qarabağ neçə yol kömək istədi,
Fürsət yanımızdan ötdü, bəd xəbər.
Murazı gözündə qaldı dostların,
Düşmən murazına yetdi, bəd xəbər.
Qohumdan, qardaşdan, eldən, cəbhədən
Nə qədər bəd gələn xəbər var imiş,
Ya Rəbbim, ürəkdə nələr var imiş!

Şair ürəyinin evini yıxan
Qapısı bağlanmış evdi, eşikdi.
Düşmən çəkməsinin dabanlarında,
Körpəsi çığnanmış səssiz beşikdi.
Səngəri alınmış, əsgəri ölmüş,
Qanlı köynək kimi dəlik-deşikdi.
Təpənin əlində dağ aciz qalıb,
Boğulan pələngdi, boğan pişikdi.
Hər köntöy baxışdan, hər acı sözdən,
Damara işləyən zəhər var imiş.
Ya Rəbbim, ürəkdə nələr var imiş!
Kağız mürəkkəbi götürən kimi,
Ürək də harda var nəmi çəkirmiş.
Bir nəslin, tayfanın, insanın deyil,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyanın çəkdiyi qəmi çəkirmiş.
Dərddən yük bağlayıb, qəmdən yük tutub
Qatar daşıyırmış, gəmi çəkirmiş.
Savabın, günahın tərəzisində
Kimi çəkdirirmiş, kimi çəkirmiş.
İnsanın canında od tutub yanan
Cəhənnəm var imiş, məhşər var imiş.
Ya Rəbbim, ürəkdə nələr var imiş!
Bir az vaxtdan çəkdim, bir az zamandan,
Bir az dağdan çəkdim, bir az dumandan.
Açığı, bir az da özümdən oldu.
Qəlbimə dalbadal dəyən zərbələr,
Hər yasda ağlayan gözümdən oldu.
Susmaq içərimi yıxdı, yömürdü,
Əzabım səbirdən, dözümdən oldu.
Üzünü gör görsün küt ağrıların,
Ürəkdə nə qədər dərd var, azar var,
Mənim ucbatımdan, üzümdən oldu.
Bu qoca dövranın, kaftar dünyanın,
Aşının altında zəhər var imiş.
Ya Rəbbim, ürəkdə nələr var imiş!
Dolu düşüncələr, dəli duyğular,
Qalxıb qabaranda yük ona düşdü.
Havalı dalğalar, sərt qasırğalar
Tufan qoparanda yük ona düşdü.
Min illik palıdı güclü bir tufan,
Çəkib aparanda yük ona düşdü.
Qəfil bir zəlzələ min-min insanın
Bağrını yaranda yük ona düşdü.
Min-bir damar keçir bir parça ətdən,
O qaça bilərmi bu təbiətdən,
Gizlənə bilərmi bu cəmiyyətdən?
Onun hər telində, hər zərrəsində
Hər şeyə ilahi diqqət var imiş,
Hər şeyə ilahi nəzər var imiş.
Ya Rəbbim, ürəkdə nələr var imiş!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənasız suallar, cavablar üçün,
Ürəyə verdiyim əzablar üçün,
Məni yaratdığın dinə bağışla.
Qədir gecəsinə, Kəbə daşına,
Qiblə bildiyimiz yönə bağışla.
Müqəddəs Quranın göydən endiyi,
Bizə bağışlanan günə bağışla.
Xırda günahları özüm çəkərəm,
Böyüksən, adilsən, mərhəməllisən,
Böyük günahları mənə bağışla.
Mən hardan biləydim mənim içimdə
Bu qədər yıxılmış xarabalıqlar,
Bu qədər dağılmış şəhər var imiş.
Ya Rəbbim! Ürəkdə nələr var imiş!
Ya Rəbbim! Ürəkdə nələr var imiş!!!

*Almaniya, Bilefeld, 5 noyabr 2004*

## İLK ANDIMIZ, SON ANDIMIZ TURANDI

Təntiməyin, tələsməyin, çaşmayın
Yerli-yersiz həddinizi aşmayın.
Qazan gəlib qaynamamış daşmayın,
Yoldaşımız səbr, dözüm olacaq,
Bu gün-sabah dünya bizim olacaq.

Vaxt Təbrizin, dünya Ərkin dünyası
Yol Tanrının, haqqı dərkin dünyası.
Əzəl-axır dünya türkün dünyası,
Üç gün, beş gün gecim, tezim olacaq.
Bu gün-sabah dünya bizim olacaq.

Şəhid verin, qurban verin, can verin,
Cansızlara şah damardan qan verin.
Gəmi kimi sahillərə yan verin,
Müjdəçilər düzüm-düzüm olacaq,
Bu gün-sabah dünya bizim olacaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşmən məni düz düşünməz, çaş anlar,
Haqq sözümü qaya duyar, daş anlar.
Qayıdacaq Çin Səddini aşanlar,
Gələcəyə gerçək sözüm olacaq,
Bu gün-sabah dünya bizim olacaq.

Keçidlərdə ocağımız səngidi,
Yoxuşlarda nəfəsimiz təngidi.
Tarix bir az haqq sözündə ləngidi,
Həqiqətlər çözüm-çözüm olacaq,
Bu gün-sabah dünya bizim olacaq.

Yeni düzən, yeni mizan qurandı,
İlk andımız, son andımız Turandı.
Soraq verən peyğəmbərdi, Qurandı,
Nə yozulsa, xeyrə yozum olacaq,
Bu gün-sabah dünya bizim olacaq.

Qovuşacaq bölünənlər, bölgələr,
Nurlanacaq qaranlıqlar, kölgələr.
Diriləcək Oğuz xanlar, Bilgələr,
Türkə səcdə, türkə təzim olacaq,
Bu gün-sabah dünya bizim olacaq.

*6 avqust 2004*

## DİVAR VƏ ÇAY

*Berlinin yıxılan divarları*
*önündə düşüncələr*

Bir dövləti ikiyə
    bölən divar yıxıldı.
Bir milləti ikiyə
    bölən çayı neyləyək?
Biri azad, müstəqil,
    biri fikir dustağı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu tay bir yana çıxdı,
bəs o tayı neyləyək?
Nə rusam, nə almanam,
nə farsam, nə ingilis.
Türk adıyla Tanrıdan
gələn payı neyləyək?
İki yüz il ağlamaq
bizə fayda vermədi,
Qulaqlara çatmayan
hay-harayı neyləyək?
Divar yıxmağa nə var,
çayı qurutmaq olmur.
Göz yaşına qarışan
ahı-vayı neyləyək?
Nə saray endi xalqa,
nə xalq saraya çatdı.
Zora gücü yetməyən
ağ sarayı neyləyək?
Tarix deyir: Bərkiyin,
bütövləşin, birləşin.
Boynumuza qoyulan
haqqı-sayı neyləyək?

*Almaniya, Berlin, 10 noyabr 2004*

## TORPAQ YANĞISI

*Çıxışlarının birində Rauf Tənktaş dedi: "Bir gün Yasir Ərəfat mənə söylədi ki, Rauf bəy, sən məndən xoşbəxtsən. Sənin Türkiyən var, mənim də bir Türkiyəm olsaydı, mən bu acıları çəkməzdim. Sən basdırılanda torpağın var, mənim basdırdacaq yerim də yoxdu. Bizim şəhid qəbiristanlıqlarını İsrail şumlayıb, izini itirib. Sizin şəhidlərinizin məzarı başında türk əsgəri durur". Ərəfat deyən oldu, onu arzuladığı müqəddəs yerdə - Qüdsdə dəfn olunmağa qoymadılar.*

*"Sözü at yiyəsinə, özü götürəcək", - deyirlər. Bu fikir məni göyüm-göyüm göynətdi. Doğulduğu torpaqda ölmək xoşbəxtliyi taleyinə yazılmayan Qarabağsız qarabağlıları, elini itirmiş eloğlularımı göz yaşları içində xatırladım.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bircə gün üzünə gülmədi həyat,
Əlli il döyüşdü Yasir Ərəfat.
Yollar yeriməkdən yol qabar oldu,
Azadlıq deməkdən dil qabar oldu.
Yorulmaq bilmədi Vətən deməkdən,
"Hanı insaf", - dedi, "hanı din", - dedi.
Səsi yetişmədi kar qulaqlara,
"Fələstin" - söylədi, "Fələstin" - dedi.
Dil açıb dinəndə dili titrədi,
Əlini tərpətdi, əli titrədi.
Düşdü qapı-qapı qürbət ellərə,
Üzündə həsrətin yeli titrədi.
Onu qoymadılar dövlət olmağa,
Qaldı gözlərində bayraq yanğısı,
Dəldi ürəyini torpaq yanğısı,
Deşdi kürəyini torpaq yanğısı.

Bədbəxt yer üzünə qədəm basanda,
Doğulur, yatmağa beşiyi olmur.
Kütməsi dağılır, koması uçur,
Bir yurdu, bir evi, eşiyi olmur.
Ayaq var, geyməyə ayaqqabı yox,
Baş var, geyinməyə papağı yoxdur.
Allahın altında bir qarış yeri,
Əkməyə bir ovuc torpağı yoxdur.
Bədbəxtlik bədbəxtin başından basır,
Qara gün özündən qabaq doğulur.
Müqəddəs analar məndən küsməsin,
Bədbəxt doğulanlar nahaq doğulur.
Dodağı qurusa, su verən olmur,
Gözünü göynədir bulaq yanğısı.
Taleyi üzünə gülməyən kəsin
Yandırır canını torpaq yanğısı.
Torpağı əlindən gedən kimsələr,
Min il yaşasa da, mənası yoxdu.
Ocağı alışmaz, Günəşi doğmaz,
Dünya var, dünyada dünyası yoxdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məzarı yad yerdə qazılanların,
Əvvəli olsa da, sonrası yoxdu.
Çox olar yetimə gəl-gəl deyənlər,
Çörək verənlərin sayı az olar.
Qazancı qapazdı, yediyi yumruq,
Tanınmaq istəyər, tanınmaz olar.
Arxası olmayan millətə yazıq!
Meydanda tək qalan qeyrətə yazıq!
Vətən deyiləndə Vətənsiz bilər,
Nədir dil yanğısı, dodaq yanğısı.
Hamının canında torpaq eşqi var,
Hamının canında torpaq yanğısı!!!
Arxalı köpəklər səs-səsə verdi,
Cumdu irəliyə qurd basa-basa.
Günbəgün çoxaldı xarabalıqlar,
Yurdunu aldılar yurd basa-basa.
Budur yağıların fikri, niyyəti.
Haqqını deməyə haqqın çatmasın,
Ağzın qıfıllansın, mumlansın gərək.
Şəhid məzarından əsər qalmasın,
Kotanlar ağzında şumlansın gərək
Nə böyük dəhşətdi, nə böyük ağrı,
Gözün görə-görə torpağın gedə,
Səni basdırmağa torpaq olmaya.
Ağacın quruya, suyun kəsilə,
Üstündə kölgəlik, bulaq olmaya.
Nahaqqın əlində oyuncaq olub,
Haqqına can atan bu haqq yanğısı.
Bu gün yer üzündə bircə yanğı var,
Torpaq yanğısıdı, torpaq yanğısı.
Torpağın yoxdursa, əl üz həyatdan,
Doğulma, böyümə, yaşama, ölmə!
Dünyadan getməyə yerin yoxdusa,
Başını ağrıdıb dünyaya gəlmə.
Gəldinsə, qurtardı, axırın itdi,
Yağış yağmayacaq, nur yağmayacaq,
Hər gün daş yağacaq daşının üstə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarğa qarıldayıb, bayquş ötəcək,
Yarasa gəzəcək başının üstə.
Ağırdı zamanın, vaxtın şərtləri,
Bilirəm, bilirəm mən bu dərdləri.
Çoxdan tanıyıram bu alçaqları,
Çoxdan tanıyıram bu namərdləri.
Torpaq itirənin biri də mənəm,
Yandırır əlimi varaq yanğısı.
Bu gün mən özüm də başdan-ayağa
Torpaq yanğısıyam, torpaq yanğısı.

*İstanbul, Alatürk köşkü. 13 noyabr 2004*

## YELDAĞI HAQQI

*Qocaman Borçalıda dağlar qoynunda Kəpənəkçi adlı bir qoca kənd var.*

*Məni dünyaya gəlirən bu kənddə sökəkli "Yeldağı " adında bir ziyarət dağı var. Neçə yüz illərdir ki, bu kəndin camaatı and içəndə "Yeldağı haqqı" deyib, onun başına and içir. Müqəddəs arzulara qovuşmaq üçün onun ətəyində ziyarət daşının yanında qurbanlar kəsirlər.*

Adını dilimdə and eləmişəm,
Sözünü dilimdə qənd eləmişəm.
Ömrümü ömrünə bənd eləmişəm,
On ilin, yüz ilin söhbəti deyil,
Mən onu min ildi kənd eləmişəm.
Mən ondan doymaram, Yeldağı haqqı.

Borçalı ürəkdi, baş Kəpənəkçi,
Borçalı tarixdi, yaş Kəpənəkçi,
Borçalı üzükdü, qaş Kəpənəkçi.
Qaşın özünü yox, tozunu belə
Heç kəsə qıymaram, Yeldağı haqqı.

Oduna, közünə, hissinə qurban,
Dumanına qurban, sisinə qurban.
Yaxşılar qibləmdi, qibləgahımdı,
Əgər pisi varsa, pisinə qurban.
Şeytana uymaram, Yeldağı haqqı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ təzə-təzə açılır qatı,
Dərindir yaddaşı, xalisdir zatı.
Gecəsi nağıldı, axşamı dastan,
Sevgisi dilimdə qoşma, bayatı.
Onun barəsində min kitab yazam,
Döşümə döymərəm, Yeldağı haqqı.

Getdim Çin səddinə, mənimlə getdi,
Peyğəmbər doğulan bir məmləkətə,
Məkkə sərhədinə mənimlə getdi.
Kəbənin içində adını çəkdim,
Ucalıq həddinə mənimlə getdi.
Onsuz keçirdiyim vaxtı, vədəni,
Ömürdən saymaram, Yeldağı haqqı.

Əlimdə silahdı, sinəmdə sipər,
Qanımda qeyrətdi, canımda təpər.
Onu qorumağa, əzizləməyə,
Gözüm göz muncuğu, kirpiyim çəpər,
Çopur qayasını, qara daşını
Gözümdən qoymaram, Yeldağı haqqı.

Gül kimi açılmış bənizim olar,
Damlası böyüyüb, dənizim olar.
Qayıdıb Allahın yoluna gələr,
Pisi də çevrilib əzizim olar.
Kimsə bir daş atıb xətrinə dəysə,
Sancaram başına Kəpənəkçinin,
Xətrinə dəymərəm, Yeldağı haqqı.

Ölümü, əcəli qoymaram yaxın,
Bez-kəfən geymərəm, Yeldağı haqqı.
Min il də hüsnünə nəğmələr qoşsam,
Ulu görkəmindən, tamaşasından,
Doymaram, doymaram, Yeldağı haqqı!!!

*1 fevral 2005*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏNİM BORÇALIDA QALAN İLLƏRİM**

Körpəliyim idi, kövrək, rəhmli,
Uşaqlığım idi, ayıq, fəhmli.
Cavanlığım idi, ötkəm, zəhmli,
Mənim Borçalıda qalan illərim.

Gecə danışırdım ulduzla, Ayla,
Gündüz görüşürdüm çeşməylə, çayla.
Getdi əllərimdən hayla-harayla,
Mənim Borçalıda qalan illərim.

Atamın qəbritək ziyarətimdi,
Anamın səbritək məşəqqətimdi.
Mən onsuz yetiməm, mənsiz yetimdi,
Mənim Borçalıda qalan illərim.

Aran bir qoluydu, dağ bir qoluydu,
Çəmənlə, çiçəklə, nurla doluydu.
Haqqa qovuşmaqçün haqqın yoluydu,
Mənim Borçalıda qalan illərim.

Ulu gözəlliyə bənd yerim oldu,
Oymaq yerim oldu, kənd yerim oldu.
Tövbə yerim oldu, and yerim oldu,
Mənim Borçalıda qalan illərim.

Fikrin gözəlidi, sözün xasıdı,
Görüş bayramıdı, həsrət yaşıdı.
Dünyanın ən qədim saz havasıdı
Mənim Borçalıda qalan illərim.

Sarvan dağlarıdı, Ləlvərdi, Lökdü,
Həsrəti içimi doğradı, tökdü.
Ayrılıq anında göz yaşı tökdü.
Mənim Borçalıda qalan illərim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu gün Başkeçidim baş ağrısıdı,
Torpaq ağrısıdı, daş ağrısıdı.
Bütün ağrıların baş ağrısıdı,
Mənim Borçalıda qalan illərim.

Göyü soraqlayır, yeri çağırır,
Oğulu səsləyir, əri çağırır.
Gedən oğulları geri çağırır,
Mənim Borçalıda qalan illərim.

Göz yaşı gözümdə şeh kimi qaldı,
Ağrısı canımda ah kimi qaldı.
Ömrümün taxtında şah kimi qaldı,
Mənim Borçalıda qalan illərim.

Adım yaddaşında azarmı, görən,
Bir həsrət məzarı qazarmı, görən?
Məni yaddaşına yazarmı, görən
Mənim Borçalıda qalan illərim?

Ondan ayrılmağım haqsızmı, haqmı,
Günahkar imkanmı, talemi, vaxtmı,
Bilmirəm, mənimlə barışacaqmı
Mənim Borçalıda qalan illərim?

## ZARAFAT ELƏMƏ

Zarafat eləmə, qurbanın olum,
Bu dünya zarafat meydanı deyil.
Qarışqa yerişi rahat yerişdi,
Bu meydan köhlən at meydanı deyil.

Oynadıb çox şeyi umar, oynama,
Etsə də ruhunu xumar, oynama.
Sən bu qumarbazla qumar oynama,
Zarafat gəlməsin sənə bu dünya.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox yerdə qəbrini qazan olacaq,
Başın qaynamaqdan qazan olacaq.
Sanma yaşamağın asan olacaq
Zarafat gəlməsin sənə bu dünya.

Yoxsulluq yoxsulun bağrına oxdu,
Mədəsi toxların məzəsi toxdu.
Fil var, qarışqaca hörməti yoxdu.
Zarafat gəlməsin sənə bu dünya.

Çox yerdə məkrli oyun olacaq,
Şir, pələng çevrilib qoyun olacaq.
Hələ neçə dəfə toyun olacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Ömrünü qar yeyib, qış aparacaq,
Xırmandan dənini quş aparacaq.
Dünyadan əlini boş aparacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Qeybətin quyusu, hiylənin toru,
Sənə diri-diri göstərər goru.
Başın var, başsızdan başını qoru,
Zarafat gəlməsin sonə bu dünya.

Şeytan dura-dura şərlənər dəvə,
Qatır quyruğunda hərlənər dəvə,
Kinindən yıxılar, tirlənər dəvə,
Zarafat gəlməsin sənə bu dünya.

Muğamı ağlamaq, valı ağlamaq,
Valın da qırılmış halı ağlamaq.
Fışqırıq çalmağın dalı ağlamaq,
Zarafat gəlməsin sənə bu dünya

Yasın yeddisi var, üçü, qırxı var,
Qəbir yerinin də haqqı, nırxı var.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ölümdən sonra da min cür qorxu var,
Zarafat gəlməsin sənə bu dünya.
Üreyə çəkilən dağdı, düyündü,
Hər gün xırdalanan ömürdü, gündü.

Gör bu dəyirmanda kimlər üyündü,
Zarafat gəlməsin sənə bu dünya.
Zəlimxan, günahın yeddi qat olar,
Həyatın qan dolu bir həyat olar.

Zarafat eyləsən, şahın mat olar,
Zarafat gəlməsin sənə bu dünya!

*26 may 1996*

**GƏTİRƏCƏKSƏN**

Könül, nə yanırsan, nə yandırırsan,
Xalqı bir yönəmi gətirəcəksən?
Dilsiz qayaları, səssiz daşları,
Səsəmi, ünəmi gətirəcəksən?

Aldılar əlindən yağlı, yavanı,
Çəkdilər canından suyu, havanı.
Yerinə qaytarıb yurdu, yuvanı,
Dağlara binəmi gətirəcəksən?

Nə ad düşündürür, nə san milləti,
Çoxalır asdıran, asan milləti.
Qayğılar başından basan milləti
Kölgədən günəmi gətircəksən?

Yaşadın dərd yeyib, qəm uda-uda,
Çağırdın, dadına çatmadı xuda.
Yağışsız buludda, axarsız suda
Sünbülü dənəmi gətirəcəksən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürək min parçadı, könül min para,
Qarışıb, seçilmir ağ ilə qara.
Allahdan danışıb allahsızlara,
Dinsizi dinəmi gətirəcəksən?

Bir dərdin həyatda min yazarı var,
Dünyanın nə behi, nə bazarı var.
Taleyin nə qədər dərd-azarı var,
Yığışıb mənəmi gətirəcəksən?

## KİMDİ SƏNİ BU QAPIDAN BURAXAN

*Bir nazirliyin qapısında gözünün yaşını yağış kimi yağdıran qoca bir kişi gördüm. Şikayəti Allahın yanına çıxsa da, yuxarıda oturanın yanına çıxa bilmirdi.*

Bu qapıdan yollar gedir, ay qoca,
Süd arxından qollar gedir, ay qoca.
Zər daşınır, pullar gedir, ay qoca,
Kimdi səni bu qapıdan buraxan?

Bu bazarda nə işi var lütlərin,
Yeri deyil "maymaqların, kütlərin".
Qulluğunda durammasan bütlərin,
Kimdi səni bu qapıdan buraxan?

Bu qapının gədələri bəylənər,
Kişiləri harınlaşar, səylənər.
Gündə burda neçə karvan əylənər,
Kimdi səni bu qapıdan buraxan?

Nə olsun ki, qəlbin qəmnən oyuqdu,
Nə olsun ki, bəxtin batan qayıqdı.
Görmürsənmi, mərmər buzdan soyuqdu,
Kimdi səni bu qapıdan buraxan?

Sünbül elə, dənnən keçir dərdini,
Tanrıya bax, dinnən keçir dərdini.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bura gəlmə, gennən keçir dərdini,
Kimdi səni bu qapıdan buraxan?

Düyməsi var, tilsimi var, zəngi var,
Bir deyil ki, yetmiş yeddi rəngi var.
Talelərlə qovğası var, çəngi var,
Kimdi səni bu qapıdan buraxan?

Ağlar gəlib, ağlar qalıb gedən var,
Dağəridən, daşüyüdən bədən var.
Cangüdənin özünü də güdən var,
Kimdi səni bu qapıdan buraxan?

Pusqular var, pusduran var, pusan var,
Qan axıdan, qusduran var, qusan var.
Qorxusundan ömrü boyu susan var.
Kimdi səni bu qapıdan buraxan?

Silahı var, polisi var, postu var,
Rüşvət adlı bir canciyər dostu var.
Bu qapının bu millətlə qəsdi var
Kimdi səni bu qapıdan buraxan?

Get özünə ayrı iş tap, ay qoca,
Ayrı dil tap, ayrı diş tap, ay qoca.
Xaçpərəst ol, bir keşiş tap, ay qoca
Kimdi səni bu qapıdan buraxan?

**MƏRDİMİZ - DƏRDİMİZ**

Qurd yedi, taladı bu ağacları,
Nə qədər ağac var qurdun içində.
Çaqqal var, tülkü var, it var, pişik var,
Didir bir-birini yurdun içində.
Kökünü qazıdı dərd adamların,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə qədər adam var dərdin içində.
Həyatdan küsən var, candan bezar var,
Nə qədər ağrı var, dərd var, azar var,
Kimsəsiz ölü var, qərib məzar var.
Mərdin sinəsini açın, göstərin,
Nə varsa, aydınca görəcəksiniz,
Nə varsa, yer salıb mərdin içində!

**AĞRI**

*Üstümə gələn şikayətçilərə*

Ürək ndir, zərif tel, incələrin incəsi,
Sən qarışqa, dərd dəvə, qəm ayının pəncəsi.
Hər gün üzünə durur həyatın işgəncəsi,
Səni necə qurtarım ağrıların əlindən?

Fikrində ümid yeri, gözündə yaş gəlirsən,
Ürəyində qəm yükü, bağrında daş gəlirsən.
Bir az ürkək yeriyir, bir az yavaş gəlirsən,
Səni necə qurtarım ağrıların əlindən?

Yol dolaşıq, cığır dar, zaman çətin, vaxt ağır,
Əngəllərin əlində qalmısan mağmın, fağır.
Baxışından üstümə qalaq-qalaq qar yağır,
Səni necə qurtarım ağrıların əlindən?

Torpağın yad əlində, özün çadırda əsir,
Ayaz vurur, qar döyür, şaxta vurur, qar kəsir.
Hər kəs öz ocağına, öz evinə tələsir,
Səni necə qurtarım ağrıların əlindən?

Üzün payız yarpağı, alnın qırış-qırışdır,
Qəlbin qəmlər əlində gah küsdü, gah barışdı.
Ağladın, göz yaşların göz yaşıma qarışdı,
Səni necə qurtarım ağrıların əlindən?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dodağım yandıran haraydımı, ündümü?
Kərpic-kərpic sökülən ömürdümü, gündümü?
Bu bulanlıq suları durultmaq mümkündümü?
Səni necə qurtarım ağrıların əlindən?

Allahı çağırırsan, eşqin Allaha çatmır,
Eşitmir vəzir, vəkil, əllərin şaha çatmır,
Mənim gücüm çəkdiyin aha, ağrıya çatmır,
Səni necə qurtarım ağrıların əlindən?

Nə şaham, nə Allaham, nə peyğəmbər, nə sultan,
Qəlbindən keçənləri yaratmağa yox imkan.
Təbiətdə qasırğa, cəmiyyətdə sərt tufan,
Səni necə qurtarım ağrıların əlindən?

Sən millətin övladı, mən millətin vəkili,
Ürəyim cadar-cadar, yuxum ərşə çəkili.
Əlim göyə uzalı, gözüm göyə dikili,
Səni necə qurtarım ağrıların əlindən?

*26 noyabr 2000*

## SƏN ALLAH, DİLİNƏ QEYBƏT GƏTİRMƏ

Ulduzdan danışaq, Aydan danışaq,
Çeşmədən, dənizdən, çaydan danışaq,
Sevgidən, sevincdən, toydan danışaq.
Palıd qətiyyətli oğullar görüb,
Çinartək ucalan boydan danışaq,
Sən allah, dilinə qeybət gətirmə!

İşığam, sən məni zülmətə çəkmə,
Aşkaram, sən məni xəlvətə çəkmə.
Ayna ürəyimi, duru könlümü
Kinə, küdurətə, nifrətə çəkmə,
Sən allah, dilinə qeybət gətirmə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlvan çiçəklərin baxışına bax,
Çəməndə güllərin naxışına bax.
Günəşin tərtəmiz şəfəqlərinə,
Buludun dumduru yağışına bax.
Yağışdan təmizlən, Günəşdən durul,
Sən allah, dilinə qeybət gətirmə!

Məğrur sarayları yıxdı, dağıtdı,
Yurdun axırına çıxdı, dağıtdı.
Qeybət ürəkləri sıxdı, dağıtdı,
Sən allah, dilinə qeybət gətirmə!
Hər könül mülkündən bir sərvət gətir,
Ruzu, qismət gətir, bərəkət gətir.
Yerdən genişlik al, göydən ucalıq,
Dinəndə, dilinə təravət gətir,
Amandı, dilinə qeybət gətirmə.

*21 mart 2000*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Füzuli heyrəti,*
*Sabir qeyrəti*

**NİZAMİ DÜNYASI**

Ağlın genişliyi, qəlbin səsidir,
Varlığın ən böyük xəritəsidir.
Fikrin qollarıyla qucub cahanı,
Beş əsər dünyanın beş qitəsidir!

Könül dünyasında söz heykəlləşər,
Yayınmaz gözlərdən nə xeyir, nə şər.
Minlərlə xəzinə doldu, boşaldı,
"Sirlər xəzinəsi" tanıyır bəşər!

Saralmaz bağçası xəzan əlində,
Pozulmaz nizamı pozan əlində.
Tilsimlər, əfsunlar sındıran qələm
Hər şeyə qadirmiş yazan əlində!

Fərhad məhəbbətdə dünyada təkdi,
Şirinin rəsmini daşlara çəkdi.
Nizami şerindən söhbət açmağa
Allah ucalıqda şair gərəkdir!

Yandı söz adlanan gur ocaq üçün,
Eşqi çiçəkləndi bu torpaq üçün.
Yeddi şair ömrü çatmaz bəlkə də,
Tək "Yeddi gözəli" yaratmaq üçün!

Tanrısı ölümsüz təbiət oldu,
Qəlbində tükənməz min hikmət oldu.
Gecələr ulduzla dindi, danışdı,
Gündüzlər Günəşlə həmsöhbət oldu!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzdü, inciləri dərində tapdı,
Fikri məqamında, yerində tapdı.
İsgəndər axtaran "abi-həyat"ı,
Nizami sözündə, şerində tapdı!

Kolamı alışıb yandı zor kimi,
Böyüdü dünyası üfüqlər kimi.
Batmadı əsrlər qaranlığında,
Parladı on aydın şəfəqlər kimi!

Sirdaşdır qocaya, gəncə Nizami,
Nizami Gəncədir, Gəncə Nizami!
Əyləşib dahilər səltənətində
Bütün şairlərdən öncə Nizami!

**YUNUS İMRƏYƏ**

*Məni məndə gəzmə, məndə deyiləm,*
*Bir mən vardır məndə, məndən içəri.*

*Yunus İmrə*

Heç gərək yoxuymuş səni görməyə,
Əllərim toxunan budaqdasanmış.
Yaşıl zəmilərə baxdım, düşündüm,
Səpilən dən kimi torpaqdasanmış!

Səhrada, çəməndə, güldə, çiçəkdə,
Barda, bərəkətdə, duzda, çörəkdə,
Ulu sevgi kimi canda, ürəkdə,
Şirin nəğmə kimi dodaqdasanmış!

Od kimi baxışda, nur kimi üzdə,
Qan kimi damarda, güc kimi dizdə,
Ruh kimi bədəndə, gün kimi gözdə,
Səs kimi könüldə, qulaqdasanmış!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəlbimə sirdaşsan, könlümə yarsan,
Hayana boylandım, hər yerdə varsan.
Gülsəm, dodağımda çiçək açarsan,
Ağlasam, yaş kimi yanaqdasanmış!

Yağdın varlığıma qarla, yağışla,
Hopdun iliyimə nurlu baxışla.
Bağışla, Yunusum, məni bağışla,
Mən elə bilirdim uzaqdasanmış!!!

**DÜNYANIN YAXŞI ŞERİ**

*Ulu ozanımız Yunus İmrəyə*

Nurlu gözdə bəslənir, odlu canda yaranır,
Çaxır şimşəklər kimi, bircə anda yaranır.
Gah qanlı davalarda, gah zindanda yaranır,
Dünyanın yaxşı şeri hər gün yazılan deyil!

Xəzinəsi tükənməz ağır eldi, obadı,
Dilqəmin məktubunu öpən badi-səbadı.
Şəhriyarın dilindən qopan "Heydərbaba"dı,
Dünyanın yaxşı şeri hər gün yazılan deyil!

Dünən dərin bildiyin bu gün dayaz görünür,
Yazdığın yazılarda nə qış, nə yaz görünür.
Zəiflər bolluğunda yaxşılar az görünür,
Dünyanın yaxşı şeri hər gün yazılan deyil!

Oğulsan, axarına, zərbəsinə qarşı dur,
O, zülmə, ədavətə, xəyanətə qarşıdır.
Məhməd Akif Ərsoyun sərt "İstiqlal marşı"dır,
Dünyanın yaxşı şeri hər gün yazılan deyil!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Doğulan çox olsa da, neyləsin doğan ana,
Hər gün dünyaya gəlmir nə Yunus, nə Mövlana.
Dahilik zərrə-zərrə hopur iliyə, qana,
Dünyanın yaxşı şeri hər gün yazılan deyil!

Qəlb incələ-incələ iynəyə sap olsa da,
Can quruya-quruya quruyub çöp olsa da,
Qalaq-qalaq yazılar yığılıb çap olsa da,
Dünyanın yaxşı şeri hər gün yazılan deyil!

Kökü qədimdən qədim, Adəmdən, Nuhdan gəlir,
Qarışıb qandan keçir, süzülüb ruhdan gəlir.
Ruh da, qan da, nəfəs də qadir Allahdan gəlir,
Dünyanın yaxşı şeri hər gün yazılan deyil!

## ŞEYXİM MƏNİM, ŞAHIM MƏNİM, ŞAİRİM MƏNİM

*Ərdəbildə Şeyx Səfi türbəsində Şah İsmayıl*
*Xətainin məzarı başında düşüncələr*

Qızıl baxtım, qızıl taxtım, qızıl tacım, hey,
Həm uğurum, həm qüsurum, ağrım-acım, hey,
Bu günümdə çoxdu sənə ehtiyacım, hey,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Əldən çıxdı, fürsət mənim, çəm mənim deyil,
Göyçə yoxsa, necə deyim, qəm mənim deyil,
Təbriz, Dərbənd həm mənimdi, həm mənim deyil,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

İblis yenə fitnəsində, şeytan şərində,
Ağrı canda, nisgil gözdə, yara dərində.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tağım uçdu, belim sındı Xudafərində,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Ömrümüzü közə tutub, oda verdilər,
Özümüzü özgolərə qida verdilər.
Novolorin Borçalını yada verdilər,
ŞEYXİM mənim,
ŞAIIIM mənim,
ŞAİRİM mənim!

Yerevana döndərdilər Rəvanımızı,
Sarsıtdılar qocamızı, cavanımızı.
Səndən sonra düşmən qurdu divanımızı,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Allah bizə rursət verdi, ağıl vermədi,
Allah bizə övlad verdi, oğul vermədi.
Allah bizə əvvəl verdi, axır vermədi,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Taleyimiz qapaz görüb, şillədən keçib,
Mərd kişilər başdan keçib, kəllədən keçib.
Ulu şeyxlər, şah oğullar güllədən keçib,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!

Qollarınla torpağıma sarıl, gəl, babam,
Oxa çevril, kaman kimi gəril, gəl, babam,
Dirilt bizi, yaşat bizi, diril, gəl, babam,
ŞEYXİM mənim,
ŞAHIM mənim,
ŞAİRİM mənim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çaldıranda yaralanmış şahıma qurban,
Bu yaradan tüstülənən ahıma qurban.
Tarixdəki on üç yaşlı dahimə qurban,
ŞEYXİM mənim,
        ŞAHIM mənim,
                ŞAİRİM mənim!

*Ərdəbil, avqust 1992*

**MƏHƏMMƏD FÜZULİYƏ**

Ey Füzuli! Eşqin yenə məclisimə tam gətirib,
Nur dolu bir badə süzüb, sevgi dolu cam gətirib.

Muradın şəmi yanmazmı, bu şamı yandırmaq üçün,
Beş yüz ildən sonra gəlib, Tanrı özü şam gətirib.

Köhnə sözün, qədim sözün təzələrdən təzə qalıb,
Ulu sözün əyyamına yeni bir əyyam gətirib.

Yer üzünün şairləri ətrin ilə gözəlləşib,
Bir gülü Şəhriyar dərib, bir gülü Xəyyam gətirib.

Bu gün səni neçə-neçə sevən gəlib, duyan gəlib,
Adına salavat çəkib, ruhuna salam gətirib.

Ziyarətə gedən kəslər geyər ehram paltarını,
Bizi yenə ziyarətə söz adlı ehram gətirib.

Zəlimxan da eşqin ilə dönüb bu gün Məcnun olub,
Dərgahına könül dolu hörmət, ehtiram gətirib.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖRÜŞ-AYRILIQ**

Səndən xatircəməm, Füzuli babam,
Qəbrinin daşından öpüb gedirəm.
Gözümün yaşını çiçəklər kimi
Məzarın üstünə səpib gedirəm.

Kim deyir məzarın dağılıb sənin,
Kim deyir torpağın külə çevrilib.
Ən yaxın həmdəmsən İmam Hüseynə,
Nəfəsin çiçəyə, gülə çevrilib.

Milyonlar doğulur, milyonlar gedir,
Hamı belə yerdə uyumur, babam!
Düz beş yüz ildir ki, xalqın, millətin,
Sənə məhəbbəti soyumur, babam!

Kərbəla taleli, Körkük haraylı,
Nəcəf xatirəli ustadım mənim.
Min dağı qoparıb bir dırnağilə
Söz dağı ucaldan Fərhadım mənim.

Süzülə-süzülə sözə çevrilib,
Əriyə-əriyə qəlbin şəm oldu.
Səhrada Məcnuna qurduğun saray
Bütün saraylardan möhtəşəm oldu!

Dünyaya gələndən dünya şerinin
Ağrı damarısan, ah damarısan.
Bir qəlbin içində yerləşir bəşər,
O qəlbin, ürəyin şah damarısan!

Ömür bağışladın, ölməz elədin,
Leyli də, Məcnun da yaşar sinəndə.
Zamandan-zamana axar, dayanmaz,
Dəclə də, Fərat da daşar sinəndə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəzdiyin yerləri gəzdim, dolandım,
Yatdığın torpaqda yata bilmədim.
Şöhrətin o qədər yüksəklərdədir,
Bircə pilləsinə çata bilmədim!
Təzə pöhrəsiyəm Azərbaycanın,
Sözün sünbülündə dənəm, ay ustad!
Vidadi xəstədən Bağdad elinə
Nişanə yetirən mənəm, ay ustad!
Gecəli-gündüzlü yollarda qalıb,
Neçə yol düşsəm də bərkə, çətinə,
Məni qovuşmağa qoymadı eşqin,
Axır ki, qovuşdum məhəbbotinə!
Mən indi bildim ki, Bakıyla Bağdad,
Onda bir-birinə həsrət deyilmiş.
İndi bizim üçün qürbətə dönüb,
O zaman bu yerlər qürbət deyilmiş!
Təbrizə, Hələbə, Bağdada, Şama,
Nə qədər köç gedib, axın olubdu.
İndi yaxınları uzaq salmışıq,
O zaman uzaqlar yaxın olubdu!
Sevgini ən dadlı bir şərbət kimi
Bütün nəsillərə içirən babam.
Ərəbin dərdini türkün dilində
Dünyanın qəlbinə köçürən babam!
Baş əyib ölümsüz misralarına,
Qəbrinin daşından öpüb gedirəm!
Gözümün yaşını çiçəklər kimi,
Məzarın üstünə səpib gedirəm!!!

*Kərbəla, sentyabr, 1994*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**FÜZULİ - SABİR**

Gözəlliyə, gözələ könlüü bağlayanda,
Füzuli "Heyrət!" - dedi.
Millətinin halına güləndə, ağlayanda,
Sabirim "'Qeyrət!" - dedi
Heyrət ilə qeyrəti yoğurdular, yapdılar,
Bu ölümlü dünyada bir ölməzlik tapdılar!
Hər biri bu həyatda həyat qədər qalası,
Azərbaycan şerinin
Biri heyrət qalası!
Biri qeyrət qalası!

**AŞIQ ƏLƏSGƏRƏ**

Könlümdə yaşadıb könül varımı,
Sazımı eşqinlə çalmışam, ustad!
Aylarla oxuyub qoşmalarını,
İllərlə xəyala dalmışam, ustad!

Bağlanıb varlığım qıfılbəndinə,
Tilsimdi, sehrindən qaça bilmirəm.
Bağlama demisən, bircə bəndinə
Bir ömür qoymuşam, açа, bilmirəm.

Ürəyin yanğısı tellərə düşüb,
Cinas ilmələnib, təcnis toxunub.
Yazıya düşməmiş dillərə düşüb,
Ellərin dilində əzbər oxunub.

Sən elə qatmısan balı qaymağa,
Dadan ləzzətindən doymur, ay ustad!
Sözün şöhrətini elə, oymağa
Hamı sənin kimi yaymır, ay ustad!

Baxdım yaratdığın misraya, bəndə,
Nə memar işidir, nə zərgər, dedim.
Dilim söz tutanda, ağlım kəsəndə
Ələsgər çağırdım, Ələsgər dedim!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**CAVİD ƏFƏNDİ**

Bu nə şadlıq, bu nə bayram, bu nə görüş, bu nə həsrət
Görüşümüz uzun çəkdi, gec oldu, Cavid Əfəndi!
Dillər yandı, tellər susdu, güllər soldu, bellər sındı
Ayrılığın bu millətə güc oldu, Cavid Əfəndi!

Nə təhqirdən, nə zəncirdən, nə kəndirdən aman yoxdu
Allahsızda Allah yoxdu, imansızda iman yoxdu.
Kim getdisə, dedilər ki, qayıtmağa güman yoxdu,
Gör nə qədər günah oldu, suç oldu, Cavid Əfəndi!

Qələm qırdı, barmaq kəsdi, bilək sıxdı, qol bağladı,
Haqq deyənin qarşısında çəpər çəkdi, yol bağladı.
Qan üstündə bir taxt qurdu, zülmə, zora bel bağladı,
Səni yıxan imperiya heç oldu, Cavid Əfəndi!

Sənət üçün qorxu deyil buz baxışlar, buz nəfəslər,
Sənət üçün qorxu deyil qanlı əllər, dar qəfəslər.
Hardan bilsin, nədən bilsin ağlı topal olan kəslər?
"Topal Teymur" səhnəmizdo tac oldu, Cavid Əfəndi!

Yandı ürək, coşdu könül, düşündü baş, yaratdı əl,
Qalx məzardan, Cavid adlı heykəllərin seyrinə gəl.
Nurun Günəş, qəlbin atəş, gözün ocaq, sözün məşəl,
Bostanına yağan daşlar necoldu, Cavid Əfəndi!

İnam səndə, şərəf səndə, dözüm səndə, səbir səndə,
Sən qürbətdə, sən Sibirdə, qürbət səndə, Sibir səndə.
Qırx illik bir yoldan gəldi, quşa döndü qəbir səndə,
Maqadandan Naxçıvana köç oldu, Cavid Əfəndi!

Nə yandıran, nə dağıdan, nə də ki uçuran qaldı,
Yaddaşlarda yaşa döndü, yazan qaldı, quran qaldı,
Bir nəsildən sağ-salamat ancaq bircə Turan qaldı,
Neçə-neçə xoş arzular puç oldu, Cavid Əfəndi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarşıda qarlı aşırım, arxada uçurum, dərə,
Tutdu böhtan yağışına, atdı oda, satdı şərə.
"İblis"ə min lənət deyib, üz tutsan da "peyğəmbər"ə
Fələk səndən zaman-zaman öc aldu, Cavid Əfəndi!

Ulu qüdrət olan yerdə yoxdu yeri dərd-azarın,
İşığına yığışmışıq bir türbədə üç məzarın.
Sən Allahın dostusanmış, son nəfəsin, son güzarın,
Vətən adlı Məkkə oldu, Hac oldu, Cavid Əfəndi!

Çaxnaşmalar caynağında neçə qış getdi, yaz gəldi,
İliyini şaxta vurdu, sümüyünə ayaz gəldi.
Ərtoğrulun harayına Cavidlə Müşginaz gəldi,
Bu yerdə bir məzar vardı, üç oldu, Cavid Əfəndi!

## KİŞİ

*Məhəmməd Əmin Rəsulzadənin*
*məzarı başında düşüncələr*

Yetmiş illik ayrılıq axır ki, çatdı sona,
Salam! Rəsul övladı, Məhəmməd Əmin kişi!
Yordum uzaq yolları səsinlə, sorağınla,
Qırdım axır belini həsrətin, qəmin, kişi!

Məzarına baxanın kirpiyində nəm gördüm,
Ağ mərmərin üzündə qara donlu qəm gördüm.
Sənin kimi yarımaz bir qisməti kəm gördüm,
Acıdım taleyinə min bəxti kəmin, kişi!

Sağ olsun məzarını ağ mərmərə tutanlar,
Dilindəki sözləri seçib zərə tutanlar.
Qoy tarixdən utansın səni şərə tutanlar,
Yaman getdi əlindən fürsətin, çəmin, kişi!

Tanrı səni yaratdı, bir də çətin yarada,
Sən qurtuluş istədin, qanlar axdı arada.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beşiyin Bakıdadır, məzarın Ankarada,
Sənin Vətəndən özgə kimin var, kimin, kişi?

Nələr çəkib başımız, dərdimizdən halıydın,
Yaralı bir nəğmənin unudulmaz xalıydın.
Sən də bizim torpağın Mustafa Kamalıydın,
Heyif! Sünbül tutmamış biçildi zəmin, kişi!

Sizdən sonra gələnlər qara yeltək əsdilər,
Bizi bizdən almağa coşdular, tələsdilər.
Məğrur saraylar quran düz əlləri kəsdilər,
Daşı düz qoyulmadı özülün, himin, kişi!

Ana öz övladını qoymaz gözündən yana,
Vətənin ölməz oğlu, gedək Azərbaycana.
Millət "İstiqlal!" – deyə yenidən gəlir cana,
Özün çal havasını köklənən simin, kişi!

Kəsilməz, xalqın kökü dərindədir, dərində,
Zaman çəkib oturdar hər kəsi öz yerində.
Aylar, illər keçsə də sən xalqın nəzərində
Yenə həmin oğulsan, yenə də həmin kişi!
Bu böyük həqiqətə əmin ol, Əmin kişi!
Salam! Rəsul övladı, Məhəmməd Əmin kişi!!!

*Ankara, 1991*

## ƏLƏSGƏR OCAĞINDA OXUNAN NƏGMƏLƏR

I

Ən müqəddəs bir istəyə can verib,
Sazın, sözün ocağına gəlmişəm.
Bir anadı, qollarını gen açıb,
Bala kimi qucağına gəlmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könül verdim bir günəşli səhərə,
Dan atmamış hazırlaşdım səfərə.
Neçə gündü vida deyib şəhərə,
Bir ustadın oylağına gəlmişəm.

Belə həvəs görməmişəm yaşımda,
Çiçək açıb torpağım da, daşım da.
"Göyçəgülü" havası var başımda,
O havanın sorağına gəlmişəm.

Söz bəzədi sarayını, taxtını,
Söz güldürdü taleyini, baxtını.
Görəmmədim Ələsgərli vaxtını,
Bu vaxtına, bu çağına gəlmişəm.

Qovrulmuşam harayında, ünündə,
Olmamışam ən gərəkli günündə.
Dayanmışam bir məzarın önündə,
Səcdə üçün ayağına gəlmişəm.

Havasında zil olmağa dəyərmiş,
Bağçasında gül olmağa dəyərmiş,
Atəşində kül olmağa dəyərmiş,
Pərvanəyəm, çırağına gəlmişəm.

Gənclik eşqi həvəsimi bol verib,
Uçmaq üçün qanad vürib, qol verib.
Qarlı dağlar sinəsindən yol verib,
Qədim Göyçə torpağına gəlmişəm.

II

Unudulmaz el bəzəyi, el oğlu,
Hər gün onu saz dinlədi, saz andı.
Yaratdığı gəraylıda, qoşmada,
Yüz il, min il şair ömrü uzandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Var oynayan, dümbək çalan, var aşıq,
Ustad aşıq hər məclisə yaraşıq.
Saz əhlinə, söz əhlinə yar aşıq
Müqəddəsdi, ağsaqqaldı, ozandı.

Ömür verib divarına, daşına,
Yaş artırıb sözümüzün yaşına.
Nanəcibin, müxənnəlin başına
Sözü var ki, bircə qaynar qazandı.

El zərgərdi, zəri seçdi, bəyəndi,
Eldən gəlsə, şöhrət göyə dəyəndi.
Dedilər ki, sinəsindən deyəndi,
Demədilər, hecalayıb yazandı.

Nə Kərəmtək yaş axıdıb ağlayan,
Nə Məcnuntək ürəkləri dağlayan,
Yeri gəlsə, çaylar kimi çağlayan,
Yeri gəlsə, nərə dönüb qızandı.

Qonaq oldu hər yurda, hər oymağa,
Tərif dedi Güləndama, Qaymağa.
Sənətində balı qatdı qaymağa,
Haqq aşığı əbədiyyət qazandı!

III

Gəzdim yay günündə, yay axşamında,
Oldum taleyindən halı Göyçənin.
Təzədən gül açdı daşı, torpağı,
Sevindi yamacı, yalı Göyçənin.

Laylası çalındı, şeri oxundu,
Ellərin yanında dərdi yox indi.
Cinas ilmələndi, təcnis toxundu,
Süzüldü dodaqdan balı Göyçənin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Duydum Ağkilsəni, tanıdım Zodu,
Gözümü doldurdu könlümün odu.
Qurumaz çeşmədi, bulanmaz sudu,
Tükənməz yaşılı, alı Göyçənin.

Bir dəstə çiçəkdə yeddi rəngə bax,
Suların səsində xoş ahəngə bax.
Ustadı xatırla, Qızılvəngə bax,
Şöhrəti Alıdı, Alı Göyçənin.

Sevən sevgisindən düşdü aralı,
Ovçular ağlatdı neçə maralı.
İman itkin oldu, Nəcəf yaralı,
Pozuldu bir zaman halı Göyçənin.

İllərin zəhməti getmədi zaya,
Döndü yavaş-yavaş bulaqlar çaya.
Dədə Ələsgəri verdi dünyaya,
Gətirdi naxışı, xalı Göyçənin.

Zəlimxan, bu yeri qarış-qarış gəz,
Bir də bu günlərə tapılmaz əvəz.
Bir gün şirinliyi azala bilməz,
Yüz il kəsilməsə balı Göyçənin.

## SƏNƏ BAĞLI XATİRƏLƏR

*Səməd Vurğun haqqında xatirə*
*kitablarını oxuyarkən*

Əlli ildə əlli ömrü
Yaşamağı bir heyrətmiş.
Əfsanəyə oxşasa da,
Deyilənlər həqiqətmiş.
Duyan bilər bu böyüklük
Nə hünərmiş, nə qeyrətmiş.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zaman-zaman nəsillərin
Ürəyinə işıq çilər,
Sənə bağlı xatirələr!

Körpəliyin qəm üstündə
Köklənən bir telli sazdı.
Cavanlığın havalanmış
Dəli Kürdü, xan Arazdı.
Qocalığın, şeriyyətin
Gözlərində gülən yazdı.
"Nələr deyir bizə, nələr!"
Sənə bağlı xatirələr!
Əsil oğlu sən olmusan
Ən müqəddəs duyğuların.
Neçə tale çiçəklənib –
Gül açanda qayğıların.
Baxışların ocaq çatıb
Ortasında buzun, qarın.
Başımızdan çiçək kimi,
Hörmət səpər, xətir ələr
Sənə bağlı xatirələr!

Ağır yeriş, mətin addım,
Dalğalı saç, qaynar baxış,
Açılanda aydın səma,
Tutulanda - leysan yağış.
Görənlərin yaddaşında –
Zərli yazı, qızıl naxış.
Bu torpağın hər daşında
Səsə düşər, dilə gələr,
Sənə bağlı xatirələr!

Arxan ilə gəzmədiyi
Nə dağ qaldı, nə də binə.
Ölüm fürsət yoxsultək?
Səni gəzdi sinə-sinə.
Quzu kimi qaldı mələr,
Sənə bağlı xatirələr!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gur məclislər keçirələr,
Bir-birindən qəşəng ola,
Hər məclisin yaraşığı
Xatirədən çələng ola,
Hər söhbətin dünyasında
Könül açan min rəng ola,
Süfrəmizə dürlü-dürlü
Min bir nemət gətirələr,
Hamısından şirin olar,
Sənə bağlı xatirələr!

**KƏLBƏCƏRDƏ OXUNAN NƏĞMƏLƏR**

I

Deyirlər, doxsanı qoyub arxada,
Yüzdə də qıymasın vədə Şəmşirə!
Şimşəklər oynaşır dağlar başında,
İldırım vurmasın zədə Şəmşirə!

Ən cavan ustaddır, ən qədim ozan,
Bu ulu şərəfə neyləyər xəzan.
Çox döymə döşünə, ay şeir yazan,
Yeri, öz borcunu ödə Şəmşirə!

Şerində, dilində sözün xası var,
Hər şair qəlbində bir qalası var.
Onun Zəlimxantək yüz balası var,
Çatdırar özünü DƏDƏ ŞƏMŞİRƏ!

II

Bu yerlərdə kağız gərək olmadı,
Hər gədiyə, qaşa yazdım şerimi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəhcəhini eşidəndə kəkliyin,
Bir xınalı daşa yazdım şerimi.

Qələm çəkdi qəmə-dərdə gözəllər,
Çaldı məni pərdə-pərdə gözəllər.
Seyrə çıxdı Kəlbəcərdə gözəllər,
Gözə baxdım, qaşa yazdım şerimi.

Heç qoymadım dərd üstümə şəklənə,
Can ağrıyla, könül qəmlə yüklənə.
Vay o gündən şair ömrü təklənə,
Şəmşir ilə qoşa yazdım şerimi.

III

Kəlbəcər dağları, salamat qalın,
Meylimi düzlərə salıb gedirəm.
Zirvələr önündə əyib başımı,
Dərin bir xəyala dalıb gedirəm.

Dünya yarıtmadı məni payından,
Nə ilindən doydum, nə də ayından.
Ceyran bulağından, Tərtər çayından,
Vurğunun ətrini alıb gedirəm.

Zəlimxan, alışıb yanmaqdır peşəm,
Gərək Fərhad olub qayalar deşəm.
Qurban ocağında közə dönmüşəm,
Şəmşirin sazını çalıb gedirəm!

IV

Təbiətin ürəyindən od aldı
Həm Fərhadı, həm Şirini dağların.
Sinəsində enər, qalxar avazlar,
Zil şöhrəti, bəm şirini dağların.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bulağı var, gözlərimdə dənizdi,
Çiçəyi var, bir solmayan bənizdi.
Mənə iki gözüm qədər əzizdi
Həm acısı, həm şirini dağların.

Nə yorular, nə bu yoldan bezərəm,
Ömrü-günü nəğmələrlə bəzərəm.
Ana yurdu Vurğun deyib gəzərəm,
Unutmaram Şəmşirini dağların!

V

Qartallar itirir qarlı zirvələr,
Dağ həsrət çəkəndə düzə dərd olur.
Ürəklər üşüyür od azalanda,
Külün çoxalmağı közə dərd olur.
Gədələr su tökür gur ocaqlara,
Bu da ağır gəlir, bizə dərd olur,
Dədələr azalır, ay Dədə Şəmşir!

Nərə Koroğluyla gedir dünyadan,
Kişnərti Qıratla bitir deyəsən.
Eyvazı seyrəlir çənlibellərin,
Həmzəsi cücərir, bitir deyəsən.
Yol var, yoxa çıxar gedən ucundan,
İz var, birdəfəlik itir deyəsən.
Dədələr azalır, ay Dədə Şəmşir!

Kəmər də qurşayır, papaq da qoyur,
Papaq da on dəfə başından baha.
Dünəni, keçmişi bilməyən aşıq
Görəsən, nə üzlə gedir sabaha?
Dayazlar o qədər artır, çoxalır,
Dərinlər meydanda görünmür daha.
Dədələr azalır, ay Dədə Şəmşir!

Hünər göstərənə kim ad verəcək,
Bir də yetirməsə vədə Qorqudu.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağsaqqal qədrini ağsaqqal bilər,
Başa tac bilərmi gədə, Qorqudu?
Bəlkə əlac tapa bəd əməllərə,
Sən özün danışdır Dədə Qorqudu.
Dədələr azalır, ay Dədə Şəmşir!

Kəlbəcər Qurbanı bir də yetirməz,
Qızılvəng elindən Alı gedibdi.
Axşamdan sabaha çəkən məclisin
Şərbəti azalıb, balı gedibdi.
Ələsgər köçəli qoca dünyadan,
Söhbətin naxışı, xalı gedibdi.
Dədələr azalır, ay Dədə Şəmşir!

Əlliyə çatmamış Vurğunum gedib,
Otuz beş yaşında Cəfərim mənim.
Yormaq istəmişəm uzun yolları,
Üzümə gülməyib səfərim mənim.
Omür uzatmağa, qanad verməyə
Çatmır cəsarətim, hünərim mənim.
Dədələr azalır, ay Dədə Şəmşir!

Hər gün bayram olmur dərd yalqız qala,
Ömrün yollarında ağrı, acı var.
Qayğısız kim çatar ucalıqlara,
Yaxşı ki həyatda ana-bacı var.
Nəvələr nə qədər şöhrət tapsa da,
Ulu babalara ehtiyacı var.
Dədələr azalır, ay Dədə Şəmşir!

VI

Neçə dəfə görüşünə gəlmişəm,
Güzarına qurban olum ustadın.
Gülüşündə qız isməti varıydı,
Qız arına qurban olum, ustadın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaman üçün oxtək atdı sözünü,
Yaxşı üçün bala qatdı sözünü.
Baha aldı, baha satdı sözünü,
Bazarına qurban olum ustadın.

Öyrənərdim hər kitabı, hər dini
Yaşadardım ozanların mərdini.
Tapa bilsəm daşıyardım dərdini,
Azarına qurban olum ustadın.

Haqq evində bir günahsız körpədi,
Ayrılığı elə ağır zərbədi.
Gözlərimdə bir müqəddəs türbədi
Məzarına qurban olum ustadın.

**HÜSEYN ARİF HAQQINDA XATİRƏ ŞEİRLƏRİ**

I

Hüseyn Ariflə, ustadımızla,
Hər yerdə Kərəmlə Lələ kimiydik.
Baş-başa verərdik eldə-obada,
Ruhlara saçılan şölə kimiydik.

Sərbəst dolanardıq, azad yaşardıq,
Kövrək duyğularla dolub daşardıq.
Vurğundan deyəndə vurğunlaşardıq,
Günəş ətrafında halə kimiydik.

Kür üstə Yəhya bəy Dilqəm olardıq,
Qəmli könüllərə həmdəm olardıq.
Ağrıya, acıya məlhəm olardıq,
Yaralar üstündə pilə kimiydik.

Əzizlər yanında əzizdən əziz,
Dənizlər yanında dalğalı dəniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Meh kimi ətirli, şeh kimi təmiz,
Çiçəklər üstündə jalə kimiydik.

Ürək geniş olsa, sığmaz darlığa,
Saçar işığını bütün varlığa.
Saxtalar içində saxtakarlığa
Tərsinə açılan şillə kimiydik.

Ağrılar çökəndə xalqın canına,
Kədərdən qolları düşdü yanına.
Qanımız dönəndə şəhid qanına
Çöllərdə qızaran lalə kimiydik.

Oğul dağı gördük, qız dağı gördük,
Dərd yükü daşıdıq, duz dağı gördük.
Canda qar qalağı, buz dağı gördük,
Ürəklər yandıran nalə kimiydik.

Qəlbimiz odluydu, ruhumuz sərin,
Sözümüz dadlıydı, eşqimiz dərin.
Bir azca turşməzə, bir az da şirin,
Narın pərdəsində gilə kimiydik.

Uymadıq sərvətə, baxmadıq zərə,
Gəzdik könüllərdən gül dərə-dərə.
Baharda qarışdıq çəmənliklərə
Qışda qar-boranlı çillə kimiydik.

Uçardı şəhərə, qaçardı kəndə,
Dünyası sığmazdı bərəyə, bəndə.
Şirin arzulardan söhbət düşəndə
Göylərə yüksələn pillə kimiydik.

Bilən tanıyardı izlərimizdən,
Arı bal çəkərdi sözlərimizdən.
Yağışlar yağardı gözlərimizdən,
Şəhlə dodaqları silə kimiydik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tez-tez xatırlardı igidi, əri,
Gahdan Zal qızını, gah İsgəndəri.
Nişana alanda böhtanı, şəri,
Bir qoşalülədə güllə kimiydik.

O mənə ataydı, mən ona oğul,
Mən ona ürəkdim, o mənə ağıl.
Uzun bir dastandı, şirin bir nağıl,
Damladan yağışa, selə kimiydik.

Orta yol yoxuydu istəyimizdə,
Ürəkdən dodağa, dilə kimiydik.
Yol gedən mən idim, yol göstərən o,
Hər yerdə Kərəmlə Lələ kimiydik.
Qağam bu dünyadan köçüb getsə də,
Allah yaxşı görür, yaxşı göstərir,
Obaya kimiydik, elə kimiydik.

II

**SƏNİ MƏNDƏN**
**SORUŞURLAR, AY QAĞA**

Xatirələr dindirəndi, dinəndi,
Hər nə varsa, xatirəyə dönəndi.
Şair ömrü ölümləri yenəndi,
Gözlərimdən heç getmirsən uzağa,
Səni məndən soruşurlar, ay qağa!

Ağacların albalısı, alçası,
Yaylaqların yaşıl çəmən xalçası,
Bulaqların lilpar adlı dolçası,
Həsrət ilə baxıb dosta, qonağa,
Səni məndən soruşurlar, ay qağa!

Qatarlanıb durna gəlir yanıma,
Cərgələnib sona gəlir yanıma.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğul dərdli ana gəlir yanıma,
Səndən ötrü düşüb səsə, sorağa
Səni məndən soruşurlar, ay qağa!

Çiçək dərən qız-gəlinə bir də bax,
Buz üstündə dağ kəlinə bir də bax.
Gözəlliyin heykəlinə bir də bax,
Cüyür enir, ceyran gəlir bulağa,
Səni məndən soruşurlar, ay qağa!

Qartaldımı qayalara ün salan,
Həsrətdimi saçlarıma dən salan,
Əcəldimi səni məndən gen salan,
Bülbül ötür, qumru qonur budağa –
Səni məndən soruşurlar, ay qağa!

Sızıldasa, arı şanım neyləsin,
Dərdi dərdə qarışanım neyləsin.
Neçə könlü pərişanım neyləsin,
Gözəllərin yaşı axır yanağa –
Səni məndən soruşurlar, ay qağa!

Yazılmayan varaqların ağ qalıb,
Şükür haqqa, yazdıqların sağ qalıb,
Mən nə deyim bu bağçaya, bu bağa?
Mən nə deyim oxunmamış kitaba?
Mən nə deyim yazılmamış varağa?
Səni məndən soruşurlar, ay qağa!

Dağda qarım, sünbülümdə dənimsən,
Hər dərdimə, həsrətimə qənimsən.
El bilir ki, sən hər zaman mənimsən,
Baş əyirəm uyuduğun torpağa.
Məni səndən ayrı salmaq çətindir,
Səni məndən soruşurlar, ay qağa!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏMMƏD ARAZ İŞIĞI**

*Dostum Mikayıl Mirzə ilə birlikdə sevimli xalq şairimiz Məmməd Arazın Novruz bayramını təbrik etmək üçün ustadın evinə ziyarətə getmişdik. Eyvanın işığı yanmırdı, elə bildik, evdə yoxdular. Qapını döydük Bizi şairin ömür- gün yoldaşı Gülxanım bacı qarşıladı. İşıqları yandırdı. İçəridə Məmməd Araz işığı ilə qarşılaşdıq.*

Yandır işığını Məmməd Arazın,
Yandır işığını, Gülxanım bacı!
Ürəyə köçürün, yaddaşa yazın,
Bu haqq aşığını, Gülxanım bacı!

Çağır köməyinə sən ilahini,
Qoyma bu işıqlar sönsün, ay Allah!
Qoyma göz önündə gəzən dahini
Adi bir insana dönsün, ay Allah!

Əlvan saraylara meydan oxuyar,
Evində işığı keçən şairlər.
Sözdən hana qurar, xalı toxuyar,
Xalqın yaddaşına köçən şairlər.

Yandır işığını Məmməd Arazın,
İlhamın danışan dili susmasın.
Şair ürəyində dil açan sazın
Bəmi seyrəlməsin, zili susmasın.

Çeşməyə, çəmənə, dərəyə, dağa
Bir gün Günəş doğar, bir gün çən gələr.
Zülmət ürəkləri nurlandırmağa
İşıq şairlərin evindən gələr.

Heyif, Xəlil Rza sağ olaydı kaş,
Bugünkü görüşə o da gələrdi.
Yaraşıq verərdi qardaşa qardaş,
Vurardı özünü oda, gələrdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ruhlar durulardı, təzələnərdi,
Könüllər meylənər, məzələnərdi.
Fikirlər, duyğular çözələnərdi,
Şirin xatirələr yada gələrdi.

Göydən endirərdik ulduzu,
Ayı, Şerin işığında içərdik çayı.
Nur kimi enərdi Tanrının payı,
Yerdən də, göydən də səda gələrdi.

Yandır işığını Məmməd Arazın,
Orda Mikayıl var, Xəlil Rza var.
Sən allah, o nuru sönməyə qoyma,
Harda qaranlıq var, orda qəza var.

Qoy dünya düşməsin şair gözündən,
Dəhliz də, eyvan da, otaq da yansın.
Alsın öz odunu şair sözündən,
Masa da, qələm də, varaq da yansın.

Saymaqla tükənməz ağrılar, dərdlər,
Necə göynəməsin ürəklərimiz?
Ehtiyac ucundan, qayğı ucundan,
Nə qədər işıqlar söndürmüşük biz.

İşığı özünsən şair ömrünün,
Cəfakeş bir ömür yaşayan qadın.
Düz otuz ildir ki, Məmməd Arazın
Alıb daş yükünü daşıyan qadın.

Ürəyi incəldib, ipə döndərib,
Bədəni qurudub, çöpə döndərib.
Qəlbin tellərini sapa döndərib
Bu, sənət yüküdür, Gülxanım bacı!

"Atamın kitabı" kitabdı, yazdı,
"Üç oğul anası" əzabdı, yazdı.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bağrı şiş ucunda kababdı, yazdı,
Bu, sənət yüküdür, Gülxanım bacı!

İşıqsan, çıraqsan Məmməd Araza,
Silahsan, yaraqsan Məmməd Araza.
Ən böyük dayaqsan Məmməd Araza,
Bu, qeyrət yüküdür, Gülxanım bacı!

Sərt yolları sənintək "mərd bir qadınla keçdi,
Bütün keçilməzliyi sənin adınla keçdi!"
İşığı sönmədi Məmməd Arazın.
Nə özü, nə sözü, nə əqidəsi
Yolundan dönmədi Məmməd Arazın!

O ki bir torpağın yazan qələmi,
O ki bir millətin yazan əlidi.
Zülmət bürüsə də bütün aləmi,
Şairin işığı sönməməlidi!

Bu işıq sayğacla ölçülməz, bacım,
Tanrı işığıdır, kiçilməz, bacım.
Baxma, Məmməd Araz xərc içindədir,
Baxma, Məmməd Araz borc içindədir!
Allahın əliylə yanan işıqlar
Kəhkəşan qoynunda, bürc içindədir!

## MƏMMƏD ARAZ VAR

Adını soruşub, hardadır demə,
Yurdun hər dağında Məmməd Araz var.
Ərənlər səsidi "Ərimgəldi"də,
İsa bulağında Məmməd Araz var.

İlham qanındadı, söz mayasında,
İzi var Vətənin hər qayasında.
Gəlin ismətində, qız həyasında,
Körpə dodağında Məmməd Araz var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər sözün başına bir sığal çəkər,
Başı söz üstündə qilü-qal çəkər.
Zəhmətkeş arıdı, sözdən bal çəkər,
Gülün budağında Məmməd Araz var.

Dünya şairidi dünya yaşında,
Dilini biləndi dilsiz daşın da.
Qaya mamırında, daş yaddaşında,
Palıd yarpağında Məmməd Araz var.

Baxışı buluddan nəm çəkən oldu,
Ürəyi sükutdan qəm çəkən oldu.
Qəmli könüllərə sim çəkən oldu,
Saçların ağında Məmməd Araz var.

Yetişib Təbrizə, qovuşub Qarsa,
Eşitsin, dünyanın qulağı karsa.
Harda Araz üstə bir körpü varsa,
Onun hər tağında Məmməd Araz var.

Ömür naxışına vurulan həvə,
Get-gəl bazarında yük çəkən dəvə.
Nizamiyə oğul, Sabirə nəvə,
Vaxtın hər çağında Məmməd Araz var.

Qəmli fikirlərin çənində azar,
Ata bir məzardı, ana bir məzar.
Bacısı Gülsümə məktublar yazar,
İnfil ocağında Məmməd Araz var.

Dönüb sərvətimə, dönüb zərimə,
Misrası dərmandı dərdi-sərimə.
Sol gözüm yuvadı əzizlərimə,
Gözümün sağında Məmməd Araz var.

Vurduğu rəngə bax, açdığı izə,
Şöhrəti zamanı gətirər dizə.
Allah! Bu Vətəni çox görmə bizə,
Vətən torpağında Məmməd Araz var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XƏLİL RZAYA AĞI

*1994-cü il iyunun 23-ü günü Xəlil Rzanı Fəxri Xiyabanda torpağa tapşırdıq. Bütün günü öz-özümə gümüldənə-gümüldənə oxşama deyib, onun ömrünü- gününü bayatıya, laylaya tutmuşam.*

Sənə necə layla çalım,
Din-imanım Xəlil Rza!
Sənsiz ötüb-keçən deyil
Bircə anım, Xəlil Rza!

Altım üstümə çevrildi,
Duman tüstümə çevrildi.
Dünya qəsdimə çevrildi,
Axdı qanım, Xəlil Rza!

Can əriyən şama döndü,
Saraylarım dama döndü.
Zülmət bir axşama döndü,
Nurlu danım, Xəlil Rza!

Sənsiz necə dağlar yarım?
Bütöv idim, qaldım yarım.
Güldən şirə çəkməz arım,
Dolmaz şanım, Xəlil Rza!

Ovçu vurmuş bir ovsanmış,
Saçımdakı qrovsanmış.
Canımdakı alovsanmış,
Yandı canım, Xəlil Rza!

Dərdi yalqız çəkə-çəkə
Saldın bizi dərdə, Xəlil!
Min kişinin gücü vardı
Sənin kimi ərdə, Xəlil!

Əllərində əsa gəlib,
Yollar basa-basa gəlib,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axıb bu gün yasa gəlib,
Təbriz, Gəncə, Bərdə, Xəlil!

Könülləri yapanıydın,
Köhlənini çapanıydın.
Xəzinələr tapanıydın
Alındakı tərdo, Xəlil!

Könlümüzdə dünya vardı,
Səsimizdə ziya vardı.
Üzümüzdə həya vardı,
Aramızda pərdə, Xəlil!

Duman çatıq qaşım olsun,
Dəryalar göz yaşım olsun.
Qurban mənim başım olsun,
Sənin kimi mərdə, Xəlil!

Səni necə haraylayım,
Rzasanmı, Təbrizsənmi?
Təbriz əldən gedən gündən
Saralmış bir bənizsənmiş!

Sürdüyün bu dövran nədi,
Açdığın bu meydan nədi,
Başındakı tufan nədi,
Şahə qalxan dənizsənmi?

Ölən insan, uçan evdi,
Ömür sudu, əcəl devdi.
Ölüm səni nə tez sevdi,
Əzizlərdən əzizsənmiş!

Firəngizin göz yaşları
Xəzərmi görən, ay Xəlil?!
Bircə addım səndən ayrı
Gəzərmi görən, ay Xəlil?!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ona qəbrin daşı yarmı,
Həsrət yükü daşıyarmı.
Həyat deyib yaşıyarmı,
Bezərmi görən, ay Xəlil?!

Axtarandı hər itirən,
Tapar sərvət, zər itirən.
Xəlil kimi ər itirən
Dözərmi görən, ay Xəlil?!

Xəlil Rza öldü desəm,
Ağzımda dilim qurusun.
Ağacda yarpağım yansın,
Budaqda gülüm qurusun.

Döyüşdə şiri yoxdusa,
Səcdəsi, piri yoxdusa,
Yurdun şairi yoxdusa,
Çəmənim, çölüm qurusun.

Xəlil Rza, elə çax ki,
Elə yandır, elə yax ki,
Sərt baxışla elə bax ki,
Qorxudan ölüm qurusun!

Sən deyirdin dəyirmanlar –
Gərək bizi üyütməsin.
Sevgimizə qənim olub,
Dərdimizi böyütməsin.

Yıxıldı yalançı miflər,
Heçə döndü qəlbi kiflər.
Nə təriflər, nə təltiflər
Ruhumuzu uyutmasın.

Xalqa sadiq olan kəslər,
İçində bir Vətən bəslər.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bayquş səslər, buz nəfəslər
Əlimizi soyutmasın.

Gördün zülüm, çəkdin ağrı,
Sənsən xalqın yanan bağrı.
Sən qayıtdın xalqa doğru,
Kim qayıtmır, qayıtmasın!

Zaman-zaman torpağına
Gül səpərlər yaş yerinə.
Təmiz ruhun, pak nəfəsin
Yaz gətirər qış yerinə.

Can ağrılı, qulaq səsdə,
Ellər gəlir dəstə-dəstə.
Qardaş, bu gün qəbrin üstə
Dayanmışam daş yerinə.

* * *

Bu ağır həsrətdən sellərə dönüb,
Tökülən yaşlara qurbanam, Ustad!
Qalxan yumruqlara, enən əllərə,
Çatılan qaşlara qurbanam, Ustad!

Saralan üzlərə, solan gözlərə,
Bükülən bellərə, əsən dizlərə,
Nəmli kirpiklərə, ağ bənizlərə,
Küskün baxışlara qurbanam, Ustad!

Necə təmizlənim dərdin pasından,
Gözümüz açılmır xalqın yasından.
Atalı-balalı öz yuvasından
Perikən quşlara qurbanam, Ustad!

Keçirdin ömrünü tufan içində,
Min qada içində, min qan içində.
Tək bircə gecədə zindan içində
Ağaran saçlara qurbanam, Ustad!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nisgil ürəkləri dağıdır, sökür,
Dərd ağır gələndə dağ da diz çökür.
Dəmində göylər də göz yaşı tökür,
Yağan yağışlara qurbanam, Ustad!

Bu ölməzlik hara, bu ölüm hara,
Heç kəs bu gedişdən geyməsin qara.
Fəxri xiyabanda fəxri məzara
Əyilən başlara qurbanam, Ustad!

*23 iyun 1994*

## ŞERİMİZ

Zaman-zaman ömrə-ömür caladı,
Şeh nurundan saflıq əmən şerimiz.
Təbiəti bizə daş-daş tanıtdı,
Qızıl tala, yaşıl çəmən şerimiz.

Əslimizin, soyumuzun dilidi,
Yasımızın, toyumuzun dilidi.
Odumuzun, suyumuzun dilidi,
Odda yanan, qanda çimən şerimiz.

Könülləri otaq-otaq gəzəndi,
Dərdimizi bir baxışdan sezəndi.
Bayram günü gəlin kimi bəzəndi,
Dava günü kəfən geydi şerimiz.

Yük daşıyıb, yük apardı, yük atdı,
Öz ruhunu meydanlara tək atdı.
Qayaların ciyərinə kök atdı,
Palıd kimi dağda bitən şerimiz.

İtən yurdum, batan kəndim ağlayır,
Hecam, misram, beytim, bəndim ağlayır.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Gah Təbrizim, gah Dərbəndim ağlayır,
Yaralıdı bizim Vətən şerimiz.

Danılmazdı, həqiqətdi, doğrudu,
Nəsimidə bir üsyandı, ağrıdı.
Füzulinin köz-köz olan bağrıdı,
Vaqifdəki o gülbədən şerimiz.

Təmiz südü, halal kökü, saf andı,
Təriqətdi, şəriətdi, ürfandı.
Sabir adlı zəlzələdi, tufandı,
Qara bağrı zədən-zədən şerimiz.

Cavabıdı hər sualın, sorğunun,
Ahəngidi bu nizamın, qurğunun.
Göz yaşıdı Şəhriyarın, Vurğunun,
Öz dərdini dil-dil ötən şerimiz.

Vaxtdan-vaxta, andan-ana doğrudur,
Candan ruha, ruhdan cana doğrudur.
Yaranmışdan yaradana doğrudur,
Səs-sorağı haqqa yetən şerimiz.

*6 mart 2005*

**PİR KİMİ BAXDIM**

Gözəl üzlər, gül çöhrələr
        gözəlləşdirdi dünyanı.
Alov saçan ürəklərə
        odlu təndir kimi baxdım.
Yerində deyilən sözlər
        şərəfim, şöhrətim oldu.
Yerinə düşməyən sözə
        acı təhqir kimi baxdım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tanrıdan aldığı nuru
bol-bol insana payladı,
Hər kim ağsaqqal oldusa,
ziyarət, pir kimi baxdım.
Çox-çox arzulayan oldu,
az-az insanlara çatdı,
Ağsaqqala möcüzətək,
müqəddəs sirr kimi baxdım.

Özü haqdan, sözü haqdan,
ilhamı haqdan gələnə,
Sözdə Səməd Vurğun kimi,
sazda Şəmşir kimi baxdım.
Sevgi doldu ürəyimə
tək olan Allahım kimi.
Birliyinə baş endirdim,
birimə pir kimi baxdım.

Sazın-sözün meydanında
Zəlimxan heç qısılmadı.
Mən ona harda baxdımsa,
şir oğlu şir kimi baxdım.

*14 noyabr 2004*

**ŞAİRLİK**

Ətəklərin genişi, zirvələrin ucası,
Çinarların nəhəngi, palıdların qocası,
Qartalların uçuşu, qayaların haçası,
Yerin, göyün ləngəri məni şair elədi!

Sözünü, söhbətini şirin dedi, xoş dedi,
"Ömrün bircə anı da qoy keçməsin boş", - dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Dəniz kimi dalğalan, çaylar kimi coş", - dedi,
Haqqın eşqi, əsəri məni şair elədi!

Bir yaxşılıq görəndə yumşaldım, mehə döndüm,
Bir gözəllik görəndə duruldum, şehə döndüm,
Bir xəyanət görəndə polad zirehə döndüm,
Sözün hökmü, kəsəri məni şair elədi!

Dağlar üçün qəlbimin titrəməsi, əsməsi,
Yüz bilənin başını bir bilənin kəsməsi,
Səhər-səhər ruhumun çöllərə tələsməsi,
Ömrün neçə səfəri məni şair elədi!

Ünü göylərdən gəlir qəlbə daman səslərin,
Qarşısına haqq çıxar haqq axtaran kəslərin.
Əqidə cəfakeşi əsil müqəddəslərin
Haqdan gələn xəbəri məni şair elədi!

Min illik kədər yatır hər havanın bəmində,
Dünyaların dərdi var bir insanın qəmində.
Hönkürüb ağlamışam yasında, matəmində,
Elin dərdi, kədəri məni şair elədi!

Sazdan qopan haraydı, tardan qalxan nalədi,
Göz yaşlarım könlümə tökülən şəlalədi.
Solan hər insan ömrü bağrı yanmış lalədi,
Könüllərin qəhəri məni şair elədi!

Alçağın, kəmfürsətin həzər, əlindən həzər,
Addımbaşı susdurub, vurmağa fürsət gəzər.
Didərdi pəncəsində, parçalardı bəd nəzər,
Tanrının xoş nəzəri məni şair elədi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏN HARDAN BİLƏRDİM
ŞAİRLİK NƏDİR**

Keçilməz dərələr keçilməsəydi,
Aşılmaz zirvələr aşılmasaydı,
Yeldən qanad alıb, seldən güc alıb,
Ruhum küləklərə qoşulmasaydı
Mən hardan bilərdim şairlik nədir?

Torpaqdan, toxumdan, dəndən gəlməsəm,
Qurandan, kitabdan, dindən gəlməsəm,
Dərdi çoxalanda yerdəkilərin
Göylərə saldığı gündən gəlməsəm,
Mən hardan bilərdim şairlik nədir?

Minadan gəlməsəm, Turdan gəlməsəm,
Allahın verdiyi nurdan gəlməsəm,
Sinəmi saz edib, əlimi mizrab,
Qopuzdan, Qorquddan, qordan gəlməsəm,
Mən hardan bilərdim şairlik nədir?

Gedir qismətinə, bəxtinə sarı,
Yorulmur qarışqa, dincəlmir arı.
Qəlbimi riqqətə gətirməsəydi
Ana təbiətin yaratdıqları,
Mən hardan bilərdim şairlik nədir?

Fələklər sirdaşı, mələklər yarı,
Hər misra şairin sərvəti, varı.
Qulaq eşitməsə, könül duymasa
Göylərdən süzülən pıçıltıları,
Mən hardan bilərdim şairlik nədir?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏN SÖZÜN ANASI

Tanrının sözünə dirsəklənmişəm,
Söz - yaşıl yamacım, söz - talam mənim.
Yeddidən yetmişə rəngi gözümdə,
Söz - gülüm, gülşənim, söz - lalam mənim.

Dilimdə ilk kəlmə dinəndən bəri,
Söz oldu ömrümün sərvəti, zəri.
Mənəm sərkərdəsi, mənəm əsgəri,
Söz - daşım, divarım, söz - qalam mənim.

Yoğurdum, başımda ağıl elədim,
Dastana çevirdim, nağıl elədim.
Böyütdüm, bəslədim, oğul elədim,
Mən sözün anası, söz - balam mənim.

*28 yanvur 2005*

## ŞAİR QƏLƏMİYLƏ İŞİN OLMASIN

*Bir nadanın atdığı daşa cavab*

Mənə o qələmi nə sənin dədən,
Nə vəzir, nə vəkil, nə də şah verib.
Ona söz atmasın hər gəlib gedən,
Onu Zəlimxana bir Allah verib.

Yaz deyib sevinci, yaz deyib qəmi,
Fitnəyə verməyib, fəndə verməyib.
Allahdan almışam mən o qələmi,
Mənə o qələmi bəndə verməyib.

Qələm sındırmağa yaranmamışam,
Hünərin çatırsa, gəl, sındır onu.
Əgər bacarırsan, tək bircə axşam
Yazmaq həvəsindən daşındır onu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qələmin dünyası ocaqdı, pirdi,
Qələm sındıranlar şümürdü, bala.
Bu nifrət nə zaman qəlbinə girdi,
İçini nə zaman gəmirdi, bala?

Baxdım bostanıma atılan daşa,
Əl sənin əlindi, daş sənin deyil.
Gülməli səhnədi, qəmli tamaşa,
Ağıl özgənindi, baş sənin deyil.

Sən daş at, mən sənə pambıq atacam,
Yaralı canımı daş ağrıtsa da.
Boş dedi-qodular gəldi-gedərdi,
Könüllər sındırıb, baş ağrıtsa da.

Səni kim bu yola çəkib, aparıb,
At getsin, fırlansın, daş ona dəysin.
Sonradan başıma qaxınc etdiyin
Əvvəlki sevgin də başına dəysin.

Haqqın qəzəbinə gələrsən, bala,
Bu qələm "Saz" yazıb, "Ələsgər" yazıb.
İmrələr sözüylə çatıb vüsala,
Hər ulu kişiyə bir əsər yazıb.

Hər sevgi, hər barış bir yeni dastan,
Nifrət qəzəblərə, nifrət kinlərə.
Bu qələm dərs alıb Dərviş Yunusdan,
Bu qələm yas tutub "Didərginlər"ə.

Ey qələm sındırmaq istəyən naşı,
Allahın danışan dilidir qələm.
Şairin əlində od parçasıdı,
Cahilin əlində ölüdür qələm.

Fərhad külüngüdü Şirin yolunda,
Hasardı, qaladı şərin yolunda.
Can verib ocağın, pirin yolunda,
Ulu ustadların yoludur qələm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göydə bir mələkdi, yerdə pəridi,
Yanan üfüqlərin parlaq zəridi.
Coşanda Koroğlu dəliləridi,
Sevəndə Məcnuntək dəlidir qələm.

Dərvişdi, ozandı, eldi, aşıqdı,
Yaradan əllərə bir yaraşıqdı.
Harda qaranlıq var, orda işıqdı,
İnsanın xilaskar əlidir qələm.

## DADALOĞLUNA

*Qalxdı köç eylədi əfşar elləri,*
*Ağır-ağır gedən ellər bizimdi.*

**Dadaloğlu**

Yerindən oynadı Oğuz elləri,
Qismətin köç oldu, ay Dadaloğlu!
Barxanan dağıldı, barın talandı,
Yurd-yuvan heç oldu, ay Dadaloğlu!

Cığırlar qızardı, izlər qanadı,
Qanlı yoxuşlarda dizlər qanadı.
Dırnaqlar qanatdı, üzlər qanadı,
Yolunan saç oldu, ay Dadaloğlu!

Çar qılınc oynatdı, fərman verdi şah,
Gülmədi üzlərə açılan sabah.
Nə səndə taqsir var, nə məndə günah,
Şeytanda suç oldu, ay Dadaloğlu!

Cağırsam, Tanrı da gəlməz karıma,
Allah da inanmır beh-bazarıma.
Heyif ümidimə, arzularıma,
Hamısı puç oldu, ay Dadaloğlu!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qıpçaq kişiləri, Oğuz bəyləri,
Ağüzlü tarixin ağ üz bəyləri,
İndiki kişilər kağız bəyləri,
Son sözü "qaç" oldu, ay Dadaloğlu!

Yaranı vurdular yaranın üstə,
Yeriş elədilər Turanın üstə.
Başım nələr çəkdi Quranın üstə,
Qənimim xaç oldu, ay Dadaloğlu!

*27avqus,*

## "BƏHMƏN VƏTƏNOĞLUNA MƏKTUBLAR" SİLSİLƏSİNDƏN

### I

### DAĞLAR

Səndən ayrılanda bir ah çəkmişəm,
Kərəmtək yandırıb ah məni, dağlar!
Daramır saçımı sənsiz küləklər,
Sənsiz heç oxşamır meh məni, dağlar!

Şirin görüşlərin ömrü kəm olar,
Gözüm yaşla dolar, könlüm qəm olar.
Cənnətim çevrilib cəhənnəm olar,
Olmasam dağların mehmanı, dağlar!

Hər dərddən xəbərdar, hər işdən halı,
Şairdi daşıyan min qilü-qalı.
Zəlimxan düşsə də səndən aralı,
Saxla gözün üstə Bəhməni, dağlar!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

II

GÖNDƏRİM

Bəhmən, hədələrdən qorunmaq üçün
Yarağın yoxdursa, yaraq göndərim.
Dərdini deməyə dərdli bir qələm,
Şerini yazmağa varaq göndərim.

Qoşun bil, özünü təkləmə, qardaş,
Ürəyi bu qədər yükləmə, qardaş.
Qəlbi qəm üstünə kökləmə, qardaş,
Lazımsa, eşqimi dayaq göndərim.

Cam olum, içməyə camın yoxdusa,
Tam olum, dadmağa tamın yoxdusa,
Gecə yandırmağa şamın yoxdusa,
İki gözlərimi çıraq göndərim!

Ellərə doğmadır şairin səsi,
Mən necə sevməyim el sevən kəsi?
Geniş aç qapını, ay ev yiyəsi,
Şair Zəlimxanı qonaq göndərim!

**NƏ TƏMİZ YARADIB**

*Əsil insan, gözəl alim, ağsaqqalım, qayğıkesim,*
*xeyirxahım Camal Mustafayevə*

Özütək incədir, zərifdir deyə,
Çiçoklər baş əyir duyğularına.
Təbiət istəyir al-əlvan geyə,
Güllər də güvənir qayğılarına!

Alışanda Kərəm, sızlayanda saz,
Göy kimi ağlayan görmüşəm səni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Duyan bir ürəkdə qüdrət azalmaz,
Həmişə çağlayan görmüşəm səni!

Görmüşəm, səni də salıb sehrinə
Cığalı müxəmməs, cığalı təcnis.
Sevgidən, fərəhdən qabarıb sinə,
Çəkəndə ruhuna sığalı təcnis.

Gəncliyəm, eşqimi yaşatmaq üçün
Yaz gülüm olarsan, qış qarım mənim.
Adın şöhrət olar qarlı dağ üçün,
Bir boy da ucalar Qoşqarım mənim!

Deyir peyğəmbərdi eşidən, bilən,
Qoy öpsün hər çiçək, hər yarpaq səni.
Qara palçığına qurban olum mən,
Nə təmiz yaradıb bu torpaq səni!

**KİMDİ**

*Məfhur türk aşığı Səbri Şimşak*
*oğlunun lent yazılarını dinlərkən*

Şimşəkoğlu, səsindəki oda qurban,
Yandırırsan, yanan kimdi, sönən kimdi?
Kimlər sənə vədə verdi, yalan çıxdı,
İlqar verib, ilqarından dönən kimdi?

Bu səsdimi, haraydımı, nalədimi,
Yanmış Kərəm, qara batmış Lələdimi,
Daşıdığın dağdan ağır şələdimi,
Qəm altında boyun büküb sinən kimdi?

Bəlkə Qırat yəhərsizdi, nalı yoxdu,
Bəlkə daha qızbirçəkli nah yoxdu.
Bolkə daha Koroğlunun halı yoxdu,
Qocalanda dəli köhlən minən kimdi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İncitdimi xotkar səni, paşa səni,
Çekdilərmi bərkə səni, boşa səni.
Qərib olmaq döndərdimi daşa səni,
Yenilməyən qeyrətini yenən kimdi?

Dilindəki layladımı, ağıdımı,
Sinəndəki min həsrətin dağıdımı,
Ayrılıqlar yenə bizə yağıdımı,
Düşmənimiz dünən kimdi, bu gün kimdi?

Şimşəkoğlu, gəl, bir yazaq yazımızı,
Şimşəkoğlu, gəl, bir çəkək nazımızı,
Zəlimxanla qoşa çalaq sazımızı,
Dünya görsün qalxan kimdi, enən kimdi?

*1989*

**AŞIQ KAMANDARA**

Əkdiyin gülləri, gəzdiyin bağı,
Bağban ol, doyunca qoxla, Kamandar!
Vaxtsız ayrılığı, vədəsiz köçü,
Sazın ovsunuyla oxla, Kamandar!

Zaman yağdırsa da saça qarını,
Vermisən ellərə eşqin barını.
Tərlan duruşunu, şah vüqarını,
Yüzdə də beləcə saxla, Kamandar!

Dil ver avazınla lal qayalara,
Dilindən süzülsün bal qayalara.
Taleyin bənzəsin sal qayalara,
Nə əyil, nə də ki laxla, Kamandar!

Ruhunla Qorqudtək qocalardasan,
Ahınla tüstülü bacalardasan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəndə dərgahından ucalardasan,
Tanrı dərgahını haxla, Kamandar!

Əsən küləklərlə yarışmağı var,
Sellərə-sulara qarışmağı var.
Şairdi, küsməyi, barışmağı var,
Hərdən Zəlimxanı yoxla, Kamandar!

**MƏMMƏD ASLANA**

Harda gül görürsə, ayaq saxlayır,
Çiçək dəlisiymiş şair olanlar.
Açar sinəsini dəli yellərə,
Külək dəlisiymiş şair olanlar.

Çeşmələr laylası, çaylar bəstəsi,
Saz ruhu, ney canı, tar şikəstəsi.
Məhəbbət ölüsü, gözəl xəstəsi,
Mələk dəlisiymiş şair olanlar.

Yerin sinəsində kükrəyər, axar,
Göyün sinəsində gurlayar, çaxar.
Dünyaya qəlbinin gözüylə baxar,
Ürək dəlisiymiş şair olanlar.

Eşqin dumanında azmaq istədi,
Nizamı qaydanı pozmaq istədi.
Şerini göylərə yazmaq istədi,
Lələk dəlisiymiş şair olanlar.

İçində bir od var qaynayar, daşar,
Yolu düz yeriməz, çaşdırar, çaşar.
Arzuyla böyüyər, xəyalla yaşar,
Dilək dəlisiymiş şair olanlar.

Vara göz yumandı, yox dəlisidi,
Allahın gözləri tox dəlisidi,
Şairlər hamısı haqq dəlisidi,
Fələk dəlisiymiş şair olanlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HABİL**

Yandıra-yandıra yaşadır ömrü,
Ümiddi, şübhədi, gümandı Habil.
Açılsa, dağlarda açılan Günəş,
Tutulsa, dağlarda dumandı Habil.

Əriyir dağların minillik qan,
Olmaq yar həsrəti, göynədir yarı.
Yaxşıdan yaxşıdı, Sarıdan sarı,
Yamandan min dəfə yamandı Habil.

Yaradır xallarda saflıq, dərinlik,
Qoşadır qəlbində odla sərinlik.
Nəğmədən həzinlik, səsdən şirinlik,
Həyatdan ölməzlik umandı Habil.

Kimdi son ümidin əlində qalan,
İçməsin dərmanı, yalandır, yalan.
Xəstəni ölümün əlindən alan
İzindi, möhlətdi, amandı Habil!

**ÖLDÜRÜR**

*Bu şeir Ağdaş rayonunda, böyük şairimiz Maqsud Şeyxzadənin anadan olmasının 85 illiyi ilə bağlı məclisdə xanəndə Ağaxan Abdullayevin ilahi dərəcədə gözəl çıxışından sonra yazılmışdır.*

Ellər, məni ürəyimdən axıb gedən qan öldürür,
Muğam adlı bir sehrkar, səs adlı bir can öldürür.

Nə dünənin həsrətində, nə sabahın eşqindəyəm,
Məni bu gün yaşadığım müqəddəs bir an öldürür.

Atəş kimi qarsaladı "Segah"ın fəryadı məni,
Bu atəşdən yayınmağa yoxdu bir imkan, öldürür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu nə səsdi, bəlkə bu gün həzrəti Davud dirilib,
Heyranların heyranıyam, məni bu heyran öldürür.

Allah belə ölümləri duyanlara çox görməsin,
"Şüştər" bu gün verib yenə qətlimə fərman, öldürür.

Məni sevən dostuma bax, çevrilib cəlladım olub,
Vallah, Zəlimxan ölməzdi, onu Ağaxan öldürür.

## GƏTİRƏ

*Bu şeir qarmonçalan Rəhmanın filarmoniyada keçirilən yaradıcılıq gecəsində oxunmuşdur.*

Çəkilə zülmət gecələr, vaxt üzümə dan gətirə,
Azadlığın səhər yeli cansıza da can gətirə.

Gözlədiyim o günləri öz vaxtında gətirməsə,
Qorxum budur, həsrət mənim gözlərimə qan gətirə.

Görüş yeri Təbriz ola, sevdamız bir dəniz ola,
Bu görüşlər ömrümüzə ən istəkli an gətirə.

Vurğun ilə Şəhriyarın səsi gələ qulaqlara,
Bir millətin tarixinə şərəf verə, şan gətirə.

Seyid, Cabbar şad xəbərə məzarından baş qaldıra
Qarabağdan məclisimə şikəstəni Xan gətirə.

Durna kimi səf-səf ola Azərbaycan gözəlləri,
Elin bayram günlərinə gül dərə, reyhan gətirə.

Kamil yenə qaboy çala, yandıra Habil kamanı,
Uzaq yollar yaxın ola, qarmonu Rəhman gətirə.

Ulu Tanrı, eşit məni, rəhm elə Rəhmanımıza
Bəlkə, onun barmaqları dərdlərə dərman gətirə.

Haqqın səsi bayraq ola, Bakı, Təbriz qucaqlaşa,
Bu xoş günün müjdəsini xalqa Zəlimxan gətirə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QAN DAMLATSAN, CAN BİTƏR**

İstanbulda bizi - bir qrup Azərbaycan ziyalısını "Zaman" qəzetinin redaksiyasına dəvət eləmişdilər. Xalqımızın, torpaqlarımızın ağrılı-acılı taleyindən qızğın və göynərtili söhbətlər gedirdi. Qəzetin baş redaktoru Nacib Tosun Azərbaycan torpaqlarına qan damlatsan can bitər" - deyib ağladı. Ürəkləri titrədən bu mənzərədən hamının gözləri yaşardı. Bu unudulmaz görüşdən mənə kövrək misralar yadigar qaldı.

Gözəl dedin, arkadaşım, qardaşım,
Bu torpağa qan damlatsan, can bitər!
Könüldaşım, məsləkdaşım, qandaşım,
Yer şumlanar, toxum düşər, dən bitər.
Bu torpağa qan damlatsan, can bitər!

Ala bilməz nə müxənnət, nə yağı,
Qeyrətimdi millətimin dayağı.
Palıd durar sal qayalar sayağı,
Çinar qalxıb zirvələrlə tən bitər.
Bu torpağa qan damlatsan, can bitər!

Bu torpaqdı, hey yoğrular, yapılar,
Hər qarışı məbəd kimi öpülər.
Haqqın sözü cərgələnər, səpilər,
İnsaf bitər, iman bitər, din bitər.
Bu torpağa qan damlatsan, can bitər!

Düşmən sayar hər yamanı, hər bədi,
Tutduğu yol haqsızlığa zərbədi.
Hər məzarı bir müqəddəs türbədi,
Bu torpağa qan damlatsan, can bitər!

Dağlarından dözüm alıb səbrimiz,
Sinəsində ruhum naxış, qəbrim iz.
Qucağında çiçək açar qəbrimiz,
Bu torpağa qan damlatsan, can bitər!

Aya, günə tən yeriyəm dünyanın,
İşığıyam, dan yeriyəm dünyanın,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir tükənməz dən yeriyəm dünyanın,
Kim becərsə, şöhrət bitər, şan bitər.
Bu torpağa qan damlatsan, can bitər!

Ondan ayrı saçlarıma dən düşər,
Bulud enər, gözlərimə çən düşər,
Hansı alma budağından gen düşər,
Hansı budaq gövdəsindən yan bitər?
Bu torpağa qan damlatsan, can bitər!

Amanımı payız kəsər, qış qırar,
Ruhum yenə "Vətən" deyib qışqırar.
Hər zərrədən şəhid qanı fışqırar,
Bu torpağa qan damlatsan, can bitər!

Hədər yerə vaxtı, anı itirməz,
Canda ruhu, ruhda canı itirməz.
Öldürsə də, Zəlimxanı itirməz
Sabah yenə xan göyərər, xan bitər
Bu torpağa qan damlatsan, can bitər!

*İstanbul, yanvar, 1994*

**HAQQI AXTARA-AXTARA**

Haqqı axtaranlar gəlsin yanıma,
Haqqın, ədalətin əsasıyam mən.
Məkkə, Mədinədi ziyarətimiz,
O zəmzəm suyunun kasasıyam mən.

**Oruc Əlizadə**

Üz tutduq gələn sabaha,
Haqqı axtara-axtara.
Əl açdıq qadir Allaha,
Haqqı axtara-axtara.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dəmir əsalar əyildi,
Dəmir çarıqlar yeyildi.
Kimi döydü, kim döyüldü,
Haqqı axtara-axtara.

Əzildik, quma çevrildik,
Yumşaldıq, muma çevrildik.
Əkildik, şuma çevrildik
Haqqı axtara-axtara.
Kimi oğru, kimi doğru,
Daşıdıq dərd, çəkdik ağrı.
Haqq deyənin yandı bağrı,
Haqqı axtara-axtara.
Dəvələr itdi səhrada,
Gəmilər batdı dəryada.
Könüllər gəldi fəryada
Haqqı axtara-axtara.
Süzüldük eşqin camına,
Yağ olduq yanan şamına.
Döndük Allah adamına,
Haqqı axtara-axtara.
Sel tökülür çaya doğru,
Çay axır dəryaya doğru,
Dəniz baxır Aya doğru,
Haqqı axtara-axtara.
Zirvələr boylanır göyə,
Bəlkə haqqı gördüm deyə.
Qamışlar da döndü neyə,
Haqqı axtara-axtara.
Çox yolçular dizdən oldu,
Dağdan oldu, düzdən oldu.
Çox gözlülər gözdən oldu
Haqqı axtara-axtara.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Var olan yoxa çəkildi,
Dağ uçdu, arxa çəkildi,
İsa çarmıxa çəkildi
Haqqı axtara-axtara.

Nəfəs dərdik, cana gəldik,
Dolduq, ətə-qana gəldik,
İncilə, Qurana gəldik
Haqqı axtara-axtara.

Baxmadı xərcə-xəraca,
Hac deyənlər getdi haca.
Məhəmməd çıxdı meraca
Haqqı axtara-axtara.

Əqidə, məslək tacımız,
"Ənəlhəq"dir əlacımız.
Öldü Mənsur Həllacımız
Haqqı axtara-axtara.

Çox qayalar çapasıyıq,
Çox qalalar yapasıyıq.
Axır bir gün tapasıyıq
Haqqı axtara-axtara.

Çaldı zili, çaldı bəmi,
İnsan oğlu çəkdi qəmi.
Qocalırıq, Oruc əmi,
Haqqı axtara-axtara.

**KİM NƏ BİLƏRDİ**

Kim nə bilərdi ki, mən adda mən var,
Toxumtək torpaqdan cücərməsəydim.
Özüm bağban olub arzularıma,
Bağımı vaxtında becərməsəydim.
Sazımla, sözümlə, şeriyyətimlə,
Zəlimxan olmağı bacarmasaydım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GƏNC ŞAİRƏ**

Girmə bu meydana soyuq ürəklə,
Köhnə dəmir kimi qızırsansa, gəl.
Qarşını kəssə də qayalı dağlar,
Qayadan damlatək sızırsansa, gəl.

Beşik böyüdəcək bələk deyəni,
Fələkdən üstün də fələk deyəni.
Tanrı buyuranı, mələk deyəni,
Peyğəmbər dilində yazırsansa, gəl!

İşıqsız, ilhamsız bir ömür hədər,
Sevgilin düşüncə, sirdaşın kədər.
Son dəfə çəkdiyin nəfəsə qədər,
Fikir əzabına hazırsansa, gəl!

*9 iyul 2004*

**ALLAH VƏ ŞAİR**

Səhərə lap az qalıb,
Saat dördə işləyir.
Bir-birinə güc verib,
Dərd ürəyə işləyir,
Ürək dərdə işləyir.
Çəkib aparmaq üçün
Daş yükünü dünyanın,
Allah göydə çalışır,
Şair yerdə işləyir.

*28 yanvar 2005*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÜNAY ZƏLİMXANQIZINA**

*Göynən gedən buludlar,*
*Niyə danışmırsınız,*
*Yerdə çiçəklər, otlar*
*Niyə danışmırsınız?*

**Günay Zəlimxanqızı**

Çiçəyi dindirsələr,
Çiçək danışar, qızım!
Küləyi dindirsələr,
Külək danışar, qızım!

Daşın da, torpağın da,
Danışmağa dili var.
Hər birinin həsrəti,
Sevinci, nisgili var.

Bürkünün, soyuğun da,
İstinin də dili var.
Odun da, ocağın da,
Tüstünün də dili var.

Nəyi bilmək istəsən,
Bir-bir gətirim yada.
Dilini bilən olsa,
Dilsiz nə var dünyada?

İndidən ki son belə
Daşa, torpağa yarsan –
İnşallah! Gün gələr ki,
Daşı danışdırarsan!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# *Duyğular…*
# *Düşüncələr…*

## BETHOVEN TORPAĞINDA DOST SAZI DİLLƏNİRDİ

Payızın son ayının ilk günlərində Almaniyanın Bilefeld şəhərində şair dostum, Aşıq Ələsgər yaradıcılığının tətqiqatçısı, folklorşünas alim Nizaməddin Onkun qonağıydım. Nizaməddin bəy mənim şərəfimə könül dostlarını, - ziyalıları, vaxtilə Azərbaycandan və Türkiyədən getmiş adamları evinə dəvət etmişdi.

Şeirdən, sənətdən, Vətəndən, qürbətdən yüz ilin həsrətliləri kimi şirinli-acılı söhbətlər edirdik. Məclisin şirin yerində Nizaməddin bəy köynəkdə bir saz gətirdi. Gözlərimə inanmadım. Almaniya hara, saz hara? Mənim heyrətimi görən şair dostum: "14 ildir ki, köynəkdəydi, bu illər ərzində onu dilləndirəni gözləyirdim, bu, sənin qismətindir, buyur, çal!" - dedi. Bu təklifdən qəhqəhə çəkib gülməyə başladım. Dedim: "Ay rəhmətliyin oğlu, yeddi illik ayrılıqdan sonra Aşıq Qərib Tiflisə gələndə onun sazında salamat bir tel qalmamışdı. 14 ilə telmi qalar, mən onu çalam, siz də ləzzət ala, kövrələsiniz?!". Könülsüz-könülsüz sazı köynəyindən çıxartdım. Nə görsəm yaxşıdır!? Elə bil saz bu gün tellənib, sığallanıb, köklənibdir. Divarqanlı Abbasın dediyi kimi. "Dinlə Abbasın səsini, tökər könüllər pasını ", - deyə saz öz-özünə oxumaq istəyirdi. İndi fikir verin: qürbət ola, saz ola, həsrət ola, üstəlik də, meydanda Zəlimxan ola! Bir Allah bilir ki, burda saz nə tufan elədi. Bu sazın dil-dil etməsinin sirrini-səbəbini anlamağa çalışdım.

Məlum oldu ki, bu hədiyyəni Aşıq Ələsgərin nəvəsi, hörmətli alimimiz İslam Ələsgərli bağışlayıb. Demək, bizi həm də Ələsgər ocağının müqəddəs ruhu belə coşdururmuş.

Sanki bir ceyran gəlib
oylağıma, binəmə,
Həsrətli bir yar kimi
basdım onu sinəmə.
Zilini zil elədim,
bəmini bəm elədim,

Sazı ağrıya əlac,
dərdə məlhəm elədim.
Ürəyimdə nə varsa,
tellərinə yüklədim,

Odunu alışdırıb,
qorunu körüklədim.
Dillənmək istəyirdi,
yaman darıxırdı saz,
Əllərimi vurantək
özündən çıxırdı saz.
Qalxırdı dalğa-dalğa,
enirdi pərdə-pərdə,
Son qoymaq istəyirdi
qəmə, həsrətə, dərdə.
Aran bilir, dağ bilir,
yayla bilir bu sazı.
Hər kəs öz taleyinə
layla bilir bu sazı.
Hərə öz ömrü kimi,
günü kimi baxırdı,
Qibləsi, səmti kimi,
yönü kimi baxırdı.
Sevinc-kədər qarışıq
duyğular tellənirdi,
Bethoven torpağında
dost sazı dillənirdi.

Hansı ağacdan qopub
öz kökünü anırdı,
Yaralı ceyran kimi
Göyçəyə, Borçalıya,
Təbrizə boylanırdı.
Bəlkə Qarsın, İqdırın
xiffətini çəkirdi,
Bəlkə Azərbaycanın
həsrətini çəkirdi.
Bəlkə Qarabağ idi
onu belə yandıran,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Havanı sızıldadıb,
        səsi dalğalandıran?
Bəlkə Tiflisdə onu
        bir Şahsənəm gözləyir,
Ürəyində intizar,
        qəlbində qəm gözləyir.
Parçalanmır yer, nədən,
        silkələnmir göy nədən?
Bəlkə də, Ələsgərin
Tapdanan məzarıdır
        onu belə göynədən.
Bir sazın kürəyinə,
        gör, nə qədər yük düşüb,
Bəlkə onun yadına
Bu gün alışıb yanan
        yaralı Kərkük düşüb?
Neçə yaylıq islanıb
        göz yaşı göllənirdi,
Bethoven torpağında
        dost sazı dillənirdi.

Burası Almaniya,
        bura alman torpağı,
Körpəlik yaddaşımın
        qan udan qan torpağı.
Min-min könül sazını
        atəş ilə qırıblar,
Burda mənim xalqımın
        qəlbini sındırıblar.
Bu yerdən üstümüzə
        qara kağızlar gəlib,
Qayıdıb gələnin də
Gözləri göynərtili,
        ürəyi sızlar gəlib.
Əlli ildən çox keçib
        o gündən bu zamana,
Gül kimi gəlinlərin
        qəddi dönüb kamana.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Analar var kirimir,
hələ də ağlar qalıb,
Oğullar var canında
sağalmaz dağlar qalıb.
Bəlkə bu gün dinən saz –
O vaxt susan sazların,
boğulan avazların,
Böyük müharibədə
böyüməyən boyların,
Yasa batan toyların
Heyfini almaq üçün
belə aşıb-daşırdı,
Bu torpaqda can verən
Neçə ölməz igidin
ruhu qucaqlaşırdı?!
O qanlı tarixlərin
Göz yaşı xatırlanır,
yarası bəllənirdi.
Bethoven torpağında
dost sazı dillənirdi.
Havalanıb, dünyanı
saz almışdı başına,
Çatdırmışdı dünyanı
Dədə Qorqud yaşına.
Fikrin köhlən atları
min illəri haqlayır,
Hərə öz keçmişini
kitabtək varaqlayır.
Kim hansı nəsildəndi,
kim hansı soydan gəlib,

Kim hansı bayatıdan,
kim hansı boydan gəlib.
Kim sərkərdə, kim əsgər,
kim ulu xaqan olub,
Kimlər hansı savaşda
ölməz qəhrəman olub.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kişilik meydanında
	ər oğlu, ər dünyası,
Yunuslar, Mövlanalar,
	Xətailər dünyası,
Ustadlar, övliyalar,
	ozanlar xatırlanır,
Sazın-sözün tarixi
	hardan başlanıb gəlir;
Yazılanlar anılır,
	yazanlar xatırlanır.
Budur sazın taleyi:
Harda dinirsə dinsin,
	qürbətdə, ya Vətəndə,
Səsə dönür boğazda,
	ruha dönür bədəndə.
İsinir, isindirir,
	alışır ocaq kimi,
Cücərir, yaşıllaşır,
	göyərir torpaq kimi.
Nə deməklə tükənən,
	nə saymaqla bitəndi,
Qərib olan kəslərə saz -
	Qürbətdə Vətəndi.
Sığallanıb, sevinib,
	xallanıb, güllənirdi,
Bethoven torpağında
	dost sazı dillənirdi.
Dost sazı dillənirdi!!!

*Almaniya, Bilefeld, 6 noyabr 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ATATÜRK KÖŞKÜNDƏ KEÇƏN GÜNLƏRİM

*Almaniyaya müalicəyə gedirdim. Dostlarımın arzusunu nəzərə alar neçə günlüyə İstanbulda - Atatürk köşkündə qalmalı oldum. Bu köşk 1935-ci ildə Atatürkün sağlamlığım qorumaqdan ötrü həkimlərin məsləhəti ilə 48 gün müddətində tikilib. Təəssüfki, Atatürk burda iki il yaşaya bilib. Bu köskün hər yerində, hər qarışında ulu öndərin xatirəsi canlanır. Mən burda qəhrəmanlıqlarla dolu bir ömrün müqəddəs, unudulmaz anlarını xatırladım. O xatirələrin havasını udmaq, şirinliyini dadmaq, səmimi misraların dilində danışdırmaq mənə də qismət oldu.*

Məni ovsunladı bir ad, üç heca,
Oldum müsafiri üç gün, üç gecə.
Oğlumdan cavandı, babamdan qoca,
Atatürk köşkündə keçən günlərim.

Tanrı qüdrətiydi, Allahdı, nəydi,
Əyilməz başları önündə oydi.
Əlli il sürdüyüm bir ömrə dəydi
Atatürk köşkündə keçən günlərim.

Döyüşün şiddəti, şəhidin adı,
Yurdun şirinliyi, Vətənin dadı...
Gör mənə neləri xatırlatmadı,
Atatürk köşkündə keçən günlərim.

Türkün tükənməyən eşqinə döndü,
Sevinci selləndi, daşqına döndü.
Ömrümün əbədi koşkünə döndü
Atatürk köşkündə keçən günlərim.

Bozqurda bəslənən qurd sevgisiydi,
Torpaq ağrısıydı, yurd sevgisiydi.
Türkü sevənlərin mərd sevgisiydi,
Atatürk koşkündə keçən günlərim.

Min kitab yazsan da demə bəsidi,
Yaddaşın harayı, ruhun sesidi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Allahın şairə hədiyyəsidi
Atatürk köşkündə keçən günlərim.

Çox ömrün payına qar-şaxta düşdü,
Cana nə düşdüsə, sazaqda düşdü.
Ürəyim ağrıyan bir vaxta düşdü,
Atatürk köşkündə keçən günlərim.

Odası çevrildi otağım oldu,
Yatdığı çarpayı yatağım oldu.
Batmaz səsim oldu, sorağım oldu,
Atatürk köşkündə keçən günlərim.

Mustafa Kamalın xəstə günləri....
Eşitdim səsləri, duydum ünləri.
Açdı çox sirləri, çox düyünləri,
Atatürk köşkündə keçən günlərim.

Yerdən də, göydən də həvəs alırdı,
Bir soraq alırdı, bir səs alırdı.
Onun ciyəriylə nəfəs alırdı,
Atatürk köşkündə keçən günlərim.

Ana sevgisiylə açıb qolunu,
Göstərdi tarixdən gələn yolunu.
Mənə tanıtdırdı Anadolunu,
Atatürk köşkündə keçən günlərim.

Qaçmadı ölümdən, qorxmadı yasdan,
Oldu Çanaqqala dillərdə dastan.
Başladı Samsundan, çıxdı Sivasdan,
Atatürk köşkündə keçən günlərim.

Ümiddi, inamdı, qeyrətdi mənə,
Min il tükənməyən sərvətdi mənə.
Həqiqət tarixi öyrətdi mənə,
Atatürk köşkündə keçən günlərim.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Türk nə, Türkiyə nə, Türküstan nədir,
Cahanda Türk adlı bu cahan nədir?
Dedi, igid kimdi, qəhrəman nədir,
Atatürk köşkündə keçən günlərim.

Gah sevinc yaşandı, gah da qəm oldu,
Gözümdə müqəddəs bir aləm oldu.
Ən şirin, ən dadlı xatirəm oldu,
Atatürk köşkündə keçən günlərim.

*İstanbul, Avropa yaxası, Atatürk köşkü,*
*3 noyabr 2004*

**GƏLMİŞƏM**

Bu dünyada bişmək üçün
dünyaya xamdan gəlmişəm,
Sevgi adlı bir butayam,
eşq adlı camdan gəlmişəm.

Yarım atam, yarım anam
bütövləşib bir can olub,
Mən yarımçıq olmamışam,
bütövdən, tamdan gəlmişəm.

Haqqa doğru gedənlərdi
uzaq yolun yolçuları,
Mövlananın səcdəsinə
Şəms olub Şamdan gəlmişəm.

Məni belə güclü tutan
güvəndiyim "Ənəlhəq"di,
Həqiqətlər vurğunuyam,
haqqa inamdan gəlmişəm.

*4 noyabr 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YOL**

Danışırsan, yaxşı danış,
dilindəki təhqir nədir?
Hansı yazıq asılacaq,
əlindəki kəndir nədir?
Yenə kimi yandırırsan,
qaladığın təndir nədir?
Tutduğun yol iblis yolu,
şər yolu, şeytan yoludur.
Yandıracaq körpüləri,
söndürəcək ocaqları,
Bayquş səsin, bəd nəfəsin
boş qoyacaq otaqları.
Hansı dağa ayaq bassan,
quruyacaq bulaqları,
Getdiyin yol adamlığın
yer ilə yeksan yoludur.
Dərvişim ol, aşığım ol,
şamanım ol, ozanım ol,
Tarixlərə ayna tutub
yozumları yozanım ol.
Həqiqətdən ilham alıb,
cəsarətdən yazanım ol,
Yaza bilsən hər kişinin
ömrü bir dastan yoludur.

Könlünü al, yadında qal,
dilində bal, sev insanı,
Meylini sal, sazını çal,
seyrinə dal, sev insanı.
Əli halal, dili halal,
nəfsi halal sev insanı,
Bu, sevgidi, insanlığın
insana heyran yoludur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yerə tapın, göyə bağlan
daşa-daşa vurul, gedək,
İçərini bulandırma,
çeşmə kimi durul, gedək.
Xəyanətə arxa çevir,
məhəbbətə vurul, gedək,
Sazdı, sözdü, şeriyyətdi,
bu yol Zəlimxan yoludur.

*Almaniya, Berlin, 11 noyabr 2004,*

**GET**

Burda durma, durmaq ölüm,
səfərlərə doğru get.
Ululara, ustadlara,
saf ərlərə doğru get.
Hər addımı qaranlıqdı,
çəkər səni zülmətə,
Gecələrə ümid olma,
səhərlərə doğru get.
Dilim, dinim, milliyətim
sənə dayaq olmasa,
Onda məndən üz əlini,
kafərlərə doğru get.

*Almaniya, Bilefeld, 8 noyabr 2004*

**GÖRƏ BİLİRSƏNSƏ**

Varlığa yox demə, yoxda varı gör,
Çeşmə var, çəmən var, gül var, çiçək var.
Görə bilirsənsə, gül ləçəyində
An var, nəğmə var, bal var, pətək var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bürünüb yaşıla, bələnib zərə,
Gözəllik gəlməsin gözə, nəzərə.
Bir dağ duruşunda min-bir mənzərə,
Zirvə var, dərə var, əl var, ətək var.

Nur kimi gözlərə doldu neməti,
Dünəndən sabaha yoldu nemәti.
Ulu Yaradanın boldu nemәti,
Səni yaşatmağa duz var, çörək var.

Taleyin nədirsə, alnına yazır,
Yuvadı yaradır, məzardı qazır.
Körpə gəlişinə hər şeyi hazır,
Beşik var, layla var, süd var, bələk var.

Oxu var, kamana mindirmək üçün,
Teli var, dil verib dindirmək üçün.
Allahı insana endirmək üçün,
Peyğəmbər yanına enən mələk var.

Alar bürkü səni, sərt ayaz səni,
Qışda qış oxşayar, yazda yaz səni.
Təbiət heç yerdə unutmaz səni,
Torpaq var, qəbir var, bel var, kürək var.

İnsanın həmişə işi iş olub,
Görən göz, ötən dil, yeyən diş olub.
Babamız adında bir keçmiş olub,
Nəvəmiz adında bir gələcək var.

*Berlin, 13 noyabr 2004*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MƏN ZAMANI ZAMANINDA YAŞADIM**

Mənim ömrüm təbiətin ömrüdü,
Damlasında, ümmanında yaşadım.
Zirvələrin çiskinində, çənində,
Yağışında, dumanında yaşadım.

Sular kimi hey töküldüm çarxa mən,
Boş gəlmədim otuza mən, qırxa mən.
Əlli yaşda oldum elə arxa mən,
Ümidində, gümanında yaşadım.

Dərd ürəkdə, əsrin yükü çiyində,
Ağrı başda, qasırğalar beyində.
Aha döndüm ürəklərin neyində,
Kədər oldum, kamanında yaşadım.

Ürəyində buz yaşamaq - faciə,
Yarasında duz yaşamaq - faciə.
Gec yaşamaq, tez yaşamaq - faciə,
Mən zamanı zamanında yaşadım.

*10 fevral 2005*

**GÖLLƏR BƏXTƏVƏR OLUB**

Yarımçıq nə verirsə, Allah verməsin mənə,
Verdiyi hər nə varsa, versin könül dolusu.
Çiçəyin ətri basıb, göllər bəxtəvər olub,
Şehə bax, dodaqlanıb sayrışır gül dolusu.

Duruluq nəğməsini damarda qan oxuyur,
Yerlə göy bir-birinə can deyib, can oxuyur.
Gözəllik yerə sığmır, göyə meydan oxuyur,
Zirvələr qar dolusu, ətəklər tül dolusu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyanın qaydasıdı lap belə dib dəhnədən,
Dünəndən bu gün doğur, təzə çıxır köhnədən.
Heç kəsin qismətini, Tanrım, kəsmə təknədən,
Qoy olsun təknə çörək, zəmi sünbül dolusu.

*13 fevral 2005*

**YOXDU BU**
**DƏRDİN DƏRMANI**

Buz içində dondurdular,
Od vurdular, yandırdılar.
Dönə-dönə sındırdılar,
Dəmir neyləsin, neyləsin?

Kim itirən, kimi tapan,
Yola gəlmir yoldan sapan.
Küt elədi kündə yapan,
Xəmir neyləsin, neyləsin?

Axan gözlərin yaşıdı,
Ağrı başların daşıdı.
Kababı çəkən naşıdı,
Kömür neyləsin, neyləsin?

Dağla düzün arasında,
Qaşla gözün arasında,
Birlə yüzün arasında,
Ömür neyləsin, neyləsin?

Yelə sovrulub xırmanı,
Yoxdu bu dərdin dərmanı.
Şah yüz də versin fərmanı,
Əmr neyləsin, neyləsin?

*1 mart 2003*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MƏLƏKLƏR BELƏ YAŞAYIR

Bir qızılgül bağçasıydı,
Ömrü gül kimi yaşadı.
İpək kimi incələndi,
Zərif tül kimi yaşadı.

Zili vardı, pəsi vardı,
Qəlbə yatan səsi vardı.
Həzin bir nəğməsi vardı,
Sazda tel ömrü yaşadı.

Baxış doğma, nəfəs tərdi,
Dodaq büllur, yanaq zərdi.
Baxsan, dibi görünərdi,
Duru göl kimi yaşadı.

Çiçəklər belə yaşayır,
Diləklər belə yaşayır,
Mələklər belə yaşayır,
Haqqa yol ömrü yaşadı.

*7 fevral 2005*

## YALAN ŞEYDİR ƏBƏDİYYƏT

Bir tərəfi sel uçurur,
bir tərəfi yel dağıdır,
İnsanlığın üzü gülməz,
tufan adlı zülm varsa.
Yazda açan çiçəklərə
qəmli payız qənim olar,
Bağlar yüz də üzə gülsün,
solacaqdır gülüm varsa.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər aşın bir ağısı var,
        hər canın bir yağısı var,
Qarğalardan nələr çəkib,
        qan ağlar bülbülüm varsa.
Ölməzlik boş təsəllidir,
        kimsə atıb ortalığa.
Yalan şeydir əbədiyyət,
        insan üçün ölüm varsa...

**ÖLÜM MƏNDƏN VAZ KEÇDİ**

Zaman axdı aramsız,
Bahar gəldi, yaz keçdi.
Töküldü gözlərimdən
Kür gəldi, Araz keçdi.

İli uzun, ayı bol,
Göz yaşımın çayı bol.
Yaman günün sayı bol,
Yaxşı günüm az keçdi.

Şumladılar, şum oldu,
Sovurdular, qum oldu.
Yumşaltdılar, mum oldu,
Ömür nataraz keçdi.

"Yum", - deyir, - "gözləri yum",
Əcəl - ömrə son hücum.
Batil oldu orucum,
Qıldığım namaz keçdi.

Haqdan xeyir... yazıram,
Tanrı deyir, yazıram.
Gördü şeir yazıram,
Ölüm məndən vaz keçdi.

*20 noyabr 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**HÜNƏRİ ÇATMAZ**

Neçə ağır sınaqdan, imtahandan çıxmışam,
Dizimi qatlamağa yaşın hünəri çatmaz.

Töycü töküb, tor qurub başlar baş aparmasın,
Başımı aldatmağa başın hünəri çatmaz.

Mən qışda doğulmuşam, bilir mənim hökmümü,
Gülümü soldurmağa qışın hünəri çatmaz.

Sevgi zirvələrindon sinəmin sipəri var,
Qəlbimi sındırmağa daşın hünəri çatmaz.

*31 noyabr2004*

**ALLAH DEYƏ-DEYƏ
BÖYÜYÜR İNSAN**

Yapışıb haqqından, yaradanından,
Haqqı öyə-öyə böyüyür insan.
Döyülə-döyülə qalxır, bərkiyir,
Şəri döyə-döyə böyüyür insan.

Körpə ürəyində nə kin, nə acıq,
Qəlbinin qapısı Allaha açıq.
Aranda otaqdı, dağda alaçıq,
Yurd-yurd, deyə-deyə böyüyür insan.

Tənə vurur nadan, daş vurur naşı,
İçinə süzülür gözünün yaşı.
Dəyir ürəyinə dərd addımbaşı
Dərdə dəyə-dəyə böyüyür insan.

Kədəri buludda, göz yaşı suda,
Ümidi yaradan, gümanı xuda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağn çəkə-çəkə, dərd uda-uda,
Acı yeyə-yeyə böyüyür insan.

Ayların-illərin sevgisi canda,
Döyünür damarda, çırpınır qanda.
Taxtı çevriləndə, baxtı yatanda,
Bəxti söyə-söyə boyüyür insan.

Seçir ağıllını, seçir dəlini,
Ələkdən keçirir öz əməlini.
Heç vaxt Allahından üzmür əlini,
Allah deyə-deyə böyüyür insan.

*29 yanvar 2005*

**YETİMLİK**

İnsan təkcə atadan,
Anadan yetim olmur,
Yetimlik sonra gəlir,
Binadan yetim olmur.

Sahibi, yiyəsi yox
Yuva yalqız, yurd yetim.
Ata-ana tanımaz,
Bədən key, manqurt yetim.

Boş canda, daş ürəkdə,
Nəğmə yaslı, səs yetim.
Sevgilisiz, sevgisiz
Kim varsa, hər kəs yetim.

Qərib kimi yaşasa,
İnsan Vətəndə yetim.
Allah yiyə durmasa,
Allahsız bəndə yetim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Silahsız qələm - yazıq,
Qələmsiz silah - yetim,
Arxası xalq olmasa,
Şair bədbəxt, şah yetim.

## CENEVRƏ MƏNZƏRƏLƏRİ

2004-cü il sentyabr ayının son günləri idi.

Dünya Parlamentləri ittifaqının 111-ci sessiyasında iştirak etmək, Azərbaycan həqiqətlərini dünyaya catdırmaq üçün Avropanın ən gözəl şəhərlərindən biri olan Cenevrəyə getmisdik. Yol yoldaşlarım xalq yazıçısı, millət vəkili Anar müəllim, millət vəkili Gülçöhrə xanım Məmmədova və yazıçı-tərcüməçi, parlament aparatının işçisi Hamlet Qocayev idi. Yüksək insani keyfiyyətlərə, alicənab sifətlərə malik olan bu insanlarla belə bir tarixi səfərdə yol yoldaşı olmaq məni həddən artıq sevindirdi.

Sessiyanın gündəliyində olan məsələlər başa çatdıqdan sonra şəhərə gəzməyə çıxırdıq. Cenevrənin tarixi, təbiəti, insanları ilə daha dərindən tanış olmaq üçün çox maraqla tarixi, elmi, bədii söhbətlərə girişir, gördüklərimizi təhlil edir, şəhərə öz münasibətimizi bildirirdik. Ən çox diqqətimizi çəkən Cenevrənin bir-birindən gözəl memarlıq abidələri, Cenevrə gölünün ətrafinda yerləşən səhərin ecazkar mənzərələri, burada yaşayan insanların tarixə və təbiətə ilahi sevgiləri, ilahi məhəbbəti oldu. Elə bil ki, Allah bu ölkəni, bu təbiəti ilhamının ən coşqun çağında yaradıb, dünyaya gətirib. Bu yerləri yaradanda, görünür, Tanrı dünyanın ən böyük rəssamı, ən ilhamlı şairi olub. Nə ki gücü və istedadı var, bu yerlərə sərf edib. Hər birimiz dünyanı çox yerlərini gəzmiş olsaq da, heyrətimizi gizlədə bilmir, özümüzü nağıllar aləmində hiss edirdik. Maraqlı cəhətlərdən biri də o idi ki, Cenevrənin ən qədim tikililərini gördükcə Bakının İçərişəhərini, Cenevrə gölünə baxdıqca Göygölü, hündür qarlı dağları seyr etdikcə Kəpəzi xatırlayırdıq. Qürbət nə qədər gözəl olsa da, Vətənimizin, Müstəqil Azərbaycanımızın tarixi mənzərələrini göz önünə gətirir, söhbətlərimizdə min illərin vətən-qürbət mövzusundan da yan keçə bilmirdik.

Əziz oxucular! Ataların "çox oxuyan çox bilməz, çox görən çox " deyimində böyük və danılmaz bir həqiqət yaşayır. İnsan təbiəti belədir daha çox görməyə, qulaq daha çox eşitməyə, ürək daha çox duymağa can atır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu yaşamaqdı, bu, həyatdı. Mən də gördüklərimin, duyduqlarımın və eşitdiklərimin çox az bir hissəsini Allahın mənə verdiyi imkan daxilində varaqlara köçürə bildim. Cenevrə mənzərələrini sizə təqdim edir, diqqətinizə görə sizə, bəri başdan təşəkkür edirəm.

*14 oktyabr 2004*

**CENEVRƏ DÜŞÜNCƏLƏRİ**

Təbiət ruhumda ilahi bir sirr,
Sayrışır gözümdə al, yaşıl, sarı.
İnsanı heç zaman doydura bilmir,
Tanrının ilhamla yaratdıqları.

Nə fırca isidir, nə dəftər, qələm,
Ovsuna düşmüşəm, sehrlənmişəm.
İkinci addımı ata bilmirəm,
Elə bil yerimdə möhürlənmişəm

Nə varsa hər şeyi yaradıb Allah,
Şair nə yaratsın, rəssam nə çəksin?
Rəssamın gücü var, gözünə yığsın,
Şairin gücü var, qəlbinə çəksin.

Bu geniş dünyada gözəl yer nə çox,
Hər şeyi yoğurub, yapıb Yaradan.
Özünü dünyanın heç yerində yox,
Sanki bu torpaqda tapıb Yaradan.

Tanrının nə yaxşı vaxtına düşüb,
Nə gözəl yaradıb bu şah əsəri.
Gəlib, bu yerlərin baxtına düşüb,
Allahlıq eləyən Allah əsəri.

Hər bir zərrəsinə zərrəbinlə bax,
Hüsnündə zərrəcə tapılmaz ləkə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yerlər gül dənizi, göylər çılçıraq,
Heyrət, ey gözəllik, ey qədim ölkə!

İlhamdı, havadı, nəğmədi, səsdi,
Şeirdi mənim də sərvətim, varım.
Bir şair ömrünə ölüncə bəsdi,
Qəlbimdə Bakıya apardıqlarım.

*Cenevrə, 30 sentyabr 2004*

**GÖZƏLLİK DUYULAN YERDƏ**

Çirkin dönüb göyçək olar,
Qanqal dönüb çiçək olar,
İnsan dönüb mələk olar,
Gözəllik duyulan yerdə.

Qış gəlib yaza çevrilər,
Kötüklər saza çevrilər,
Qanlar qıza çevrilər,
Gözəllik duyulan yerdə.

Ümid coşar, həsrət ölər,
Yamanlığa dəvət ölər,
Kin susar, ədavət ölər,
Gözəllik duyulan yerdə.

Könül sevər, göz vurular,
Bulanıq sular durular,
Dünya saflıqdan qurular,
Gözəllik duyulan yerdə.

Əridərik qəzəbləri,
Unudarıq əzabları,
Qazanarıq savablan,
Gözəllik duyulan yerdə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə suç, nə də tamalı olar,
Nə zor, nə də silah olar.
Şair dönüb Allah olar,
Gözəllik duyulan yerdə.

*Cenevrə, 1 oktyabr 2004*

**ÇİÇƏKLİ YER**

Hayana boylanıb, hayana baxsan,
Yer çiçək, göy çiçək, təbiət çiçək.
Çiçəkdən doğulur sevən-sevilən,
Qız-oğlan çiçəkdi, məhəbbət - çiçək.

İstisi, işığı, odu çiçəkdi,
Tamı, şirinliyi, dadı çiçəkdi,
Burda həqiqətin adı çiçəkdi,
Çiçək həqiqətdi, həqiqət - çiçək.

Havası çiçəkdi, suyu çiçəkdi,
Bayramı çiçəkdi, toyu çiçəkdi.
Məst ol, qucağında uyu, çiçəkdi,
Təmizlik çiçəkdi, təravət - çiçək.

Yatıram, yuxumda çiçək görürəm,
Qalxıram, duyğumda çiçək görürəm.
Hər tumda, toxumda çiçək görürəm,
Nəzakət çiçəkdi, ləyaqət - çiçək.

İlahi seygi var torpağa, yurda,
Çöllər cilvələnir işıqda, nurda.
Allahın özü də şairdi burda,
Söz bir gülüstandı, şeriyyət – çiçək.

*Cenevrə, 1 oktyabr 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GÖYLƏRƏ ÇAĞIRIŞ VAR

Yaşıl bir diyardayam,
Qəlbimə qüvvət gəlib.
Çiçəklərdən ruhuma
Axıb, təravət gəlib.

İşıq mənəm, nur mənəm,
Eşqi çaydan gur mənəm.
Dağ kimi məğrur mənəm,
Dizimə taqət gəlib.

Nə yol kəsən yağış var,
Nə qar - boranlı qış var.
Göylərə çağırış var,
Tanrıdan dəvət gəlib.

Cenevrə, 3 oktyabr 2004

## XƏBƏRİM YOX ÖZÜMDƏN

Bu rəssam təbiətin rənglər dünyasındayam,
Vurulmuşam torpağın yaşılına, alına.
Öpüş alıb güllərin şeh çilənmiş üzündən,
Dönmüşəm pətəyinə, cevrilmişəm balına.

Düşünən yaradası, yoğuran yapasıdı,
Burda vaxt itirən kəs gözəllik tapasıdı.
Oğlanlar dəstə-dəstə, qızlar gül topasıdı,
Hər çiçəkdən zər qonub yanaqların xalına.

Xəbərim yox özümdən, ruhumdan, yaddaşımdan,
Nə canımdan xəbər var, nə çatılan qaşımdan.
Ağıllılar gülməsin, ağlım çıxıb başımdan,
Gəlin, indi siz baxın Zəlimxanın halına!

Cenevrə, 4 oktyabr



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GÖZƏLLİK DƏLİSİ

Bu an, bu saat, bu gün zaman məndə yerləşir,
Əvvəlin axırıyam, axırın əvvəli, heey!!!
Allah özü göndərib bu yerləri görməyə,
Başımın üstündədir Yaradanın əli, heeey!!!

Günəş olub doğmuşam, bulud olub yağmışam
Cahana sığmasam da gözəlliyə sığmışam.
Gördüklərim nə varsa, gözlərimə yığmışam,
Qəlbimə toplamışam sərvəti heeey, ləli heeey!!!

Gözüm hər addım başı gözəlliyə tuş oldu,
Xəyalım əsən külək, fikrim uçan quş oldu.
Burda Zəlimxan adlı bir şair bihuş oldu,
Dəli mənəm! Dəli mən! Dəli mənəm! Dəli, heeey!!!

*Cenevrə, 6 oktyabr 2004*

## BU AĞACIN BAR GƏTİRƏN VAXTIDI

Torpaq diri, toxum sağlam, yer sulu,
Bu ağacın bar gətirən vaxtıdı,
Bağ arzuda, bağban muraz üstədi,
Bu ağacın bar gətirən vaxtıdı.

Arıya bax, öpür gülün üzündən,
Çiçəyə bax, sevgi yağır gözündən.
Doymaq olmur nəğməsindən, sözündən,
Bu ağacın bar gətirən vaxtıdı.

Göz oxşayır ləçəklərin xumarı,
İnsan əli budaqların tumarı.
Havalıdı, tutub sevgi damarı
Bu ağacın bar gətirən vaxtıdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Toxumuna, özəyinə dad verib,
Kökünə su, budağına od verib.
Ana torpaq döşlərindən süd verib,
Bu ağacın bar gətirən vaxtıdı.

Hər çiçəyin bar verməyə cəhdi var,
Barı varsa, şirəsi var, səhdi var.
Bu payızla ilqarı var, əhdi var,
Bu ağacın bar gətirən vaxtıdı.

## BAŞ GÖTÜRÜB ƏLLİ BEŞƏ GEDİRƏM

Axşam-axşam dönüb işdən gəlirəm,
Səhər-səhər qalxıb işə gedirəm.
Evdən getdi, kim qayıda, kim qala,
Elə bil ki, son gedişə gedirəm.

Bir gəlmişəm, bir də qoymaz gəlim bir,
Doğum birdi, yaşam birdi, ölüm bir.
Son mənzilə, son məkana yolum bir,
Dərdi edib canda peşə, gedirəm.

İnsan oğlu küsmədi nə, küsdü nə,
Əvvəl-axır dərd duracaq üstünə.
Qəlb sındıran qocalığın üstünə
Ürəyimi deşə-deşə gedirəm.

Yelli gündə pambığımız atılıb,
Alan alıb, satılanlar satılıb.
Cəhənnəmdə gur ocaqlar çatılıb,
Ciyərimi taxıb şişə, gedirəm.

Qırx körpü var, qırx keçid var, qırx ada,
Salam verdim otuza da, qırxa da.
Bir də gördüm əlli qalıb arxada,
Baş götürüb əlli beşə gedirəm.

*18 avgust 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**TÖKÜLƏR**

*Gündə bir kərpic düşür*
*Ömrümün sarayından.*

**Bayatıdan**

Ürək yazıq ağlamasın, neyləsin,
Dərd üstünə şələ-şələ tökülər.
Payız gələr, ağacların yarpağı,
Halımıza gülə-gülə tokülər.

Zaman bizi sevincə tuş gətirməz,
Yuxla, ayıl, əlləş, vuruş - gətirməz.
Can evində kərpic duruş gətirməz,
Canı çıxar, ölə-ölə tökülər.

Hər ürəkdə bir zədə var, bir yara,
Qarışıqdı sevinc-kədər, ağ-qara.
Birdəfəlik axmaz canım qurtara,
Yaş gözümdən gilə-gilə tökülər.

Qızıl ürəklərdən qara qan tökür,
Can ağrısı gözümüzdən yaş tökür,
Allah göydən başımıza daş tökür,
Daş özü də bilə-bilə tökülər.

*20 avqust 2004*

**TORPAQ ƏTRİ**

Öz içimdə torpaq əkib, dən səpirəm,
Duyğuları cücərdirəm pöhrə kimi.
Yağışım gür, günəşim bol, havam təmiz
Yetişirəm ən şirin bar-bəhrə kimi.

Çirkinliyin son ucu qaranlıq olur,
Gözəlliyin meyvəsi heyranlıq olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söz var yağdı, söz də var ayranlıq olur,
Gecə-gündüz çalxanıram nehrə kimi.

İçimdəki qaynar çeşmə, axar çaydı,
Nəğməsini hər gün eldən-elə yaydı.
Ürəyimdə torpaq ətri olmasaydı,
Quruyardım qumsal kimi, səhra kimi.

*30 avqust 2004*

**MƏN ÜRƏYİ ÜRƏK KİMİ SAXLAMADIM**

Mən bilmədim sına bilər, yana bilər,
Mən ürəyi ürək kimi saxlamadım.
Nə biləydim, bir baxışdan dona bilər?
Mən ürəyi ürək kimi saxlamadım.

Qohum gəldi, qonşu yığdı, yad apardı,
Qəmli qələm qismətini şad apardı,
Odu sönən ürəyimdən od apardı,
Mən ürəyi ürək kimi saxlamadım.

Xeyrə-şərə, toya-yasa yüyür dedim,
Taleyinə yaralanmış cüyür dedim,
Qızdır onu harda kim üşüyür dedim,
Mən ürəyi ürək kimi saxlamadım.

Dərd dağının külüng çalan Fərhadıyam,
Tüstüsüyəm, dumanıyam, fəryadıyam,
Öz qəlbimin qan içəni, cəlladıyam,
Mən ürəyi ürək kimi saxlamadım.

Yeri göyə, göyü yerə bağla dedim,
Alış dedim, tutuş dedim, çağla dedim,
Yas görəndə hönkür-hönkür ağla dedim,
Mən ürəyi ürək kimi saxlamadım.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dövlət yükü, millət yükü, şöhrət yükü,
Bu millətin içindəki zillət yükü,
Bu yüklərin altındakı zəhmət yükü,
Mən ürəyi ürək kimi saxlamadım.

Mən ürəyi çiçək kimi saxlamadım,
Hey əritdim, hey çürütdüm, qanatdım.
Yağ içində böyrək kimi saxlamadım,
Saxlamadım, saxlamadım, saxlamadım.

*13 sentyabr 2004*

**GƏL, ŞƏKLİNİ ÇƏKİM, DÜNYA**

Şəkil çəkmək istəyirəm,
Gəl, şəklini çəkim, dünya!
Rəssam olmaq təbim gəlib,
Gəl, şəklini çəkim, dünya!

Ruhum gəzsin ahəng ilə,
Əlim oynasın rəng ilə,
Çirkin ilə, qəşəng ilə,
Gəl, şəklini çəkim, dünya!

Pəncərə sən, baxan mənəm,
Sularında axan mənəm.
Rəngi rəngə yaxan mənəm,
Gəl, şəklini çəkim, dünya!

Gözündəki nəmi çəkim,
Qəlbindəki qəmi çəkim.
Tufan çəkim, gəmi çəkim,
Gəl, şəklini çəkim, dünya!

Can əriyib, taxta qalıb,
Papağa bax, mıxda qalıb.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gönə bax, dabbağda qalıb,
Gəl, şəklini çəkim, dünya!

Quzğun kimi leş alansan,
Yeki verib, şeş alansan,
Beş verib, on beş alansan,
Gəl, şəklini çəkim, dünya!

Dəhnən ilə, arxın ilə,
Tez-tez dönən çarxın ilə,
Sevgin ilə, qorxun ilə,
Gəl, şəklini çəkim, dünya!

İblis-mələk, hüri-qilman,
Yarı insan, yarı heyvan.
Gah kafərsən, gah müsəlman,
Gəl, şəklini çəkim, dünya!

Bircə bəndə sevirmisən,
Çox saraylar devirmisən.
Məni şəklə çevirmisən,
Gəl, şəklini çəkim, dünya!

Namərd, yoxsa, mərd göstərim,
Yumşaq, yoxsa, sərt göstərim?
Özün boyda dərd göstərim,
Gəl, şəklini çəkim, dünya!

Səninlə əkə bilmirəm,
Bir könül tikə bilmirəm.
Dərdini çəkə bilmirəm,
Gəl, şəklini çəkim, dünya!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## HAQDAN NEMƏT İSTƏDİM

Haqdan nemət istədim,
Göy çəməndə təravət,
Gur bulaqlar su verdi.
Haqdan nemət istədim,
Arıdan bal ayırdı,
Sürüdən quzu verdi.
Haqdan nemət istədim,
Yerlər gülü, gülşəni,
Göylər ulduzu verdi.
Haqdan nemət istədim,
İlahi sevgisindən
Tükənməz ruzi verdi.

*27 sentyabr 2004*

## HAQQI DİNLƏMƏK GÖZƏL

Yerdəki çaxnaşmadan
Göydəki şimşək gözəl.
Dibçəkdə göyərəndən
Çöldəki çiçək gözəl.

Bağrımız zədan-zədan,
Uçar ruh, köçər bədən.
Min şirin əfsanədən
Bir acı gerçək gözəl.

Doyduq yalan yeməkdən,
Üzüldük inləməkdən.
İnsanı dinləməkdən
Haqqı dinləmək gözəl.

*29 sentyabr 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QOY YATIM, YUXUDAN QALDIRMA MƏNİ

Qışda doğulmağım bəs elər mənə,
Məni öldürəndə, yaz öldür, Allah!
Dilim hansı gündü gedəcəyim gün,
Ölüm tariximi yaz, öldür, Allah!

Qoy yatım, yuxudan qaldırma məni,
Əcəlin cəngindən saldırma məni.
Zarıya-zarıya öldürmə məni,
Öldürə bilirsən, saz öldür, Allah!

Acı gülüşlərin ürəyimdə xal,
Dodağım qıfıllı, baxışlarım lal.
Alırsan, canımı birdəfəlik al,
Bu qədər ağrıyla az öldür, Allah!

*29 sentyabr 2004*

## ALLAHA YAXINLIQ

Hamı görmək, götürmək,
hamı duymaq istəyir,
Harda varsa gözəllik
ora bir axın olur.
İnsan oğlu Tanrını
təbiətlə dərk edir,
Təbiəti duyanlar
Allaha yaxın olur.

*5 oktyabrın*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İKİ QAPI

*İtaliyanın Assizi şəhərində bir evə iki qapı qoyulur. Qapının biri hər bir evdə olduğu kimi giriş-çıxış qapısıdır. O biri qapını isə ancaq evdə adam öləndə açırlar və cənazəni həmin qapıdan çıxarırlar.*

*Anar müəllimin dediklərindən*

Burda belə qurulur,
belə yapılır yapı,
Bir mənzilə iki yol,
bir evdə iki qapı.
Biri qurub yaratmaq,
coşub-çağlamaq üçün,
Biri vida çağında
yanıb, ağlamaq üçün.
Durub dayanmağı yox,
biri hər gün işdədir,
Hey açılar, örtülər,
əbədi vərdişdədir.
Biri ölü sükutda,
Qaş-qabağı buludda,
meyli qəmdə, yasdadı.
Biri Ayla, ulduzla,
Günəşlə təmasdadı.
Birindən gülüş axır
içəriyə, bayıra,
O biri fürsət gəzir
Səni səndən ayıra.
Ucu biz xəncər kimi
biri qəlbə saplanır,
Biri nura, işığa,
həyata hesablanır.
Birində toy çalınar,
gəlin gələr içəri,
Biri bizə pıçıldar,
"köçərisən, köçəri".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biri ömrün baharı,
biri ömrün şaxtası,
Biri beşik laylası,
biri tabut taxtası.
Biri qəmə, həsrətə,
dərdə, yasa açılır,
Biri eşqə, sevgiyə,
ehtirasa açılır.
Baş əyməmək olarmı
bu bölgüyə, bölümə,
Biri həyata açıq,
biri gora, ölümə!

*7 oktyabr 2004*

**AYAQ SAXLAYAN OLSUN**

Bir tabut aparırlar,
saxla maşını, saxla,
Qoy bizim diqqətimiz
dərdliyə həyan olsun.
Bu qəmli səhnəyə bax,
öz ömrünü varaqla,
Elə yaşa, dünyadan
Sabah sən də köçəndə,
ayaq saxlayan olsun!

*8 oktyabr 2004*

**MƏN NƏYİNƏ LAZIMAM**

Bəzən acığım tutur,
hirs dağıdır qafamı.
Kar olmaq istəyirəm
Səs-küyünə dünyanın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kor olmaq istəyirəm
hər şeyinə dünyanın.
Dirsək dizdə, əl üzdə,
can odda, baş qovğada,
Boylanmaq istəmirəm
yer-göyünə dünyanın.
Sındırmaq istəyirəm
çaldığım sazı belə,
Nə sazına baxıram,
nə neyinə dünyanın.
Aciz qalıb əlində
insanlar aça bilmir,
İşlərini kim salıb
sərt düyünə dünyanın.
Əlim sağ, ayağım sağ,
Min düyündən birini
aça bilməmişəmsə,
Mən nəyinə lazımam,
de, nəyinə dünyanın?!

*8 oktyabr 2004*

**QARDAŞ KİMİ**

Sən üyüdən dəyirman,
biz üyünən dən olduq,
Dünya, sənin əlində
biz oyuncaq, biz oyun.
Zəlzələdə, tufanda,
leysanda, qasırğada
Kimi tülkü, kimi şir,
kimi qoç, kimi qoyun.
İlk nöqtəsi doğumdu
dünyaya gələnlərin,
Son nöqtəsi ölümdü
hər kökün, əslin, soyun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bizə tarix yazan kəs
bizdən xəbərsiz yazır,
Hər sevincin sonu qəm,
sonu yasdı hər toyun.
Arada ölən də biz,
ortada qalan da biz,
Həyat - ölüm həmişə
qardaş kimi qolboyun!

*10 oktyabr 2004*

## CAN DEYİR, CAN EŞİDİR

Ruhumun təbiətlə
yaman tutur söhbəti,
Hara uçub qonursa,
can deyib, can eşidir.
Səsi eşidilməyən
qarışqa səsini də
Ürəkdə tellər duyur,
damarda qan eşidir.
Bu böcək, bu kəpənək,
bu qarışqa, bu arı,
Kövrək duyğularımın
yaxın sirdaşı, yarı.
Gecələr dodağımda
gəzən pıçıltıları
Qaranlıq əzbər bilir,
sökülən dan eşidir.
Azaldır ağrısını
qovğalar çəkən başın,
Təbiətdi məlhəmi
ağlın, huşun, yaddaşın.
Ruhum hopur canına
dağın, qayanın, daşın,
Bir Zəlimxan can deyir,
min Zəlimxan eşidir.

*11 oktyabr 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÖZÜN YAZDIN HƏR QİSMƏTİ

Bu öy mənim öyüm deyil,
Özünsən öyün sahibi.
Tikən də sən, yıxan da sən,
Bu kəndin, köyün sahibi.

Oddan eşqin, nurdan üzün,
Tərəfisən haqqın, düzün.
Quranın, kitabın, sözün,
Əlifin, beyin sahibi.

Sümüyə bürüdün əti,
Özün yazdın hər qisməti.
Dizimdən alma qüvvəti,
Dizimdə heyin sahibi.

Qara bəxtim, qaraçuxam,
Sənin əlin, mənim yaxam.
Mən kiməm ki, şərik çıxam?
Sənsən hər şeyin sahibi.

Gecə-gündüz çəkər ahı,
Zəlimxandır dərdin şahı.
Bağışla, varsa günahı,
Ey yerin-göyün sahibi!

*30 iyul 2004*

## ÖLDÜRÜR

Bəxtinə yazılıb insan oğlunun,
Hərəni bir həsrət, bir ah öldürür.
Açıb-bükə bilmir günahlarını,
Çoxunu batdığı günah öldürür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzülür piltəsi, əriyir şamı,
Sökülür sarayı, yıxılır damı.
Səssiz güllələrdi yıxan adamı,
Silahsız olanı silah öldürür.

Harınlar qarındı, qarınlar harın,
Onəlli yapışıb kökündən varın.
Gözü bu dünyadan doymayanların
İçini kin yeyir, tamah öldürür.

Yerdən də, göydən də silinir izi,
Dizli kişilərin qırılır dizi.
Qıran özümüzük bir-birimizi,
Kim deyir adamı Allah öldürür?!

*31 iyul 2004*

## RAHAT ÖLÜM

Bu gün bir xəstə gördüm, xəstəlik, nə xəstəlik,
İynələrin ucunda bədəni dəlik-dəlik.
Durmaq olmur yanında fəryadından, ahından,
Asan ölüm istəyir ölümsüz Allahından.
Ölüm hələ yoldadır, dərə keçir, düz gəlir,
Əcəl istəyən kəsə əcəl könülsüz gəlir.
Gözəl olan şeyləri bir-bir salıram yada,
Rahat ölümdən gözəl heç nə yoxdu dünyada!

## DÜŞDÜ

Gülə döndüm, güllər kimi açım, dedim,
Yaz olmamış payız gəldi, sazaq düşdü.
Ağac oldum, yeri-göyü qucaqladım,
Budağımdan gündə neçə yarpaq düşdü.
Kitab kimi öz ömrümü varaqladım,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kötüyündən silkələndi, varaq düşdü.
Dedim, durum saçlarıma sığal çəkim,
Telim getdi, əllərimdən daraq düşdü.
Mən dünyaya gör, nə qədər yaxın oldum,
Dünya məndən gör, nə qədər uzaq düşdü!

## HƏYƏCAN

Ürək yazıq neyləsin!
Əbədi yükə dönür bir anın həyəcanı.
Dərin dərələr salır, qara yarğanlar açır,
Zəlzələnin, zərbənin, tufanın həyəcanı.
Dərddən betər öldürür xəstənin ümidini
Gəzdikcə tapılmayan dərmanın həyəcanı.
Ağrı külək, ömür şam, əsən kimi söndürür,
Zamanlara sığışmır zamanın həyəcanı.
Qanlı təpə, qanlı düz, qanlı meydan görmüşük,
Getməz gözdən, könüldən bu qanın həyəcanı.
Bitib tükənən deyil ömrün sonuna qədər
Duyan, görən, düşünən insanın həyəcanı!

## SƏN DEMƏ

Yüyürürəm arxasından,
Sallanıram çuxasından,
Yapışıram yaxasından,
Zamanı saxlamaq olmur,
Vaxt axar suymuş, sən demə!
Göz açmağa aman verməz,
Addımbaşı ağrı-azar.
İki daşın arasında,
Yazdığını fələk yazar.
Baha alar, ucuz satar
Öz başına dəysin bazar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aç gözünü, yum gözünü,
Bu gün beşik, sabah məzar.
Gördüm illər əldən çıxıb,
Ömür yuxuymuş, sən demə!
Ömür birlə yüz arası,
Qayğı dağla düz arası.
Ortada bir oğlan durar,
Eşq oğlanla qız arası.
Qızılgüllər solub getdi,
Bir də çətin qızarası.
Zaman mənə "yığış", - deyir,
Göz də vurur sözarası.
Nə yatdım, nə yuxu görəm?
Yaşamaq buymuş, sən demə!!!

**AĞACA ÇİÇƏK VER, ÇİÇƏYƏ BAR VER**

Bulağı gözündən eləmə, Tanrım,
Gözü qurudusa, kor deyəcəklər.
Ocağı közündən eləmə, Tanrım,
İşığı söndüsə, qor deyəcəklər.

Duyğusuz, təpərsiz eləmə, Allah,
Təpərsiz ürəyə boş deyəcəklər.
Sinənin altında qanadlanmasa,
Adına ürək yox, daş deyəcəklər.

Heç kəs qurumasın kökünün üstə,
Ağaca çiçək ver, çiçəyə bar ver.
Ürək yaşamaqda, könül həvəsdə,
Hər ömrə əbədi bir yadigar ver.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VAXTSIZ AYRILMASIN DURNA QATARDAN

Bu şair ömrüdü, qıyma sən, Allah,
Ruh bədəndən çıxsm, canda can ölsün.
Vaxtsız ayrılmasın durna qatardan,
Nə qanad qırılsm, nə insan ölsün.
Dünyadan dünyatək gedir hər gedən,
Kim qaçıb dord adh bir düşərgədən?
İnsandı ayrılıb gedən cərgədən,
Nə fərqi, ya nökər, ya bir xan ölsün.
Dən gətir, dənimi, xırmanımı ver,
Dərd kimə gərəkdi, dərmanımı ver.
Yüz il yaşatmağa fərmammı ver,
Qoyma bu yaşmda Zəlimxan ölsün.

*1 avqust 2004*

## QƏBRƏ APARDIĞIM SİRR

Batmış haraydı, ündü,
Ən ağlamalı gündü.
İçimdə bir düyündü
Qəbrə apardığım sirr.

Daşa dəymiş oxumdu,
Haram olmuş yuxumdu,
Cücərməz bir toxumdu,
Qəbrə apardığım sirr.

Dərdim şişər, fil olar,
Ölümüm qəfil olar,
Məzarda qıfıl olar,
Qəbrə apardığım sirr.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göz yaşım bilməz nədir,
Baş daşım bilməz nədir,
Qardaşım bilməz nədir,
Qəbrə apardığım sirr.

Çörək olub yeyilməz,
Paltar olub geyilməz.
Allaha da deyilməz
Qəbrə apardığım sirr.

*28 iyul 2004*

**OXUYA BİLMƏDİM AXIRA QƏDƏR**

Kim deyir, bu dünya kefdi-damaqdı,
Kefi olanlar da kefdə deyilmiş.
Yüz il bu dünyada yaşasan belə,
Göz açıb görürsən həftə deyilmiş.

Vəfası yalandı, dostluğu hədər,
Ötərgi sevincdi, əbədi kədər.
Oxuya bilmədim axıra qədər,
Dünya kitab kimi rəfdə deyilmiş.

Min ürək qırıla, min könül sına,
Fələyin qılıncı çəkilməz qına.
Verir verdiyini can bahasına,
Tanrının heç nəyi müftə deyilmiş.

*30 aprel 2004*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QOŞA SƏTİRLƏR

*Türk dünyasının böyük şairi Nəcib Fazil*
*Qısaküräyin ruhuna ulu sevgilərlə*

GÖZƏLLİK

Allahım! Gözümü tox, ürəyimi ac elə,
Sən məni gözəlliyə həmişə möhtac elə.

RUH

Allah, vaxtsız ayırma bizdən müqəddəs ruhu,
Qoru, necə qorudun tufan içində Nuhu.

HƏYAT SEVGİSİ

Kim sevirsə həyatı, yeri, göyü, varlığı,
Qırx arşın quyuda da olmaz onun darlığı.

BEŞİK-TABUT

İlkim ağacdan beşik, sonum ağacdan qutu,
Kim yırğalar beşiyi, kim qaldırar tabutu.

QURTULUŞ

Ürək hər addımbaşı ağır bir dərdə tuşdu,
Ölüm insan oğluna ən gözəl qurtuluşdu.

BİRCƏ SANİYƏ

Fani dedik dünyaya, bel bağlama faniyə,
Ömür yüz il olsa da, ölüm bircə saniyə.

ÖMRÜN AXŞAMI

Səhər pəncərəni aç, axşam qapını bağla,
Axşamı gələn ömrə bir dəsmal götür, ağla!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏRGİ

Bu dünya başdan-başa tamaşadı, sərgidi,
Dünyaya gələnlərin hamısı gedərgidi.

QILINC-BALINC

Başımızın altına qoyulan balınca bax,
Başımızın üstündə yellənən qılınca bax!

BAŞÇI

Başçıda baş olanda, baxtımıza gün düşər,
Başçı başsız olanda, baxtımız düyün düşər.

VAXT

Nə yıxılana baxır, nə yerindən qalxana,
Zaman axır sulartək hey çalxana-çalxana!

ANLAMAQ

Vaxtında anlasaydıq nədir xeyir-şərimiz,
Yerin bir tərəfini əyərdi ləngərimiz!

KİTAB

Dünya qədim bir kitab, oxunur varaq-varaq,
Onu kim qurtardı ki, biz oxuyaq qurtaraq?!

QURAN

Bir kitab oxuyuram, ucadı hər kitabdan,
Allah, məni ayırma bu şirin iztirabdan!

NƏ QƏDƏR Kİ

Nə qədər ki, insanın gözündən axan su var,
Nə qəlbin rahatlığı, nə gözün yuxusu var!

ŞAM

Könül, əgər bənzəməsən pərvanəyə, ya şama,
Çırp özünü qayalara, öl, dünyada yaşama!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

CANLI-CANSIZ

Dünyaya canlı gələn dünyadan cansız gedər,
İnamı olmayan kəs dinsiz-imansız gedər!

KİŞİ-NAKİŞİ

Zəlzələ də tərpətməz nakişinin tükünü,
Ancaq kişilər çəkər bu dünyanın yükünü!

İLK GÜNAHKAR

Həsrət qalıb cənnətə buğda yeyəndən bəri,
İlk günahkar kim olub, haqqın ilk peyğəmbəri!

TARİX

Ahdı burulub çıxan tüstülü bacalardan,
Nələr gördü bu tarix, soruşun qocalardan.

QIRIŞLAR

Yorulub, yola salıb payızları, qışları,
Anamın alnındakı zamanın qırışları.

ZİYARƏT

Qurban olum Məkkəyə, məndən inciməz qəti,
Anamın ayaqları başımın ziyarəti.

ƏR-SƏNGƏR

Xalqın ümid qaynağı ər oğlu ərdən gələr,
Döyüş vaxtı kişinin səsi səngərdən gələr.

VAXT

Yaman aldı üstümü, yaman yerdə təklədi,
Mən vaxtı tutammadım, vaxt məni ətəklədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YAXŞI Kİ

Allah! Allah! Nə qədər yalançı qəhrəman var?
Yaxşı ki, hər əməlin son hakimi zaman var.

DUYA BİLMƏZ

Yıxdı xalqın evini yalançılar, saxtalar,
Milləti duya bilməz qəlbi, ruhu taxtalar.

BÖYÜK MƏQSƏD

Ölsə də şəhidimiz, qalsa da şikəstimiz,
Cəmiyyətin boynunu düzəltməkdi qəsdimiz.

ƏSİR-HƏSİR

Kim qarnının quludu, kim nəfsinin əsiri,
Küçələrin tozudu, ayaqların həsiri.

DAŞ-BAŞ

Atılan daşlara bax, heyfini başdan çıxır,
Yarılan başlara bax, qisməti daşdan çıxır.

FACİƏ

Xalqa üz qaralığı insana təhqir, ləkə,
Millətin faciəsi köləlik, müstəmləkə.

XƏZİNƏLƏR-DƏFİNƏLƏR

Yatır torpaq altında xəzinələr, dəfnələr,
Allah tək insanı yox, xəznəni də dəfn elər.

SIXINTI

Tale insan oğlunu hər gün sıxasıxdadı,
Həzrəti İsa kimi hərə bir çarmıxdadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QİYAMƏT

İtilənib qılınclar, hazırlanıb tilovlar,
Qiyamət qopa bilər səngiməsə alovlar.

SUAL
Görəsən bu milləti dartıb, hara çəkirik?
Dardan xilas edirik, yoxsa dara çəkirik?

DÜNƏN-BU GÜN

Dünənki faciəmiz gur alqışlar, çəpiklər,
Bugünkü faciəmiz fışqırıqlar, təpiklər.

DUA

Göy əsgiyə bürünüb ömürləri, günləri,
Allah, özün razı sal taledən küskünləri.

TORPAQ

Nəfəs candan üzülüb, ruh çıxanda bədəndən,
Əbədi vətən üçün ayrılırsan Vətəndən.

HEÇ NƏ ƏBƏDİ DEYİL

Əbədi qalan deyil nə saraylar, nə damlar,
Hərdənbir yerə baxsın göynən gedən adamlar.

QEYRƏT

Qeyrət elə şeydi ki, qanadı var, canı var,
Önündə Çin səddi çək, aşmağa imkanı var,

DƏLLAL

Elə ki ağırlaşır, çətin olur halları,
Xalqı alverə çəkir siyasət dəllalları.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BACARMAZ

Bacarar krallığı, sultanlığı, şahlığı,
Bəndə yaranan insan bacarmaz Allahlığı.

## SƏS GƏLİR

Qulaq ver qəbirlərə, səs gəlir dədələrdən,
"Heyifdi, insanlığı qoruyun zədələrdən".

## SEVGİ

Sevgidən mayalanır qəlbin, gözün toxluğu,
Dünyaya sevgiylə bax, var eləsin yoxluğu.

## SÖZ

Söz kəsdim, söz doğradım, sözdən tutdum şələmi,
Tanrının özü yonub mən tutduğum qələmi.

## ULU SÖZ

Dahilər ulu sözün səcdəsinə gəldilər,
Peyğəmbər məqamına söz ilə yüksəldilər.

## ADİ-DAHİ

Yaranan var adidi, doğulan var dahidi,
Biz kimik? Hər qisməti göndərən İlahidi.

## PİSLİK-HƏRİSLİK

İnsanın insan üçün yamanlığı, pisliyi,
Pula, vara, dövlətə, şöhrətə hərisliyi.

## KEÇƏR

Başımızın üstündən həftələr, aylar keçər,
Qəbrin qaşına doğru bizi haraylar, keçər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GÖZ YAŞI

Yanağımı göz yaşı, qəlbimi qəm izlədi,
Ağladım, günahımı göz yaşım təmizlədi.

## GÜNAH

Göylərə bülənd olub tüstüləri, ahları,
Qat-qat çoxdu savabdan insanın günahları.

## VAY, O GÜNDƏN

Vay o gündən, haqlı dura, haqsız olanlar danışa,
Haqqın gözü baxa-baxa xalqa yalanlar danışa.

## DƏRS

Kim xalqa qənim olub, görsə işin tərsini,
Vaxtın geci-tezi var, tarix verər dərsini.

## OVÇU

Ovçunun ürəyinə şikar düşər, ov düşər,
Ov bərəyə gəlincə saçlara qrov düşər.

## NƏFS

Bir günü azad olsa, beş günü əngəldədi,
Nəfsə nökər olanın boğazı cəncəldədi.

## ALLAH-DİN

Son gündo eşq Allahım, məhəbbət dinim olsun,
Bir "Ruhani" havası mənim yasinim olsun.

## NİYƏ

Niyə tutqunsan gözəl, qəlbin niyə qəm çəkib,
Sənin ki, qaşlarına İlahi qələm çəkib?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏ VAXT

Dünya nə vaxt dağılır? Nahaq haqqı dananda,
Oğruların sözünə doğrular inananda.

İŞIQ-YARAŞIQ

Bizi məhrum eləsə günəş boyda işıqdan,
Göy üzü gözdən düşər, yer üzü yaraşıqdan.

ŞAİR EŞQİ

Şerimin atəşiylə əritmişəm buzları,
Göylərdən çiçək kimi dərmişəm ulduzları.

KƏRBƏLA

Bizi tapır Allahın hər dərdi, hər bəlası,
Hər kəndin bir çölü var, hər çölün Kərbəlası.

ALLAH ADAMI

Yaxın qoymaz qeybəti, gözü, könlü durular,
Yerə baxar sevinər, göyə baxar vurular.

TANRI PAYI

Tanrı payı olmasa mərdlik, qətiyyət, vüqar,
Nə Əlidən ər olar, nə qılıncdan Zülfüqar.

MUĞAMLAR, ŞİKƏSTƏLƏR

Elin bağrından qopub muğamlar, şikəstələr,
Bu xalqın nəğməsini Allah özü bəstələr.

QAÇQIN OCAQLARI

Canımda bir od yanır, istili, bürkülüyəm,
Qaçqın ocaqlarının tüstüsüyəm, külüyəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

POEMALAR



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BORÇALIDA QALAN İZLƏR

Dağa arxalandı, düzə can atdı,
Şəlalə səsini qayadan aldı.
Hər kim bir sehrli aləm yaratdı,
Gücünü xalq adlı mayadan aldı.

Güvəndi gücünə, istedadına,
Vətəndən, torpaqdan mayalı Vurğun!
Bir gün Borçalını saldı yadına,
Qədəmi hər yerdə sayalı Vurğun!

Başından aşsa da qayğısı, işi,
Xəyal köhlənini min yerə sürdü.
Onu Borçalının ulu keçmişi,
Bugünkü taleyi düşündürürdü.

Xalqın hər sevinci, şərəfi, şanı,
Xalqın hər kədəri onun yasıydı.
Qəlbitək sevirdi Azərbaycanı,
Borçalı qəlbinin bir parçasıydı!

O ağır yerişi, o dağ duruşu
Görənin heyrətdən baxışı dondu.
Gəzdi göy üzündə bir dövlət quşu
Faxralı kəndinin çiyninə qondu!

Şeirsiz özünü xoşbəxt sanmayıb,
Nəğmədir torpağı, daşı bu kəndin.
Tarixi illərlə hesablanmayıb,
Şeirlə ölçülüb yaşı bu kəndin.

Arzular tükənməz, arzular şirin,
Vurğunla bu yerdə ellər görüşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baharda dünyaya gələn şairin
Uğuru baharlı bir elə düşdü.

Sənət çırağına, sənət oğluna
Gözündə nur kimi baxdı Borçalı.
Görüşlər, vidalar çatmadı sona,
Sellər, sular kimi axdı Borçalı!

Gəldi Kəpənəkçi, gəldi Borçalı,
Qoçulu, Qaçağan döndü karvana.
Saraclı yeridi köklü, budaqlı,
Doğma oğul bildi onu hər ana.

Bir uşaq doğmaca atası kimi
Özünü şairin üstünə atdı.
Uşağın bir damla xoş təbəssümü
Vurğunun qəlbində ümman yaratdı!

Dağlardan güc alan el məhəbbəti
Dünyanı başına yığa bilərmiş.
Nələrə qadirmiş eşqin qüdrəti
Bir mahal bir kəndə sığa bilərmiş!

Şairi görməyə can atdı hamı,
Şöhrəti çağırdı doğmanı, yadı.
Faxralı kəndində payız axşamı
Vurğunlu məclislər belə başladı.

Heyrətlə boylandı silsilə dağlar,
Mübarək yoluna axdı bulaqlar.
Kiridi nəğməli, neyli dodaqlar
Şairin səsini eşitmək üçün.

Sanki cilovlandı, çaylar axmadı,
Buludlar dayandı, şimşək çaxmadı.
Kimlər boylanmadı, kimlər baxmadı,
Şairin səsini eşitmək üçün.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə bir qonağı kim sevməzdi, kim,
Diləklər qovuşdu ən xoş çağına.
Xoşbəxtlər xoşbəxti Hacı müəllim
Açdı qollarım öz qonağına!

O ağır danışıq, o ləngərli səs,
Hələ də çoxunun qulağındadır.
İşığa çevrildi doğma bir nəfəs,
İstisi hamının ocağındadır!

Şair heç olarmı yollar yorğunu,
"Yoruldum" sözünü dilə gətirməz.
Tale yetirmişdi bizə Vurğunu,
Tale yetirəni tarix itirməz!

Vurğunlu saatlar, Vurğunlu anlar,
Ömrün də, günün də qızıl anları.
Heç yaza bilərmi tarix yazanlar
Bir xalqın qəlbinə yazılanları?!

Söhbət od alırdı candan, ürəkdən,
Səhər şəfəqiydi, dan işığıydı.
Çəkirdi şirəni güldən, çiçəkdən,
Danışıq Vurğunun danışığıydı!

Ürək kövrələndə, gözlər dolanda
Uşaqlıq çağları tez xatırlanır.
Keçdiyin yollara nəzər salanda,
Cığır yada düşür, iz xatırlanır.

Baş vurur uşaqlıq xatirəsinə,
Qazax, Qarayazı düşür yadına.
Dostlar səs verəndə onun səsinə,
Yenidən güc gəlir qol-qanadına.

Çıraq öləziyir, işıq sozalır,
Azalmır, tükənmir sözü Vurğunun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Getdikcə geconin ömrü azalır,
Daha da nurlanır gözü Vurğunun!

Duyğular sel kimi axır qanında,
Deyir: - Dayağımdı bu el, bu Vətən.
"Hələ yer üzündə, insan yanında
Deyib danışmaqdan doymamışam mən!"

Söz sözə qovuşur, söhbət söhbətə,
Məclis hey özünə çəkir şairi.
Ürəkdən bağlanır bu məhəbbətə,
Düşüncə şairi, fikir şairi.

Sevinən görəndə aşıb-daşardı,
Sünbüllü, saçaqlı zəmiydi Vurğun.
Qəmlənən görəndə ağırlaşardı,
Qəm yükü daşıyan gəmiydi Vurğun!

Göz gözə bağlanıb, söz də ki, sözə
Şeir qıfıl olub, söz kəmənd olub.
Söhbət bir ovsundu, məclis möcüzə,
Duyan sehrlənib, görən bənd olub!

İnsafmı saatlar tez gəlib keçə?
Şair könüllərə yaz gətirib, yaz.
Faxralı kəndinin bir yanı köçə,
Xəbəri vaxtında bilən tapılmaz!

Hacının anası Sənəm qarının
Bu gün qapısında toy-bayramıydı.
Evində əyləşən qonaq-qaranın
Hər biri gözündə yanan şamıydı!

Sığışmır sevinci bir belə kəndə,
Axşamdan bəridir almır dincini.
Analar belədir, qonaq gələndə
Bölər, bölüşdürər öz sevincini!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şair diqqət ilə baxanda ona,
Elə bil sevincə qarışdı kədər.
Sənin ki zəhmətin çox olub, ana,
Niyə yatmamısan bu vaxta qədər?

Vurğun tək qonağı olan bir ana
Yerində dincəlib yatmaz, ay oğul!
Bir gecə gözlərim çimir almasa,
Dünyanın bir yanı batmaz, ay oğul!

Təki sənin kimi qonağım gələ,
Mənim də bir azca ömrüm uzana.
Nə qədər xoşbəxtəm bu gündən belə,
Şükür bu günləri bizə yazana.

Yaman incitdilər səni, can, bala,
Meylin nə çəkirsə hazıram, buyur!
Ana qonağını çəkir suala,
Qonaq zarafatla şeir oxuyur:

Acı sarımsaqlı,
Yuxa yarpaqlı,
Üstü cızdaqlı,
Yanı araqlı
Xəngəl pis olmaz!

Yadigar qalırdı bu söz, bu söhbət,
Zamandan-zamana uzanasıydı.
Analar gözündə sönməz məhəbbət,
Hər ana Vurğunun öz anasıydı!

* * *

Vurğun dedi: söylə görüm, ay Hacı,
Hanı mənim həsrətimin əlacı?
Doymaz könül aşıq acı, el acı,
Dilləndirə xəstəni də, sağı da.
Aşıq gərək, dərdimizi dağıda!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu torpağın hər damarı, hər qatı,
Ulu səsli "Cəngi", "Misri", "Heyratı"!
Bir ömürdü hər oxunan bayatı
Ruhumuz var oxşamada, ağıda.
Aşıq gərək, dərdimizi dağıda!

Qəmlənəndə göz yaşımız göllənib,
Sevinəndə sevincimiz sellənib.
O tellərdə dilə gəlib dillənib
Günümüzün qarası da, ağı da.
Aşıq gərək, dərdimizi dağıda!

Tufan var ki, əsib keçməz uzaqdan,
Başım çəkib, gözüm qorxmaz sazaqdan.
Yanan çoxdu, su gətirin bulaqdarı,
Dərd istər ki, Vurğun boyda dağ uda.
Aşıq gərək, dərdimizi dağıda!

Hər görüşdə xalqa sevinc paylayan
Dərdi niyə gətirirdi dilinə?
Axı, onu qaldırmışdı bu dövran
Şöhrətinin zirvəsinə, zilinə!

Bu torpağın işığıydı, nuruydu,
Güvənmişdi qələm tutan əlinə.
Böyük qəlbi saf sulardan duruydu,
Dərdi niyə gətirirdi dilinə?

Bir insan ki təbiətdən güc alıb,
Təbi donüb bu dağların selinə.
El gözündə Qoşqar kimi ucalıb
Dərdi niyə gətirirdi dilinə?

Kül törəyər hər alışan ocaqdan,
Xeyrin şəri, toyun yası varıymış.
Nahaq yerə söz çıxmazdı dodaqdan,
Hər kəlmənin öz əsası varıymış!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sel dağların sinəsini oyantək
Ağrı onu içəridən oyurdu.
Bəlkə vaxtsız ağrı tapan bir ürək
Sahibini yaşamaqdan qoyurdu?

Öz atını oynatsa da qarlı qış,
Üşüməzdi qarın, buzun içində.
Əriyirdi yaş əlliyə çatmamış,
Üşüyürdü qırx doqquzun içində.

Qəlbə şübhə, gözə duman gətirib
Uçururdu şerimizin taxtını.
Vaxtsız əcəl insafını itirib
Vurğun ilə keçirirdi vaxtını.

Bu dəm yenə xəyalından keçirdi
Dərd istər ki, Vurğun boyda dağ uda.
Aşıq gərək, dərdimizi dağıda!
Kimsə səslədi birdən:

Yan durun, aşıq gəldi.
Elə yaraşıq gəldi.
Üstünüzə gün doğsun,
Gözümə işıq gəldi.

Aşıq Nəsib məhəbbətlə baş əydi,
Sinəsində çarpazladı əlini.
Bu məclisi, bu cəlalı görəndə
Xoşbəxt saydı obasını, elini.

Hörmət ilə şair qalxdı ayağa,
Salam aldı, salam verdi dostuna.
Qəlbi döndü min çeşməli bir dağa,
Elə bil ki, nur ələndi üstünə.

Arzusuydu çiçəklənən, güllənən,
Aşıq Nəsib taleyindən razıydı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir dahinin eşqi ilə dillənən
Borçalının dil-dil ötən sazıydı!

Vurğun dedi: - Buyur görək, ay Osman,
Söz sənindi, saz aşığın, el bizim.
Elə çağla, dilə düşsün bu dastan,
Dövran bizim, meydan bizim, yol bizim.

Bir məclisdə əyləşib iki sənətkar insan,
Biri yaşından qoca, biri yaşından cavan.
Birinin tunc alnında qat-qat olub qırışlar,
Birinin alnındasa nə qat var, nə qırış var.
Birinin nəzərində hüdudsuz bir kainat,
Birinin nəzərində elə bağlı bir həyat.
Birinin səs-sorağı Londondan, Çindən gəlir,
Birinin təmiz eşqi
Dağ döşündə qaynayır, elin içindən gəlir!
Vurğun Osmandan deyir sənətdən söz düşəndə,
Osman daşır, qaynayır Səməddən söz düşəndə.
Hər ikisi nağməkar, hər ikisi vətəndaş,
Osman Vurğuna sirdaş, Vurğun Osmana qardaş.
Bu məhəbbət, bu birlik
Ləyaqətin, qeyrətin baldan şirin barıdır,
Elə bil ki, bu dostluq
Vaqiflə Vidadinin
Yaratdığı dostluğun bənzərsiz təkrandır!
Budağın barı çoxsa, hünər köküdür demək.
Yaşaya bilmisənsə,
Ömür gözəl ömürdür, gün gözəl gündür demək.
Bu yollarda otuz il köhləni qoşa çapan,
Əsil səadətini
Elin qəlbində gəzib, xalqın içində tapan,
Niyyəti təmiz olan,
Adı, şöhrəti halal, eşqi bir dəniz olan,
Şöhrətdən qaça-qaça şöhrətinə çatanlar,
Ana laylası kimi ruhumuza yatanlar,
Ucalığı, zirvəsi doğma ellərə bəlli,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, Vurğun Səmədimiz,
Bu, Osman Sarıvəlli!
Hər ikisi dinləyir elin sənətkarını.
Şerin bağbanı kimi dərir sözün barını.
Aşıq Nəsib od olub, od qarışır simlərə,
Vurğun deyir: - Yox daha
Bir sözüm, ehtiyacım dərmana, həkimlərə!
Hər sözdən ürəklərə bir toxumluq dən düşür,
Söz qayıdır dünənə, söhbət keçmişdən düşür!
Bir vaxt elə burdaca
Meydan açıb, söz qoşub,
Çıldırlı Aşıq Şənlik, Faxralı şair Nəbi.
Onda da üzə gülüb,
Onda da hasil olub elin muraz, mətləbi.
Qurbanidən bağlama, Ələsgərdən qıfılbənd,
Məclis bir ay uzana, doyası deyil bu kənd.
Aşıq yenə dəyişir söhbətin axarını,
Sözü Osmandan açır, şeri Vurğundan deyir,
Məclis hər kəlməsinə "can" söyləyir, "can" deyir.
Yenə "Müxəmməs" olur məclisin son naxışı,
Yağır aşığın üstə, yağır "sağ ol" yağışı!
Deyəndə Nəbinin "Dünya" şerini
Aşıq lap Vurğunu sehrləmişdi.
"Tapar qiymətini, tapar yerini,
Elin sənətkarı ölməz" - demişdi!
"Qılıncın qınsızdı, qolun qüvvətli,
Baxmadın qocaya, cavana, dünya!"

- Ay Osman, gör şair nə gözəl deyib,
Ağlının barıdır, qəlbinin səsi.
Çatdıraq ellərə heyifdir, heyif,
İt-bata düşməsin bircə kəlməsi.

Vaxtında olmasaq hər sözdən halı,
Sözlər də qəmlənib bürünər yasa.
Dili bağlı qalar, gözü qapalı
Yayılıb, səslənib dərk olunmasa!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Oxucum, belədir aqil babalar
Bir dastan yaradır ikicə sözlə!"
Əgər oğulsansa, bu dastanları
Qoru oğul kimi ürəklə, gözlə.

Bu günün sabaha heç nəyi qalmaz,
Qara bir daş olluq, quru bir kəsək.
Kimə arxalanar bu söhbət, bu saz
Babalar deyənə qiymət verməsək?

Osman gülə-gülə deyir: "Ay Səməd,
Yenə şairliyin baş aparır haa!
Solarmı gözəllik, ölərmi qüdrət?
Şerinlə gedirik gələn sabaha!"

Qoşa bülbül kimi verir səs-səsə
Dost dostu dinləyir, qardaş qardaşı.
Yüz yaşlı qoca da gəlir həvəsə,
Atır qocalığı, unudur yaşı.

Xəyal qanadlanıb gəzər göyləri,
İnsana aşılmaz dağlar aşdırar.
Şeir bir loğmandır əzəldən bəri
Duyan könülləri cavanlaşdırar!

Qayalar başından səs yüksəlirdi,
Çəkilib gedirdi dağların çəni.
Dağlardan Şəmşirin ətri gəlirdi,
Vurğun oxuyurdu: "Yada sal məni".

Arabir havanı yarırdı əli,
Ömrə yazılırdı "Bu saat, bu dəm".
Qaynar baxışları bayram məşəli,
Vurğun oxuyurdu: "Mən tələsmirəm"!

Sərhədlər aşırdı fikri, niyyəti,
Torpaq nəfəsiydi, bərəkət canı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ruhunda bir xalqın mədəniyyəti,
Vurğun oxuyurdu "Azərbaycan"ı!

Onun nəzərində seçilərdimi
Alim kim, şair kim, çoban kimiydi.
Bir şəxsiyyət kimi kiçilərdimi
Nə fərqi qoca kim, cavan kimiydi!

Hamı yüksələrdi eyni zirvəyə,
Sanardın eynidir hamının yaşı.
"Yaradın, yaşadın, ucalın", - deyə
Sabaha səslərdi hər vətəndaşı!

Ömründə, günündə barı bir kərə
Heç yerdən biganə keçmədi Vurğun!
Ayırıb çinlərə, vəzifələrə,
İnsanı insandan seçmədi Vurğun!

Elin məclisindən ayaq kəsmədi,
Həm yasda, həm toyda gördülər onu.
Dağın görüşünə kim tələsmədi?
Hər yerdə dağ boyda gördülər onu.

* * *

Faxralı kəndinin doğma məktəbi
Yenə ağzınadək dolub adamla.
Elə bil hamının daşacaq təbi,
Sevinci ümmandı, kədəri damla.

Şairin gözündə tükənməz maraq,
Baxır bu torpağın körpələrinə.
Oxuyur hər ömrü o varaq-varaq,
Fikri, düşüncəsi gedir dərinə.

Baxır qaragözlü şən uşaqlara,
Hər üzdə ağ gündən bir nişan görür.
Fikri qanadlanır hey uzaqlara,
Hər gözdə sökülən qızıl dan görür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uşaqlıq illəri, gənclik illəri
Yenidən canlanır xatiratında.
Neçə il keçsə də o vaxtdan bəri,
Hər günün çeşidi qalıb yadında.

Məktəb illərini həsrətlə andı,
Alın düyünlənib çatılanda qaş.
Gözünün önündə gəlib dayandı
Böyük bir müəllim, böyük vətəndaş!

- Şagirdi olaydım Firidun bəyin,
Dünənki günlərim qayıdaydı kaş.
Heyif, istəyini vermir ürəyin
Nə yersiz həyəcan, nə artıq təlaş.

Yaddaşm gücünə, qüdrətinə bax,
Bir anda nələri gətirir yada.
Həyat öz hökmünü yeridir, ancaq
Zaman qayıdarmı xatırlansa da?!

Fikirdən ayırır şairi səslər,
Körpələr "Dağlar"ı əzbər oxuyur.
Axdıqca ruhuna doğma nəfəslər,
Qəlbində yenilməz bir qüvvət duyur.

"Balalar quş kimi verir səs-səsə"
Danışır Şəmistan, Bəxtiyar, Cəlal.
Qoşa qanad olur dinləyən kəsə,
İnsanı göylərə qaldırır xəyal.

Şeir demək üçün çəkilən hər ad
Elə bil məclisin qəlbi, canıdır.
Eldarla Şahsuvar, Vaqifiə Fərhad,
Hər biri şairin qəhrəmanıdır!

Bu nə xoş saatdır, bu nə əziz gün,
Haqqım var eşqinə dəli çay desəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vurğunun ömrünü uzatmaq üçün,
Yüz Humay səs verər, bir "Humay" - desəm!

Sığmır duyğuları misraya, bəndə,
İlhamsız ötüşmür bircə anı da.
Şair seviləndə, şair sevəndə,
Şairtək sevilir qəhrəmanı da!

Üzlərdən nur yağdı, gözlərdən işıq,
Yetişdi yerinə elin arzusu.
Yurdun tarixinə vüqar, yaraşıq,
Məktəblə məktəbin görüşüydü bu.

Özümü o yerdə bəxtəvər sayıb
Qəlbim yollarında yandırardı şam.
Niyə o günlərə yaşım çatmayıb,
Niyə o görüşdə mən olmamışam?!

Özümü arxalı bir dağ sayardım,
Saçımın ağlığı qarım olardı.
Onu torpaq kimi qucaqlayardım,
Varlığı çiçəyim, barım olardı!

O sənət tanrısı əsirgəməzdi,
Şirin söhbətindən dad götürərdim.
Elə ki gözləri üzümdə gəzdi,
Odlu baxışından od götürərdim.

Çəkib ciyərimə gur nəfəsini
Udardım, içərdim hava, su kimi.
Qəlbimə yazardım hər kəlməsini,
Bülbülün ən şirin avazı kimi.

Özümdən xəbərim olmazdı mənim,
Bir də görərdim ki, dolub daşmışam.
Vurğuna dönərdi çölüm, çəmənim,
Bir də görərdim ki, vurğunlaşmışam!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zamanı yolundan kim saxlardı, kim,
Yazan da, pozan da onun əliydi.
Ya mən bu dünyaya tez gəlməliydim,
Ya o bu dünyadan gec getməliydi!

Yetə bilməsəm də bu səadətə,
Mən də öz şerimlə muraza çatdım.
Baxıb sənətinə, düşüb heyrətə,
Vurğuna qəlbimdə heykəl yaratdım!

Gözümdə gül açıb arzu da, kam da,
Nə dərdim, düşsə də saçlarıma dən.
Onun sağlığında yaşamasam da,
Onun zamanında yaşayıram mən.

Sınaqlardan keçir hər şərəfli yol,
Eşqi böyüklərin ölməz adı var.
Zəlimxan, qəm yemə, sən arxayın ol,
Bu xalqın yaşatmaq istedadı var!

Yetirdi özünü ayrılıq çağı
Kövrələn gözdürsə, dolan ürəkdir.
Gördü yola düşür elin qonağı,
Yenə Sənəm qarı bayatı çəkdi:

Dəryada dəryalıqlar,
Suda oynar balıqlar.
Görüşlər nə gözəlmiş,
Olmasa ayrılıqlar.

Kövrəltdi şairi qoca Borçalı,
Ürək "getmə" - dedi, vaxt "gedək" - dedi.
Elə bil hamının fikri, xəyalı
"Ömür qısa olur, vaxt gödək" - dedi!

Yarımçıq yazılar, böyük qayğılar,
Çəkdi sənətkarı Bakıya san.
Yoluna nə qədər göz dikənlər var,
Vurğunla bağlıdır çox arzuları.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biryolluq "sağ olun" - deyib getmədi,
Dünyanı sevincə bələdi, getdi.
Bir qismət çörəyi yeyib getmədi,
Çoxunu çörəkli elədi, getdi!

Dildə tükənməyən sözü, söhbəti,
Eldə naxışları, izləri qaldı.
Çəkilməz olsa da şair həsrəti,
Təsəlli, yadigar sözləri qaldı!

Arzular, diləklər döndü bir neyə,
Ölüm ürəklərin eşqini qırdı.
"Vurğunu dağlara çağıraq" - deyə
Başkeçid görüşə hazırlaşırdı!

Danışım hansını, deyim hansını,
Dünyada dünyalar tapardı Vurğun!
Bəlkə də, "Borçalı" poemasını
Qəlbində torpağa apardı Vurğun!

**SON SÖZ**

Vurğun deyib saf duyğular göz açar,
O, tarixdən, tarix ondan söz açar.
Yaddaşlara cığır salar, iz açar,
Borçalıda qalan izlər pozulmaz!

Qarlı qışın sərt tufanı qopsa da,
Dəli şimşək sal qayam çapsa da,
Yağış olub göylər yerə hopsa da,
Borçalıda qalan izlər pozulmaz!

Belə görüş, belə söhbət, belə saz,
Hər torpağın qismətinə yazılmaz.
Vurğun olub Borçalının vurğunu,
Borçalıda qalan izlər pozulmaz!!!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖYÇƏ DƏRDİ**

Göyçə dərdi göyüm-göyüm göynəyən,
Sızım-sızım sızıldayan yaramdı.
İnnən belə kirpik çalmaz gözlərim,
Bundan sonra yuxu mənə haramdı!

Göyçə dərdi döndü coşqun sellərə,
Bilən bilir, kim axıtdı, kim axdı.
Hey fikirləş, sonu yoxdu bu dərdin,
Zaman-zaman çözələnən yumaqdı!

Göyçə dərdi talan olan varımız,
İlxı yoxdu, sürü yoxdu, naxır yox!
Bu torpağın yaddaşında, yadında,
Bizdən ötrü əvvəl vardı, axır yox!

Göyçə dərdi Aşıq Abbas dərdidi,
"Yaylaq yeri çəmən olmuş, ay olmuş.
İnnən belə mən sağlığı neylərəm,
Yar ləbini əmən olmuş, ay olmuş!"

Göyçə dərdi köç-köç olan bir elin
Yerə-göyə sığışmayan harayı.
Neçə qəlbin daşa dəyən arzusu,
Neçə ömrün dağıdılan sarayı!

Göyçə dərdi dilimizin ağısı,
Ölən aşıq, sınan pərdə, susan saz.
Göyçə desəm, göz yaşımın önündə
Dağlar belə bənd almağı bacarmaz!

Göyçə dərdi bu dərdlərin yanında
Qalan dərdlər yalan oldu, ay haray!
"Göyçəgülü" havasına od düşüb,
Xallar, güllər talan oldu, ay haray!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖYÇƏM-GÖYÇƏYİM LAYLA**

Qızılı əlimizdən külçə-külçə aldılar,
Torpağı elimizdən ölçə-ölçə aldılar.
Kəhrizimiz soğuldu, bulağımız qurudu,
Qurtum-qurtum içdilər, dolça-dolça aldılar.

Göyçəm-göyçəyim layla,
Solan çiçəyim layla.
Ah çəkən ağsaqqalım,
Qarabirçəyim layla!

Gözü qanlı cəllada bax,
Qan tökər, silah götürər.
Anaların fəryadından
Yer üzünü ah götürər.

İstəyirsən, başını əz,
İstəyirsən, dilini kəs.
Günahkar geri çəkilməz,
Gündə min günah götürər.

Yağar gözdən gur yağışlar,
Qanla dolanda baxışlar.
Bunu nə bəndə bağışlar,
Nə göydə Allah götürər.

Allah götürərdimi dünyanın düz vaxtında,
Göy yaylağın başında, ucalığın taxtında,
"Çıx" - deyənin əlindən qulağımız dəng ola!?
Dağda, daşda, qayada millət pələsəng ola!?
Allah götürərdimi
İnsan isti yuvasız, doğma beşiksiz qala!?
Nəyi var əldən çrxa, evsiz-eşiksiz qala!?
Günahsız körpələrin boynu bükülü qala!?
Alışan ocaqların yerində külü qala!?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ət dırnaqdan ayrıla,
Kök budaqdan ayrıla.
Külü göyə sovrula,
Köz ocaqdan ayrıla!

Ağacını sulayıb, torpağını əkdiyin,
İstəkli bala kimi qayğısını çəkdiyin,
Kərpicini, daşını göz bəbəyi sandığın,
Bir gündə min-bir dəfə başına dolandığın,
Malın, mülkün, sarayın, xanimanın dağıla,
Həqiqətin çevrilə əfsanəyə, nağıla!
Düşməndə sənə qarşı dağlar boyda kin ola,
Rahat durduğun yerdə adın didərgin ola!
Daşınmaz qayğıların, çəkilməz dərdin ola,
Mərdi qaçaq salalar, dünya namərdin ola!
Öz evinin içində səni qonaq sayalar,
Bu ahdan, bu ağrıdan
Sarsılmazmı zirvələr, yıxılmazmı qayalar?!
Adı qaçqın olanlar
Danışır yana-yana zülmünü, sitəmini.
Sakit dinləmək olmur
Elindən ayrılanın həsrətini, qəmini.
O zamandan özümə gələ bilmirəm qəti,
Sinəma dağlar çəkib bir qaçqının söhbəti.
Danışdıqca elə bil,
Öz içini yeyirdi,
Qaçqın belə deyirdi:
Qaçdıq, qaçqm dedilər!
Köçdük, köçkün dedilər!
Küsdük, küskün dedilər!
Susduq, miskin dedilər!
Hamı ağ günə çıxdı,
Bizə pis gün dedilər!
Hər nəyi dedilərsə,
Yaman kəskin dedilər!
Bizə "gəlmə" dedilər,
Bizə "yamaq" dedilər!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Evimizin içində
Bizə qonaq dedilər!
Dindik, qapaz qazandıq,
Fağır, maymaq dedilər!
Hər nəyi dedilərsə,
Qardaş, nahaq dedilər!
Vallah, nahaq dedilər!!!

Bizi üzdən saldılar,
Bizi gözdən saldılar.
Yurda talan gələndə,
Yolu bizdən saldılar!

Azaldıqca azaldıq,
Milyon idik, min olduq.
Dada çatan olmadı,
Axır didərgin olduq.

Dözəmmirəm bu söhbətə, dedim bəsdir, dayan, qardaş,
Bu gün sənin həsrətindir ürəyimi oyan, qardaş!
Qazancımız böhtanla şər, Möhürümüz "didərginlər"!

Yaş gəzdirər giləsində,
Ev daşıyar şələsində.
Tapa bilməz dayağını,
Daşlar döyər ayağını.
Həsrət yükü ürəyində,
Kəndir izi kürəyində,
Bağrı olar dəlik-dəlik,
Sınan qəlbi neytək inlər.
Ömrü boyu yol yeriyər,
Yolda qalar didərginlər!

Durub insanın qəsdinə,
Dünya dönüb Fələstinə.
Dizlərini daş aparan,
Gözlərini yaş aparan,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qovana bax, qaçana bax,
Dağdan-daşdan uçana bax!
Ha çağırsan, haya gəlməz
Nə tanrılar, nə də dinlər.
Allahından üz döndərib,
Dinsiz olar didərginlər!
Su tökdülər ocağına,
Od vurdular torpağına.
Bələk yandı, beşik yandı,
Ev alışdı, eşik yandı.
Ürəyini zaman-zaman
Sıxar qəmlər, didər kinlər.
Qisas qalmaz qiyamətə,
Fürsət gəzər didərginlər!
Ünü çatar fələklərə,
Əli çatmaz ətəklərə.
Külək keçirər odunu,
Tarix itirər adını.
Qayğılar qatar başını,
Zaman pozar yaddaşını.
Bir xoş günə həsrət qalar
Neçə yüzlər, neçə minlər.
Gözü göydə, ağzı haqda,
Ömür sürər didərginlər!
Ölüsü kəfənsiz qalar,
Dirisi vətənsiz qalar.
Əli budaqdan üzülər,
Kökü torpaqdan üzülər.
Taleyini döyər, söyər,
Göy bürünər, qara geyər.
Gözlərində yuva salar,
Qəbrə kimi gedər kinlər.
Tək qəbirdə sakit yatıb,
Rahat olar didərginlər!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YETİM MƏZAR

Qəbir dedim, qədim Göyçə, Ələsgərim yada düşdü,
Başdan aşan, dolub daşan dərdim-sərim yada düşdü.

Gözləri yol çəkən Ələsgər dədə,
Dağlarda təklənən qəbrinə qurban!
Bəd gəldi bizlərə bu vaxt, bu vədə,
Döz, bu da zamandı, səbrinə qurban!

Heç xeyir taparmı sənə toxunan,
Ara qarışdıran, pəl vuran olub.
Deyirlər, ruhuna dəyən, toxunan,
Deyirlər, qəbrinə el vuran olub.

Sənsən haq vergisi, Allah adamı,
Gözünə baxdığın bulağa qurban!
Haqqın əllərindən içdiyin camı
Dastana döndərən torpağa qurban!

Getdim neçə dəfə ziyarətinə,
Məzar heykəlindən öpdüm, qayıtdım.
Güvəndim gücünə, məhəbbətinə,
Odunu qəlbimə səpdim, qayıtdım.

Bilmirəm, kim olsun dərdimdən halı,
Burda əllərimi sıxan əl hanı?
Üstünə yığışan Göyçə mahalı,
Qəbrinə yaraşan o heykəl hanı?

Mənim taleyimi, mənim eşqimi
Döyən çox olsa da, duyan az oldu.
Nəsimi, Füzuli məzarı kimi
Sənin də məzarın əlçatmaz oldu

Gedərəm Hələbə, gedərəm, ustad,
Gedərəm Bağdada, gedərəm, ustad!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üz tutub Göyçəyə gedə bilməsəm,
Dağları, daşları didərəm, ustad!

Tutsalar cığırı, kəssələr yolu,
Yerin damarını qırıb gedərəm.
İldırımdan taxıb qanadı, qolu,
Göyün yaxasını cırıb gedərəm!

Elə ki qatığa dedilər qara,
Elə ki azğınlar həddini aşdı,
Allah adamına sataşanlara
Allah yaman dəydi, yaman sataşdı!

Yalan danışsa da xeyrini güdən,
Həqiqət yenə də şahıydı, ustad!
Zəlzələ deyildi yeri tərpədən,
O, sənin çəkdiyin ahıydı, ustad!

Bir xalqın, bir elin qəlbinə dəyən
Savabı tanımaz, günahı görməz.
Ayağı altında yeri görməyən
Başının üstündə Allahı görməz!

Qəlbim səksəkədə, qulağım səsdə,
Dumanım dünyaya sığası deyil.
Bir qarış ot qalxa qəbrimin üstə,
Bu dəhşət yadımdan çıxası deyil.

Kim olub bu qədər qudurmuş, harın,
Görəsən, kim salıb bunu ağıla.
Peyğəmbər nəfəsli bir sənətkarın
Məzarı sökülə, qəbri dağıla!

Min dağın tufanı, min qışın qarı,
Ört-basdır edəmməz bu zülmü qəti.
Dünyanın ən qanlı cinayətkarı
Vallah, törətməzdi bu xəyanəti!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gör yağı nə qədər qurğular qurub,
Fəndi baş tutanda əl çalıb, Allah!
Gör ustad nə qədər ucada durub,
Gör düşmən nə qədər alçalıb, Allah!

Qalmışıq əlində kədərin, yasın,
Çəkilmir nə dərdi, nə dağı belə.
"Fələk Ələsgərtək oda salmasın
Nə xəstəni belə, nə sağı belə"!

Haqsızlıq odunda sızlayan nə çox,
Nə qədər gör, ölüm-itim olarmış.
Təkcə körpələr yox, balacalar yox,
Qəbirlər özü də yetim olarmış.

Qulağı kar olub nəğmənin, səsin,
Yaralı könlümün duyanı yoxdur.
Səsinə bir mahal yığılan kəsin
Yanında bir nəfər həyanı yoxdur.

Qınama bizləri ustad,
Zaman bəd gəldi, bəd gəldi.
Göz açmağa vaxt olmadı,
Duman bəd gəldi, bəd gəldi.

Axdı seli, yağdı qarı,
Səmti döndü bizə sarı,
Zülüm kəssin zülümkarı,
Yaman bəd gəldi, bəd gəldi.

Ölüm oldu, itim oldu,
Atalılar yetim oldu.
Müxənnətdən bir him oldu,
Tufan bəd gəldi, bəd gəldi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏĞMƏ DODAQDA QALDI

Allah bir də heç kəsə bu dağı göstərməsin,
Qar-boranı, şaxtanı, sazağı göstərməsin.
Səhənglər suda sındı, dolça bulaqda qaldı,
Söz ürəkdə qırıldı, nəğmə dodaqda qaldı.
Bu ütüdən qurtarınb bir yana çıxmaq üçün
Gözlər göyə dikildi, ağızlar haqda qaldı.
Bizi öz bəxtimizə biganələr üşütdü,
Boran, qar üşütmədi.
Göyə çıxan vayları,
Daş dələn harayları
Kar qayalar eşitdi,
İnsanlar eşitmədi!
Biri öy tikdirirdi, öyü qaldı yarımçıq,
Biri öz balasını təzə nişanlamışdı,
Toyu qaldı yarımçıq!
Alışmadı şamları, gülmədi axşamları,
Qaldı, gözündə qaldı
Neçə-neçə insanın arzuları, kamları.
Taleyin qəsdinə bax!
Əziyyət verə-verə öldürür adamları!
Duyğular kövrəkləşir, könüllər sızlar olur,
Saçı yolan gəlinlər, ağlayan qızlar olur.
Qara gəlmiş dövranın ili ildən pis gəlir,
Qəddimizi əyməyə,
Qapımızı döyməyə
Gündə bir alçaq gəlir, gündə bir xəbis gəlir!
Fərman verən kəslərin
Qəlbi, hissi, niyyəti daş olur, dəmir olur,
Puç olan saf arzular, çürüyən ömür olur!
Verilən fərmanların hamısı boş, yalançı,
Fərman alan köməksiz, fərman verən talançı!
Gəl, indi baş tap görüm
Minsifət adamların əməlindən, işindən.
Qurtar öz taleyini
Oyunbaz siyasətin caynağından, dişindən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zorla, güclə, kələklə
Əllərindən alalar dağını, aranını,
Əzələr mənliyini, qaraldalar qanını.
Qayaların döşündən pozalar naxışım,
Yaman günə qoyalar baharını, qışını.
Qoymayalar qalmağa daş üstündə daşını,
Silələr tarixini, alalar yaddaşını.
Torpağına göz dikib, yurduna qəsd edələr,
Yeridiyin yerdəcə səni şikəst edələr.
Danışmaq istəyəndə dilini bağlayalar,
Yerimək istəyəndə yolunu bağlayalar.
Özünü xilas üçün
Əl-qol atmaq istəsən, qolunu bağlayalar!
Onda qalxır şikayət,
Onda qopur qiyamət.
Onda çəkilir göyə
Gözdə nur, dizdə taqət.
Nə zaman ki, böhtan gülür,
Şər yeriyir, ayaq tutur,
Nə zaman ki, başa keçib
Haqq yerini nahaq tutur,
Nə zaman ki, əyri düzlə,
Yaxşı pislə calaq tumr,
Bax, o zaman Lələ köçür,
Kərəmi ağlamaq tutur!

İLLƏR YAMAN DƏYİŞDİ

Bir vaxt gözəl Göyçənin gözəl günləri vardı,
Çal-çağırı, şadlığı, toy-düyünləri vardı.
Dəliqanlı igidlər köhlənlər çapardılar,
Qayalar sinəsində xəznələr tapardılar!
Çinarboylu oğullar gözəllər seçərdilər,
könüllər yapardılar!
Ürək təmiz, könül saf, baxış büllur olardı,
Təbiət başdan-başa alışan nur olardı!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çalınardı zurnalar, səslənərdi, "Cəngi"lər,
Səslənərdi ayaqda gümüşü üzəngilər!
Kişilər bir-birinin əlini sıxardılar,
Gümüş qaşlı yəhərdə,
Qızıl yallı kəhərdə,
Sərin mehli səhərdə
Düzləri meydan seçib yarışa çıxardılar!
Yarışda bilinərdi
Kiminki Qırat oldu,
Kiminki Dürat oldu.
Kiminki mağrım, fağır,
Kiminki kür at oldu.
Mənzilə tez çatanın yetişərdi nəməri
Bağlanardı belinə xoşbəxtliyin kəməri!
Məclislərin sirdaşı "İrovan çuxuru"ydu,
"Göyçəgülü" havası baxışlarm nuruydu!
Göyçənin öz nağılı, öz dastanı varıydı,
Hər havanın ruhunda elin canı varıydı.
Göyçənin öz havası, öz laylası varıydı,
Xeyri, şəri, bayramı, toyu, yası varıydı!
Obaların hamısı doğma, yaxın, dost, tanış,
Zod, Ağkilsə, Ağbulaq, Cil, Babacan, Ardanış!
Ncçə-neçə kənd adı, saymağa yox ehtiyac,
Sazlı-sözlü bir diyar, şöhrətdən başında tac!
Burda meydan açanın gücü torpaqdan gəlib,
Sazını çalanın da, Sözünü qoşanın da,
Döyüşlər meydanında qaynayıb coşanın da,
Səsi, eşqi, vergisi taledən, haqdan gəlib!
Bir vaxt gözəl Göyçənin gözəl də günü vardı,
Çal-çağırı, şadlığı, toyu, düyünü vardı!
Onda bulanmamışdı, sular hələ duruydu,
Göz yaşı tanımırdı, yanaqlar qupquruydu!
Saçlara sığal çəkən xoşbəxtliyin əliydi,
Könüllər havalıydı, dodaqlar nəğməliydi!
Hələ çevrilməmişdi İrəvan Yerevana,
Hələ çevrilməmişdi Göyçə gölü Sevana!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ ki Basarkeçər Vardenis olmamışdı,
Düz tərsinə çevirib, yaxşı pis olmamışdı.
Torpağın halal qızı, halal oğlu varıydı,
Onda Gümrü varıydı, Calaloğlu vanydı!
Neçə kəndin, şəhərin,
Neçə çayın, çeşmənin
Sehrli mənzərənin adı dəyişməmişdi,
Ətri, rəngi, şirəsi, dadı dəyişməmişdi!
Zaman verdi hökmünü, illər yaman dəyişdi!
Döndü kin yuvasma, gözlər yaman dəyişdi,
Dişlər yaman qıcandı, üzlər yaman dəyişdi.
Adam vaxtı dəyişdi, vaxt adamı dəyişdi,
Kəsilən çörəklərin dadı-tamı dəyişdi.
Ürəklərdə sevgilər nifrətə, kinə döndü,
Çevirdilər taxtını, dünya tərsinə döndü!
Yandıranlar sevinib, yananlar ah çəkirdi,
Qonşu öz qonşusunun üstə silah çəkirdi.
Soyuqlaşdı salamlar, əllər yaman dəyişdi,
Dəyişdi öz səmtini, sellər yaman dəyişdi.
Pay verib pay alanlar sanki peşiman oldu,
Aralığa qan düşdü, ortalıqda qan oldu.
Eşidənlər çox olub fəryadını, səsini,
Zodlu usta Abdulla
Bəlkə o zaman qoşub bu qəmli nəğməsini:

"Yandım, yetirən olmadı,
Mətləb bitirən olmadı.
Öldüm, götürən olmadı,
Qaldım ağlar arasında!"

Bu ahı, bu naləni
Əsən qəmli küləklər dağa-daşa çatdırıb,
Yazıq kişi ağlayıb,
Bu dərdlərin içində ömrü başa çatdırıb!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QANLI TARİX

Durdu gözüm önündə
Yenə qanlı tarixin qanlı faciələri.
Arxaya boylananda xatırladım nələri...
Unudarmı nəsillər
18-ci ilin qar-boranlı qışını,
Məkxli düşmənlərin kin dolu baxışını.
Göyçəli Səməd ağa, yanında Aşıq Nəcəf,
Qam dayandırmağı özünə sayıb şərəf.
Qışın oğlan çağında
Dostun da, düşmənin də gözünün qabağında,
Barışmağa gedirlər
Erməni Ağacanın qançanağı evinə.
Gərək elə çıxalar bu söhbətin içindən
Nə dostlar qan ağlaya, nə düşmənlər sevinə!
Arxadan səslər gəlir:
Getmə, ay Səməd ağa, səni öldürəcəklər!
Getmə, ay Aşıq Nəcəf, səni öldürəcəklər!
Ürəkləri göynədir sızıltılar, acılar,
"Getmə" deyir analar, "getmə" deyir bacılar.
Sizsiz nə qiyməti var bu obanın, bu elin,
"Getmə" deyir oğullar, "getmə" deyir qız, gelin.
Yurdunun, yuvasının sitəmini görən kəs
Ölümün üstə belə "getmirəm" deyə bilməz!
Getməmək olardımı el güdaza gedəndə,
Doğmaların qəlbini qasırğalar didəndə?!
Ona qıymaq olarmı, haşa Ölümdən, haşa!
Gedirdi Aşıq Nəcəf, boy-buxunu tamaşa.
Heç ölüm gələrdimi xəyalına, ağlına,
Heç qıymaq olardımı elin gözəl oğluna!
Səs Allah vergisiydi, avaz Allah vergisi,
Yazılmışdı bəxtinə Allahın şah vergisi!
Yerişi yerə şöhrət, baxışı göyə şöhrət,
Gedirdi Aşıq Nəcəf!
Göyçənin göyçək oğlu,
Çal-çağırı, çalğısı kamana, neyə şöhrət.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təzə-tər çiçək oğlu!
Ocaq oğlu, pir oğlu!
Məclislərin şir oğlu!
Arxadan səs gəlirdi "Səni öldürəcəklər"!
Yoldan, izdən, cığırdan,
Qayadan səs gəlirdi "Səni öldürəcəklər"!
Səslərin vahiməsi ona əzab verirdi,
Pıçıltıyla dillənib, səsə cavab verirdi:
"Yox! Məni öldürməyə heç kəsin əli gəlməz,
Sənətkarı susdurub, sənəti öldürələr,
Heç bir zaman dünyaya belə bir dəli gəlməz"!
Ancaq o bilmirdi ki,
Heç kəsi bağışlamır düşmən qəddar olanda,
Nalələr eşidilmir qulaqlar kar olanda!
Görən gözü kor olur,
İnsanların çəkdiyi amana, aha baxmır!
Başının üstündəki böyük Allaha baxmır!
Elə bilir dünyada
Yaradan da özüdür, öldürən də özüdür.
Ağladan da özüdür, güldürən də özüdür.
Öz gözündə fil olur, özgəni milçək sanır,
Özünü Allah bilir, yer üzündə tək sanır.
Düşünür öz-özünə:
Məndən sonra da mənəm, məndən əvvəl də mənəm,
Düşünən baş-beyin də, yaradan əl də mənəm!
Dil yoxdu bu dünyada, mənim dilimdən özgə,
El yoxdu bu dünyada, mənim elimdən özgə!
Adəm mənim yanımda lap dünənki uşaqdır,
Həvva qədimliyindən danışırsa, nahaqdır!
Qəlbindən keçənlərə
Şübhə də var, inam da.
Öz-özünə düşünür: mən nə dedimsə, haqdır!

"Yan!" - deyib yandırdılar,
"Sın!" - deyib sındırdılar,
Samovar bağladılar Nəcəfin kürəyinə!
Dağ çəkdilər Bülbülün ruhuna, ürəyinə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şırıl-şırıl axdı su,
Yandırdı su, yaxdı su!
Samovar cızıldadı köz üstə kabab kimi,
Dünya əzab görməyib
Mənim xalqım çəkdiyi dərd kimi, əzab kimi!
Bu qaynar sudan betər
Düşmənin baxışları aşığı yandırırdı,
Rəzilliyin dəhşəti ağanı dondururdu.

Ovu vaxtında vurdu, keçirmədi bərədən,
Yağılar ləzzət aldı bu qanlı mənzərədən.
Yandıran şirin-şirin
Yanana baxa-baxa, "aşıq, oxu" deyirdi,
"Sənin payına düşsün dərdin çoxu" deyirdi.
İliyinə, qanına od yeriyə-yeriyə,
Qan tökülə-tökülə, piy əriyə-əriyə
Oxudu Aşıq Nəcəf!
Amma yaman oxudu!
Yaralı durna kimi
Dağda duman oxudu!
Oxudu Aşıq Nəcəf, oddan, közdən oxudu,
Hər nəyi oxudusa, ancaq bizdən oxudu!
Yerə-göyə sığmayan dərdimizdən oxudu!

Ay amandı,
Xalların nə yamandı.
Namərd mərdə güc gəlir,
Qoymayın, ay amandı!

Nə bağışlar,
Dost dosta nə bağışlar?
Başım cəllad əlində:
Nə kəsər, nə bağışlar!

Məni bu dərdə qoyma,
Yurdu namərdə qoyma.
Varsansa, ulu Tanrı,
Qanımı yerdə qoyma!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əzizinəm, odumu,
Dağdan gələn odumu.
Su od söndürən olur,
Su yandırdı odumu.

Əzizinəm, yüz yalvar,
Əlli bələn, yüz yal var.
Namərd imdada yetməz,
Tut ətəyin, yüz yalvar!

Qala yerdə,
Bürc yerdə, qala yerdə.
Qorxuram qərib öləm,
Cənazəm qala yerdə.

Göyçəli Səməd ağa
Dözəmmədi bu zülmə, dözəmmədi bu dağa!
Dözəmmədi aşığın bu yanıqlı səsinə,
Dözəmmədi düşmənin bu qəfil zərbəsinə.
Ağa heç gözləmirdi
Qarşısında dayanan bu qədər qansız ola,
Allahını unuda, dinsiz, imansız ola.
Ağanı da vurdular,
Ruhunu təhqir edib, qəlbini susdurdular!
Axır ki, üzə çıxdı müxənnətin paxırı,
Bu da barışıq günü, bu da işin axırı!
O zamandan Göyçənin dərdi birə on oldu,
Axırına çıxdılar, axır oldu, son oldu!
Qaya-qaya yardılar! Damar-damar qırdılar!
Qurtum-qurtum sordular! Yorta-yorta yordular!
Xıncım-xıncım əzdilər!
Qıyma-qıyma kəsdilər!
Loğma-loğma uddular!
Qarış-qarış tutdular!!!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÇƏKİLMƏZ DƏRD

Qazan altda köz qoydular, ocaq çatdılar,
Bu qazanı qaynatdılar daşana qədər.
Qovan qovdu, əməlindən ol götürmədi,
Qaçan qaçdı, yeddi bələn aşana qədər.

Düşmən deyən doğru çıxdı, yalan olmadı,
Heç bir şəhər könlüm kimi talan olmadı.
Bu daşqının qarşısını alan olmadı,
Bir çay kimi havalanıb daşana qədər.

Bu meydanda duruş tapıb durmaq olardı,
Xəyanətin sədlərini yarmaq olardı.
İnadkarın inadını qırmaq olardı,
Düz yolunu əyri gedib çaşana qədər.

Soyuq-soyuq baxışları görənlər
Yavaş-yavaş əkilməyə başladı.
Rahatlığı əlimizdən aldılar,
Yuxu gözdən çəkilməyə başladı.

Göz oxşayan yaşılıydı, alıydı,
Bərəkəti-pətəyiydi, balıydı.
Gözəl Göyçə min naxışlı xalıydı,
İlmə-ilmə sökülməyə başladı.

Qara gəldi hər həftəsi, hər ayı,
Yer titrətdi könüllərin harayı.
Rahatlığın, xoşbəxtliyin sarayı
Kərpic-kərpic sökülməyə başladı.

Köç yolunda oğul itdi, ər itdi,
Zaman çox-çox ağlayanı kiritdi.
Qara tale insanları əritdi,
Palıd qəddi bükülməyə başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Al yanağın alı getdi,
Bal dodağın balı getdi.
Qaçaqaçda, köçəköçdə
Köhlənlərin nah getdi.

Bəxtimizə gör nə düşüb gözümüzü açanda,
Sərt yoxuşlar, sərt döngələr, aşırımlar, bələnlər.
Öz evindən ayrı düşmək ölümdən də betərmiş,
Duyar məni doğma yurdun qiymətini bilənlər.

Ələ fürsət keçən kimi düşmən qansız olurmuş,
İtirib insafı, dini, lap imansız olurmuş.
Birdən-birə qalxan tufan çox amansız olurmuş,
Ağlımıza heç gəlməzdi başımıza gələnlər.

Ayrılanda nalə qopdu neçə qızdan, qadından,
Hamı daddı ayrılığın ləzzətindən, dadından.
Zaman-zaman çıxan deyil heç bir kəsin yadından
Oğul, uşaq, qoca, cavan, yarıyolda ölənlər.

Dərk edəndə dərdlərimi, gördüm dağdan yekəymiş,
Fil dərdini insanlar yox, gərək fillər çəkəymiş.
Aman Allah! Mənim yurdum gör, nə yağlı tikəymiş,
Baxıb-baxıb ləzzət alır böldürənlər, bölənlər!

Qaynar bulaq, sularından içəllər,
içəni biz olmarıq!
Qədim körpü, sinən üstdən keçəllər,
keçəni biz olmarıq!
Göy biçənək, payız səni biçəllər,
biçəni biz olmarıq!
Yay gələndə göy yaylağa köçəllər,
köçəni biz olmarıq!
Dağ ətəyi, səndə süfrə sərəllər,
sərəni biz olmarıq!
Yaşıl çəmən, səndə çiçək dərəllər,
dərəni biz olmarıq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çeşmə başı, sənə könül verəllər,
verəni biz olmarıq!
Ulu Göyçə! Səndə ömür sürəllər,
sürəni biz olmarıq!

Dünyaya fufan gələr,
Yandıran kim olsa da,
Yananı biz olarıq!
Dünyaya hicran gələr,
Donduran kim olsa da,
Donanı biz olarıq!
Dünyaya vulkan gələr,
Odunda, alovunda
Qaynayan biz olarıq!
Dünyaya heyvan gələr,
Buynuzunun ucunda
Oynayan biz olarıq!

Heç bilmədik yerdən gəldi, göydən gəldi,
Qardaş, tufan birdən gəldi.
Dünya xeyrə qurşananda
Bizimki də şərdən gəldi!
Müxənnətlər, qəlbidarlar
Yeridilər, yüyürdülər, tərlədilər,
Göydəndüşmə tarixləri, saxta-saxta kağızları
O tərəfə, bu tərəfə çevirdilər, hərlədilər.
Axır bizi tora salıb,
Axır bizi şərə salıb şərlədilər!
Mənim zəif damarımı tapdı düşmən,
Azərbaycan torpağını
Parça-parça qazdı, tökdü,
Qaya-qaya çapdı düşmən!
Eraların arxasından
Baş qaldıran mənəm! - dedi.
Torpaq əkən, saray tikən,
Daş qaldıran mənəm! - dedi.
Yer üzündə on birinci dövlət mənim dövlətimdi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu dənizdən o dənizə şöhrət mənim şöhrətimdi.
Onun-bunun tarixini oğurladı oğru kimi,
Yalanları daşa yazdı
Gerçək kimi, doğru kimi!
Gündə bir əl pəhləvanı,
Gündə bir dil pəhləvanı,
Başa keçdi, taxta çıxdı.
Hər gələnin havasıyla
Təzə tarix yazdırdılar,
Ancaq yenə saxta çıxdı!
Bu bədxahlar bilmədi ki,
Bəmi çəkib zil eləmək tarix deyil!
Onun-bunun gözlərinə kül ələmək tarix deyil!
Tarix - xalqın kökündədir, zatındadır,
Tarix - xalqın açılmamış neçə-neçə qatındadır!
Tarix - xalqın yaşatdığı həqiqətdə, doğrudadır!
Tarix - xalqın yaşadığı əzabdadır, ağrıdadır!
Yaman qonşu!
Ayağımın altını qaz!
Tariximi tərsinə yaz!
Ancaq bil ki, bizə doğru tuşladığın silahları
Tarix sənə bağışlamaz!
Əl sınanda əlacı var,
Qol sınanda, bel sınanda əlacı var,
Vay o gündən ürək sına,
Qəlbi, ruhu kövrək sına!
Qəlbimizi yaman qırdın.
Daş sevərik, quş sevərik,
İt sevərik, qurd sevərik,
Yer sevərik, yurd sevərik,
Sənə sevgi bəsləmərik!
Xeyrə, şərə, toya, yasa bir gedərdik,
Daha səni çağırmarıq, daha səni səsləmərik.
Daha bizi çağırmağa üzün gəlməz,
Daha bizi səsləməyə dilin yoxdu.
Şər ocağı qalamısan,
Xeyir işdə izin yoxdu, əlin yoxdu!
Qocaları, uşaqları,
Yaşadığı doğma yurddan birdəfəlik ayırand;
Allahını unudanda, qılıncını sıyıranda,
Bilmədinmi səni tutar xalqın ahı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnnən belə dağ çayları min il axa,
Bulud dola, şimşək çaxa,
Gümüş göllər dalğalana, ləpələnə,
Gur yağışlar gen düzlərə səpələnə,
Yuya bilməz sən tutduğun bu günahı!

**DOĞMA YURDDAN BİRDƏFƏLİK AYRILANDA**

Ürəyinə bir xal düşür, ləkə düşür,
Baxışma bulud enir, kölgə düşür,
İnsan olan, bir görün nə kökə düşür,
Doğma yurddan birdəfəlik ayrılanda!

Odda yanar, suda batar, sel aparar,
İnsan saman çöpünə də əl aparar,
Bərəkəti dolu döyər, yel aparar,
Doğma yurddan birdəfəlik ayrılanda!

Yuvasmdan perik düşon quşa dönər,
Kodər gözdə bir qurumaz yaşa dönər,
İnsan dərdi çəkə-çəkə daşa dönər
Doğma yurddan birdəfəlik ayrılanda!

Ayrı düşdük isti-isti yuvalardan,
Ayrı düşdük sərin-sərin havalardan.
Ayrı düşdük ocaqların istisindən,
Ayrı düşdük bacaların tüstüsündən.

Doğma yurddan ayrı düşmək –
Hər gün göydən asılmaqdı!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetim kimi, yesir kimi
Bir tərəfə qısılmaqdı!
Dağ başından zil qaranlıq
Dərələrə sürüşməkdi!
Addımbaşı əcəl ilə,
Ölüm ilə görüşməkdi!
Damla-damla, gilə-gilə,
Zərrə-zərrə əriməkdi!
Parça-parça, damar-damar,
Buğum-buğum çürüməkdi!
Pencər kimi sıxılmaqdı,
İçəridən oyulmaqdı!
Diri-diri, qarış-qarış,
Təpə-dırnaq soyulmaqdı!
Şüşə kimi pul-pul olub tökülməkdi!
Əzilməkdi, əyilməkdi, bükülməkdi!
Doğma yurddan ayrı düşdün,
Gör arxanda nələr qaldı!
Neçə zirvə, neçə dərə,
Neçə yaylaq mələr qaldı!
Neçə-neçə külə dönmüş
Bir də heç vaxt alışmayan ocaq qaldı!
Ürəyində yaşayanlar gözlərindən uzaq qaldı!
Sinəsində yeridiyin çəhlim qaldı, cığır qaldı.
Şahin öldü, qartal susdu,
Geriyə boylanıb baxan,
Ürəyindən qanlar axan,
Neçə-neçə yazıq qaldı, neçə-neçə fağır qaldı!
Doğma yurddan ayrılanın əli işə-gücə yatmaz,
Gündüz səbri-qərarı yox, kirpik çalıb gecə yatmaz!
Əli işindən soyuyar, işi əlindən soyuyar,
Baxışından nur azalar, sözü dilindən soyuyar.
Əl uzatsa yurda sarı barmaq donar, əl üşüyər,
"Elim" desə, "obam" desə dodaq göynər, dil üşüyər.
Qürbət eldə xəzinə tap, doğma yurda əvəz deyil,
Hər şəhərdə bir qala yap, doğma yurda əvəz deyil!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Süd arxı çəkdir evinə, doğma yurda əvəz deyil
Aləm gülə, el sevinə, doğma yurda əvəz deyil!
Yeddi yerdən qulluğuna yeddi gözəl pay gətirə
Yeddi yerdən mələkələr sənə ulduz, Ay gətirə
Şahlar kimi taxtın ola,
Taxtın kimi baxtın ola
Doğma yurda əvəz deyil!

Doğma yurdun həsrəti var,
Hey incəldər, üzər səni.
Bu həsrətin zilləti var,
Basar, sıxar, əzər səni.

Bu xiffətin zilləti var,
Bu zillətin xiffəti var,
Kinli-kinli süzər səni.
Əjdahatək ağız açıb
Qucaqlayar məzar səni.

Yel əsəndə yellənərdik,
Sel gələndə sellənərdik,
Süzülərdik, göllənərdik,
Havamızı, suyumuzu
Bizə haram elədilər!

Boz atımız çullanardı,
Qır atımız nallanardı.
Şux gözəllər ballanardı,
Yasımızı, toyumuzu
Bizə haram elədilər!

Arzu sonsuz, ömür qısa,
Neçə toylar döndü yasa.
Başımızdan basa-basa,
Çinar kimi boyumuzu
Bizə haram elədilər!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alovlanan, çıraqlanan,
Hay deyəndə yaraqlanan,
Kitab kimi varaqlanan
Əslimizi, soyumuzu
Bizə haram elədilər!

Qaçaq Kərəm!
Sən düşdüyün Soyuqbulaq yaylağına
İndi gəlib yağı düşüb.
Düşmən vurub qılıncını, qolumuzun sağı düşüb.
Nənələrin dillərinə
Təzə-təzə layla düşüb, təzə-təzə ağı düşüb!
Gözəldərə yaylağına Tovuz eli çıxmır daha!
Biz dağlara çox baxırıq, dağlar bizə baxmır daha!
Dürlü bulağın başına Bozalğanlı getmir daha,
Qara-qara qayaların ətəyində
Qara sazlar ötmür daha!
Fikir-xəyal qanadlanıb Topaşandan aşmır daha,
Nisgilimiz aşıb-daşır, sevincimiz daşmır daha!
Toğlucalı cığal Həsən! Toğluca son görən deyil,
İnnən belə o dağlardan əsən yellər
Azərbaycan qızlarının saçlarını hörən deyil!

Sən Göyçənin loğmanıydın, Hacı Nağı,
Sən dərdlərin dərmanıydın, Hacı Nağı!
Ağrıların yarasıydın,
Yaraların məlhəmiydin, könüllərin həmdəmiydin.
Min bir dərdə olac olub, min bir dərman tapasıydın.
Sınıq əli, sınıq qolu, sınıq könlü yapasıydın!
Hacı Nağı... Hacı Nağı...
Sağalası deyil daha sinəmizin Göyçə dağı!
Ulu loğman yerdən qalxa, məzarından baş qaldıra,
"Zülmün ağır zəncirini gözdən axan yaş qaldıra".*
Unudula, yaddan çıxa bütün dərdlər, bütün qəmlər,
Yadımızdan çıxan deyil gördüyümüz bu sitəmlər!

* Misra Rəsul Rzanındı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göyçə, səndən ayrı düşdüm,
"Mənim səndə nəyim qaldı?!"
Qayaların qucağında
Səsim qaldı, küyüm qaldı.

Yazı, yayı qarlı, buzlu,
Hər neməti dadlı, duzlu,
Gül-çiçəkli, ay-ulduzlu
Yerim qaldı, göyüm qaldı.

Qara geysin bəduğuru,
Oddan, sudan çıxdı quru.
Nə gözümdə həyat nuru,
Nə dizimdə heyim qaldı.

Gərək daş olasan ki, duymayasan həsrəti,
Gərək kar olasan ki,
Eşidə bilməyəsən yer titrədən dəhşəti.
Gərək kor olasan ki,
Görməyəsən gözünə dolan acı tüstünü,
Gərək dağ olasan ki,
Dayanasan yerində sel kəsəndə üstünü.

Soruşma kiməm, nəçiyəm,
Dərdli sözündən tanınar.
Xəbər verər baxışları,
Yetim gözündən tanınar.

Sinəsini oxlar deşən,
Qürbət eldə bağrı bişən,
Torpağından ayrı düşən,
Solan üzündən tanınar.

Hey yandırar gözümü yaş,
Gözümdə yaş, başımda daş.
Közərirəm yavaş-yavaş,
Ocaq közündən tanınar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hansı ocağın közüyəm,
Hansı nəğmənin sözüyəm,
Hansı bulağın gözüyəm,
Mən bilmirəm, ellər desin!

Oldum zədən-zədən, yandım!
Külə döndü bədən, yandım!
Niyə yandım, nədən yandım!
Qoy yanıqlı tellər desin!

Göydən zülüm yağa-yağa,
Keçdim sola, qaçdım sağa.
Niyə düşdüm dağdan-dağa?
Məcnun gəzən çöllər desin!

CİLLİ AŞIQ MÜSEYİB

Cilli Aşıq Müseyib!
Sənin sazın dil açıb Cildən oxumaz daha,
Bəmdə dinər, danışar, zildən oxumaz daha!
Bülbül kimi ötərdin, dilliydin, dilsiz oldun,
Köç-köç oldu barxanan, elliydin, elsiz oldun.
Coşub-daşan bir eşqin seli dağlarda qaldı,
Çaldığın havaların gülü dağlarda qaldı.
Hanı o qumrovlu səs, hanı o şirin avaz,
Telləri kökləməyə nə güc qalıb, nə həvəs.
Dindi Aşıq Müseyib, dindi, amma nə dindi,
Neçə əsr dil açdı, neçə qərinə dindi.

Danış deyirsən, oğul,
Pozdular pərənimi, elimdən nə danışım?
Nə danışsam ağırdı,
Nə danışsam ölümdü, ölümdən nə danışım?
İçim məni yandırır,
Görən yoxdu tüstümü, çölümdən nə danışım?
Heç yadımdan çıxarmı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Evimdən, eşiyimdən son dəfə çıxdığım gün,
Göz açdığım torpağa son dəfə baxdığım gün!
Boylananda dağlara kimlər yadıma düşdü,
Neçə bəxti, taleyi kəmlər yadıma düşdü!
Qayalar titrədərdi Aşıq Əsədin səsi,
Qulaqlardan gedərmi Nəcəfin zənguləsi!
Yeddi dildə danışan Mirzə Bəylər varıydı,
Neçə qılınc oynadan ər oğlu ər varıydı.
Yatır Miskin Abdalım, Məmmədsöyün oyanmaz,
Bu ağrıya hər ürək tab gətirib dayanmaz!
Ucuz ölüm olmadı, ölüb orda qalaydım,
Payımı, qismətimi bölüb orda qalaydım.
O yerdə qazılmasa od tutar qəbrim yanar,
Dözməyi bacarmaram, dözümüm, səbrim yanar!
Uşaqlıq orda qaldı, cavanlıq orda qaldı,
Ömrə, günə, həyata heyranlıq orda qaldı!
Hardan-hara gətirdim gərəksiz qocalığı,
Qalıb ancaq ömrümün beş-on günlük qalığı!

Ha çağırdım oyanmadı,
Qalxan bəxtim yatan oldu.
Tale qoydu sapandına,
Eldən-elə atan oldu.

Tapılarmı itən səsim,
Hər diyara yetən səsim.
Qumru kimi ötən səsim
Birdən-birə batan oldu.

Sənətin xan aşığıydım,
İşıqlı dan aşığıydım.
Mən gündoğan aşığıydım,
Qismətim günbatan oldu.

Get mənsiz o dağların
Sağalmaz dağına bax!
Qışda qışlağını gör,
Yayda yaylağına bax!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üstümə gün doğardı,
Bəxtimə nur yağardı.
Bir gecədə ağardı
Saçımın ağına bax!

Gəl qaçqının yanına,
Qorxu hopub canına.
Saralmış bostanına,
Üzülmüş tağına bax!

Eşqini çəkib zilə,
Dərdini salıb zilə.
Qəribin gilə-gilə
Əriyən yağına bax!

Üzü gülməz baxtımın,
Yazı gəlməz vaxtımın.
Şahlığımın, taxtımın
Çevrilən çağına bax!

Tez-tez gözlərin dolur, əl atırsan yaylığa,
Qoca dünya çox belə getməz, Aşıq Müseyib!
Yenə bülbüllər gələr, öz yerinə, yurduna,
Bayquşlar başa kimi ötməz, Aşıq Müseyib!

Az özünü darıxdır, az qəlbini əz daha,
Sazla gəzdiyin yeri xəyalınla gəz daha.
Yüz fikir bircə borcu ödəyə bilməz daha,
Bu elə nisgildi ki, bitməz, Aşıq Müseyib!

Avazdan mayalanıb, nəfəsdən mehrlənib,
Sənətin qüdrətiylə könüllər sehrlənib.
Ələsgərlə, Alıyla bərkiyib, möhürlənib,
İzimiz o torpaqdan itməz, Aşıq Müseyib!

Dahi Füzuli kimi neçə bəxti kəm olsa,
Qurbani, Abbas, Kərəm, bir məclisə cəm olsa,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göydə süzən quşların lələyi qələm olsa,
Bu dərdi yazmaq üçün yetməz, Aşıq Müseyib!

Göyçə dərdi - heç vaxt yaddan çıxmayan,
Zaman-zaman qarşımıza çıxan dərd!
Qəlbimizi kaman kimi inlədən,
Ruhumuzu bir yay kimi sıxan dərd!

Qaranəfəs qasırğanı andıran,
Bizə çox-çox mətləbləri qandıran,
Üzümüzü şillə kimi yandıran,
Başımızda şimşək kimi çaxan dərd!

Bir mahalı bir gecədə kürüdən,
Ömrümüzü gilə-gilə əridən,
Oğulları ağac kimi çürüdən,
Kişiləri qaya kimi yıxan dərd!

Kül içində his bağlamış kömürdü,
Yağış döyən, sel aparan ömürdü.
Daşqın oldu, bizi yıxdı, yömürdü,
Çaylar kimi üstümüzə axan dərd!

Zaman bizlə nəs gətirdi, nəsdi, nəs,
Haqq bilir ki, haqqın səsi səsdi, səs!
Min illərin sonrasına bəsdi, bəs,
Min illərin əvvəlindən baxan dərd!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MÜNDƏRİCAT

### ŞEİRLƏR

### Mənim bircə dinim var, dinimin adı sevgi

Mənim bircə dinim var, dinimin adı sevgi……………......................................7
Dünyanın nə gözəl vaxtı görüşdük……………………………………………..9
Könlüm………………………………………………………………………….9
Dəyməyin……………………………………………………………………...10
Düşüb…………………………………………………………………………11
Bəs nədir………………………………………………………………………12
Gözlərin………………………………………………………………………..12
Qalardım……………………………………………………………………….13
Gözəllər………………………………………………………………………..14
Toy günüdür…………………………………………………………………...14
Gözləyirəm…………………………………………………………………….15
İtirərsən, tapammazsan………………………………………………………...16
Gəlin…………………………………………………………………………...16
Allah, gözlərə bax……………………………………………………………..17
Mən onda bildim………………………………………………………………18
Gözəl dünya, gözəllərin var olsun……………………………………………..19
Arzu……………………………………………………………………………20
Bacarmalısan…………………………………………………………………..21
Çatasıyam……………………………………………………………………...21
Sevgi…………………………………………………………………………22
Çin qızı, Çin gözəli……………………………………………………………22
Küsmə məndən………………………………………………………………...24
İstanbul qızı……………………………………………………………………25
Ay Kərəm……………………………………………………………………...26
Bu yaşıl ağacın altı bizimdi……………………………………………………27
Dedilər, məclisdə bədnəzər olar……………………………………………….28
Gözəldi………………………………………………………………………...29
Səni sevmək üçün gəldim dünyaya……………………………………………29
Sevərmiş……………………………………………………………………….30
Dəli olmağıma bir addım qalıb………………………………………………..31



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu axşamı sən gətirdin…………………………………………………...32
Bu qız niyə havalanıb görəsən…………………………………….......33
"Sarıtel" oxuyan qaratel gözəl………………………………………34
Bircə məni xatırla…………………………………………………...35
Qayıdaq əvvəlki xatirələrə………………………………………….36
Gəlmişəm, qoynunda sığınacaq ver………………………………...37
Gedirəm bir qəlbi sevindirməyə…………………………………….33
Ürəyim köksümü yarıb çıxardı……………………………………..39
Sən gəlməmişdin…………………………………………………….39
Döymək olmur pəncərəni…………………………………………...40
Bu qız gəlin olmağa hazırlaşır deyəsən………………….....................41
Söhbət baxışlarm, söz əllərindi……………………………………..42
Biz niyə sevməyək bir-birimizi……………………………………..43
Allah səni pənahında saxlasın……………………………………….44
Xətrinə dəymə………………………………………………………….45
Şairin sözünə yalandır demə………………………………………..45
Kərəm yalan oldu, mən gerçək oldum……………………………...46
Mən sənin qəlbinə necə yol tapım…………………………………..47
Mənim bu kölgədə bir xatirəm var…………………………………48
Sevgi yağışlarına tutacağam dünyanı………………………………..49
İlahi, min şükür yaratdığına………………………………………...50
Gözlərimi özün qapa………………………………………………..51
Sevgi adlı şaha qurban……………………………………………...52
Gəlmişəm mən sənin ziyarətinə………………………………………52
Mənə xoşgəldin de, əlvida demə……………………………………...53
Sevmə məni, sən Allahı sevərsən…………………………………...54
Bir gözəl öldürdü məni……………………………………………..55
Çəkər………………………………………………………………..55
Nifrətə çevirmə məhəbbətimi…………………………………………56
Böyük sevgilər……………………………………………………...57
Könlüm………………………………………………………………...57
Mən getdim, məni gözləmə…………………………………………58
Gəl, sənə şeir oxuyum………………………………………………59
Sevənlər həmişə möhtərəm olur……………………………………60
Allahdan qorxmasaydım…………………………………………….61
Mənə dünya bağışla…………………………………………………...62
Göylərə varan mənəm………………………………………………62
Çəmən olsan, çiçəyini dərərdim…………………………………….63



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Gözümə az dəyir qarapapaqlar

Vətən……………………………………………………………………..64
Gözümə az dəyir qarapapaqlar……………………………………………..64
Yaşa……………………………………………………………………….66
Qəriblər……………………………………………………………………..67
Bu qatarla mən gedəsi olmadım…………………………………………….70
Görüş………………………………………………………………………70
Çəkə-çəkə…………………………………………………………………...71
Qoruya bilmədik məzarınızı………………………………………………...72
Borçalı deyilən……………………………………………………………...74
Kərkük……………………………………………………………………….76
Dərdin dastanı……………………………………………………………….78
Qalasıyam…………………………………………………………………...80
Dözmürəm bu dağın yıxılmağına…………………………………………..80
Necə barışdırım küsənləri mən……………………………………………..81
Səndən dili bilən olmaz……………………………………………………..83
Günahlar yuyulmaz göz yaşlarıyla………………………………………….84
Qəbirqazan…………………………………………………………………..85
Düz gəlib, düz gedən adam………………………………………………….86
Layla, Xocalım, layla………………………………………………………..87
Bu gecə yuxuma girmişdi Şuşa……………………………………………..89
Kəlbəcərdən gələn qarı……………………………………………………..90
Dünya, dərdin çəkiləsi dərd deyil…………………………………………..93
Torpaq kimi…………………………………………………………………94
Dünya………………………………………………………………………..95
Təbrizdən ayrılanda………………………………………………………...96
İlahi………………………………………………………………………….97
Bakıdan gəlmişəm, Şəhriyar babam………………………………………...98
İtki-qazanc…………………………………………………………………100
Xocalım, ay Xocalım……………………………………………………...101
Dərd………………………………………………………………………..103
Canımız…………………………………………………………………….104
Günahsız gəlirik…………………………………………………………...104
Bazar yolu………………………………………………………………….105
Könülsüz dərviş…………………………………………………………….105
Narazı……………………………………………………………………...106



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İtirdiyim "dost"a ərməğan……………………………………………106
Suç mənim………………………………………………………………107
Vaxtsız döymə qapımı………………………………………………108
Haqlısan şairdən gileylənməyə……………………………………109
Ağdam Qarabağın toy otağıydı……………………………………110
Olmaz…………………………………………………………………...112
Gecikmiş etiraf…………………………………………………………114
Ya rəbbim, ürəkdə nələr var imiş…………………………………115
İlk andımız, son andımız Turandı………………………………....118
Divar və çay……………………………………………………………119
Torpaq yanğısı………………………………………………………..120
Yeldağı haqqı…………………………………………………………...123
Mənim Borçalıda qalan illərim……………………………………....125
Zarafat eləmə…………………………………………………………....126
Gətirəcəksən………………………………………………………….....128
Kimdi səni bu qapıdan buraxan……………………………………...129
Mərdimiz-dərdimiz…………………………………………………..130
Ağrı……………………………………………………………………...131
Sən allah, dilinə qeybət gətirmə……………………………………...132

**Füzuli heyrəti, Sabir qeyrəti**

Nizami dünyası………………………………………………………134
Yunus İmrəyə…………………………………………………………...135
Dünyanın yaxşı şeri…………………………………………………..136
Şeyxim mənim, şahım mənim, şairim mənim………………………..137
Məhəmməd Füzuliyə…………………………………………………139
Görüş-ayrılıq…………………………………………………………140
Füzuli-Sabir…………………………………………………………..142
Aşıq Ələsgərə………………………………………………………....142
Cavid Əfəndi…………………………………………………………143
Kişi……………………………………………………………………...144
Ələsgər ocağında oxunan nəğmələr…………………………………145
Sənə bağlı xatirələr…………………………………………………....148
Kəlbəcərdə oxunan nəğmələr………………………………………...150



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hüseyn Arif haqqında xatirə şeirləri……………………………………………154
Məmməd Araz işığı……………………………………………………………..158
Məmməd Araz var……………………………………………………………...160
Xəlil Rzaya ağı…………………………………………………………………162
Serimiz………………………………………………………………………….166
Pir kimi baxdım…………………………………………………………………167
Şairlik……………………………………………………………………………..168
Mən hardan bilərdim şairlik nədir……………………………………………170
Mən sözün anası………………………………………………………………...171
Şair qələmiylə işin olmasın……………………………………………………..171
Dadaloğluna……………………………………………………………………..173
"Bəhmən Vətənoğluna məktublar" silsiləsindən…………………………......174
Nə təmiz yaradıb………………………………………………………………175
Kimdi……………………………………………………………………………...176
Aşıq Kamandara…………………………………………………………………...177
Məmməd Aslana………………………………………………………………..178
Habil……………………………………………………………………………….179
Öldürür…………………………………………………………………………......179
Gətirə………………………………………………………………………………180
Qan damlatsan, can bitər………………………………………………………..181
Haqqı axtara-axtara……………………………………………………………..182
Kim nə bilərdi……………………………………………………………………..184
Gənc şairə…………………………………………………………………………185
Allah və şair……………………………………………………………………….185
Günay Zəlimxanqızına……………………………………………………186

**Duyğular... Düşüncələr...**

Bethoven torpağında dost sazı dillənirdi……………………………………..187
Atatürk köşkündə keçən günlərim……………………………………...192
Gəlmişəm…………………………………………………………………………194
Yol……………………………………………………………………………..195
Get………………………………………………………………………………….196
Görə bilirsənsə…………………………………………………………………197
Mən zamanı zamanında yaşadım…………………………………………….198



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göllər bəxtəvər olub…………………………………………………….193
Yoxdu bu dərdin dərmanı………………………………………………199
Mələklər belə yaşayır…………………………………………………...200
Yalan şeydir əbədiyyət………………………………………………….200
Ölüm məndən vaz keçdi………………………………………………..201
Hünəri çatmaz…………………………………………………………..202
Allah deyə-deyə böyüyür insan………………………………………....202
Yetimlik…………………………………………………………………..203
Cenevrə düşüncələri……………………………………………………205
Gözəllik duyulan yerdə…………………………………………………206
Çiçəkli yer………………………………………………………………207
Göylərə çağırış var……………………………………………………...208
Xəbərim yox özümdən………………………………………………….208
Gözəllik dəlisi…………………………………………………………..209
Bu ağacın bar gətirən vaxtıdı…………………………………………...209
Baş götürüb əlli beşə gedirəm………………………………………….210
Tökülər…………………………………………………………………….211
Torpaq ətri……………………………………………………………….211
Mən ürəyi ürək kimi saxlamadım………………………………………212
Gəl, şəklini çəkim, dünya………………………………………………213
Haqdan nemət istədim………………………………………………….215
Haqqı dinləmək gözəl…………………………………………………..215
Qoy yatım, yuxudan qaldırma məni……………………………………216
Allaha yaxınlıq…………………………………………………………….216
İki qapı…………………………………………………………………….217
Ayıq saxlayan olsun……………………………………………………….218
Mən nəyinə lazımam…………………………………………………….218
Qardaş kimi……………………………………………………………..219
Can deyir, can eşidir…………………………………………………….220
Özün yazdın hər qisməti………………………………………………..221
Öldürür…………………………………………………………………….221
Rahat ölüm……………………………………………………………...222
Düdü……………………………………………………………………….222
Həyəcan………………………………………………………………….223
Sən demə…………………………………………………………………..223
Ağaca çiçək ver, çiçəyə bar ver………………………………………...224



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vaxtsız ayrılmasın durna qatardan……………………………………...225
Qəbrə apardığım sirr……………………………………………………225
Oxuya bilmədim axıra qədər……………………………………………226
Qoşa sətirlər…………………………………………………………….227

**POEMALAR**

Borçalıda qalan izlər……………………………………………………237
Göyçə dərdi……………………………………………………………..252



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buraxılışa məsul: *Əziz Güləliyev*

Nəşriyyat redaktoru: *Əlişirin Şükürlü*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektorlar: *Cəmilə Məcidova*
*Elsevər Muradov*

Yığılmağa verilmişdir 27.04.06. Çapa imzalanmışdır 24.05.06.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 18. Ofset çap üsulu,
Tiraj 25000. Sifariş 65.
Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional